Azərbaycan Texniki Universiteti

Azərbaycan Texniki Universiteti

İnstitusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında

# HESABAT

Hesabat Azərbaycan Texniki Universitetinin
Elmi Şurasının 02/12/2022-ci il tarixli iclasının
qərarı ilə təsdiq edilmişdir.

Tarix _______________

İmza _______________

M.Y.

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ

2022

## Mündəricat


**I. Giriş** 3

1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar 3
2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki 4
3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair 9

**II. Təhsil müəssisəsinin özünütəhlili** 19

4. Özünütəhlil qiymətləndirilməsinin icmalı 19
5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri 105
6. Təşkilati komissiyanın gəldiyi nəticələr və qeydlər 107

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər 115**

# I. Giriş

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Texniki Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 28 mart 2014 |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | XXX |
| Təhsil müəssisəsinin rəhbəri | Vilayət Vəliyev |
| Fakültələrin sayı | 7 (Yeddi) |
| Kafedraların sayı | 22 (İyirmi iki) |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 37 (otuz yeddi) |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisas: 35 (otuz beş),<br>İxtisaslaşma: 133 (yüz otuz üç) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 34 (otuz dörd) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalan sayı<br>Bakalavriat: 8457<br>Magistratura: 2515<br>Doktorantura: 112<br>Elmlər doktorluğu proqramı üzrə: 43 |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 580 (beş yüz səksən) |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 96 (doxsan altı) |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | www.aztu.edu.az<br>aztu@aztu.edu.az<br>+99412 538-33-83 |
| Müəssisənin hüquqi ünvanı | AZ1073, Bakı şəhəri Yasamal rayonu, Hüseyn Cavid pr., ev 25 |
| Müəssisənin faktiki ünvanı | AZ1073, Bakı şəhəri Yasamal rayonu, Hüseyn Cavid pr., ev 25 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| 1. | **Nurəli Yusifbəyli** | **Sədr** | yusifbayli.n@aztu.edu.az |
| 2. | **Əfqan Abdullayev** | **Sədr müavini** | afqan.abdullayev@aztu.edu.az |
| 3. | **Şərəfxanım Əliyeva** | **Katib** | sharafxanim@aztu.edu.az |
| 4. | **Fariz Məmmədov** | **Strateji inkişaf istiqaməti üzrə işçi qrupun rəhbəri** | fariz.mammadov@aztu.edu.az |
| 5. | **Emin Teymurxanlı** | **İşçi qrup üzvü** | eteymurxanli@aztu.edu.az |
| 6. | **Samirə Kərimova** | **İşçi qrup üzvü** | samira.karimova@aztu.edu.az |
| 7. | **Nabat Cabbarova** | **İşçi qrup üzvü** | nabat.cabbarova@aztu.edu.az |
| 8. | **Təhminə Yaqubova** | **Keyfiyyət təminatı istiqaməti üzrə işçi qrupun rəhbəri** | tehmine.yaqubova@aztu.edu.az |
| 9. | **Elnurə Cəfərova** | **İşçi qrup üzvü** | elnure.ceferova@aztu.edu.az |
| 10. | **Tuti Abdullayeva** | **İşçi qrup üzvü** | tuti.abdullayeva@aztu.edu.az |
| 11. | **Rasim Həsənzadə** | **İşçi qrup üzvü** | rasim.hasanzada@aztu.edu.az |
| 12. | **Eyvaz Məhəmmədli** | **İşçi qrup üzvü** | eyvaz.mehemmedli@aztu.edu.az |
| 13. | **Ərəstun Məmmədov** | **Təlim və tədris istiqaməti üzrə işçi qrupun rəhbəri** | arastun.mammadov@aztu.edu.az |
| 14. | **Allahverdi Şərifov** | **İşçi qrup üzvü** | sharifov.allahverdi@aztu.edu.az |
| 15. | **Hüseynqulu Quliyev** | **İşçi qrup üzvü** | huseyngulu@aztu.edu.az |
| 16. | **Nizami Poladov** | **İşçi qrup üzvü** | nizami_poladov@aztu.edu.az |
| 17. | **Malik Qarayev** | **İşçi qrup üzvü** | malik.qarayev@aztu.edu.az |

| | | | |
|---|---|---|---|
| 18. | **Taleh Şirinov** | **İşçi qrup üzvü** | taleh.sirinov@aztu.edu.az |
| 19. | **Elçin Rzayev** | **İşçi qrup üzvü** | elchin_rzayev@aztu.edu.az |
| 20. | **Fərqanə Musayeva** | **İşçi qrup üzvü** | farganamusayeva@aztu.edu.az |
| 21. | **Anar Əliyev** | **İşçi qrup üzvü** | anar.aliyev@aztu.edu.az |
| 22. | **İftixar Çələbi** | **İşçi qrup üzvü** | i_chalabi@aztu.edu.az |
| 23. | **Aytən Sadıqova** | **İşçi qrup üzvü** | ayten.sadiqova@aztu.edu.az |
| 24. | **Rəna Hətəmova** | **İşçi qrup üzvü** | hr@aztu.edu.az |
| 25. | **Milana Orucova** | **İşçi qrup üzvü** | milana.orucova@aztu.edu.az |
| 26. | **Samir Musayev** | **İşçi qrup üzvü** | samirmusayev@aztu.edu.az |
| 27. | **Elnur Rüstəmov** | **İşçi qrup üzvü** | rustemov.elnur@aztu.edu.az |
| 28. | **Xəyalə Hacıyeva** | **İşçi qrup üzvü** | xeyale.haciyeva@aztu.edu.az |
| 29. | **Şamil Nurullayev** | **İşçi qrup üzvü** | teleberektor@aztu.edu.az |
| 30. | **Sübhan Namazov** | **Elmi - Tədqiqat istiqaməti üzrə işçi qrupun rəhbəri** | subhan.namazov@aztu.edu.az |
| 31. | **Natəvan Namazova** | **İşçi qrup üzvü** | natavan.namazova@aztu.edu.az |
| 32. | **Mərziyyə Ağayeva** | **İşçi qrup üzvü** | merziyye.aqayeva@aztu.edu.az |
| 33. | **Aynurə İsmayılova** | **İşçi qrup üzvü** | aynura.ismayilova@aztu.edu.az |
| 34. | **Arzu Səfərli** | **İşçi qrup üzvü** | arzu.safarli@aztu.edu.az |
| 35. | **Nəbi Quliyev** | **İdarəetmə sistemi istiqaməti üzrə işçi qrupun rəhbəri** | nabi.guliyev@aztu.edu.az |
| 36. | **Akif Fərruxov** | **İşçi qrup üzvü** | akif.farrukhov@aztu.edu.az |
| 37. | **Vilayət Əliyev** | **İşçi qrup üzvü** | aliyevvilayet@aztu.edu.az |
| 38. | **Səfa Bağırov** | **İşçi qrup üzvü** | safa.baghirov@aztu.edu.az |

| | | | |
|---|---|---|---|
| 39. | **Yavuz Öztürk** | **İşçi qrup üzvü** | yavuz.ozturk@aztu.edu.az |
| 40. | **Töhfə Abdullayeva** | **İşçi qrup üzvü** | tohfa.abdullayeva@aztu.edu.az |
| 41. | **Mirməhəmməd Ələkbərli** | **İşçi qrup üzvü** | elekberlim@aztu.edu.az |
| 42. | **Rəşad Əliyev** | **İnfrastruktur istiqaməti üzrə işçi qrupun rəhbəri** | rashad.aliyev@aztu.edu.az |
| 43. | **Elgün Quliyev** | **İşçi qrup üzvü** | elgun.quliyev@aztu.edu.az |
| 44. | **Fərid Məmmədzadə** | **İşçi qrup üzvü** | farid.mammadzada@aztu.edu.az |
| 45. | **Orxan Vətənxah** | **Beynəlmiləlləşmə istiqaməti üzrə işçi qrupun rəhbəri** | orxan.vatan@aztu.edu.az |
| 46. | **Mənzər Məmmədova** | **İşçi qrup üzvü** | manzar.mammadli@aztu.edu.az |
| 47. | **Xanım Ağadadaşova** | **İşçi qrup üzvü** | xanim.agadadashova@aztu.edu.az |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1. | **Nurəli Yusifbəyli** | **Ümumi rəhbərlik** |
| 2. | **Əfqan Abdullayev** | **Hesabatın hazırlanmasında koordinasiya işləri** |
| 3. | **Şərəfxanım Əliyeva** | **Müvafiq sənədlərin toplanmasında koordinasiya funksiyası** |
| 4. | **Fariz Məmmədov** | **Strateji inkişaf istiqaməti** |
| 5. | **Emin Teymurxanlı** | Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri<br>Strateji inkişaf proqramının icrası və monitorinqi |

| | | |
|---|---|---|
| 6. | **Samirə Kərimova** | Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri<br>Strateji inkişaf proqramının icrası və monitorinqi |
| 7. | **Nabat Cabbarova** | Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri<br>Strateji inkişaf proqramının icrası və monitorinqi |
| 8. | **Təhminə Yaqubova** | **Keyfiyyət təminatı istiqaməti üzrə işçi qrupun rəhbəri** |
| 9. | **Rasim Həsənzadə** | Keyfiyyət təminatı siyasəti |
| 10. | **Tuti Abdullayeva**<br>**Elnurə Cəfərova** | Daxili keyfiyyət təminatı mexanizmləri |
| 11. | **Rasim Həsənzadə**<br>**Eyvaz Məhəmmədli** | Keyfiyyət təminatı mədəniyyəti |
| 12. | **Ərəstun Məmmədov** | **Təlim və tədris istiqaməti üzrə işçi qrupun rəhbəri** |
| 13. | **Allahverdi Şərifov**<br>**Hüseynqulu Quliyev** | Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması |
| 14. | **Nizami Poladov**<br>**Malik Qarayev** | Təhsil proqramları |
| 15. | **Taleh Şirinov**<br>**Elçin Rzayev** | Tədrisin təşkili |
| 16. | **Fərqanə Musayeva** | Tədris metodları və üsulları |
| 17. | **Anar Əliyev** | Təlim və tədris resursları |
| 18. | **İftixar Çələbi** | Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi |
| 19. | **Aytən Sadıqova** | Tələbəyönümlü tədris |
| 20. | **Rəna Hətəmova** | Professor-müəllim heyəti |

| | | |
|---|---|---|
| 21. | **Milana Orucova**<br>**Samir Musayev** | Təhsil proqramlarının monitorinqi və yenilənməsi |
| 22. | **Elnur Rüstəmov**<br>**Xəyalə Hacıyeva** | Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi |
| 23. | **Şamil Nurullayev** | Tələbəyönümlü tədris |
| 24. | **Sübhan Namazov** | **Elmi - Tədqiqat istiqaməti üzrə işçi qrupun rəhbəri** |
| 25. | **Natəvan Namazova** | Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti |
| 26. | **Mərziyyə Ağayeva** | Elmi-tədqiqat strategiyası |
| 27. | **Aynurə İsmayılova** | Tədqiqat resursları |
| 28. | **Arzu Səfərli** | Elmi-tədqiqat fəaliyyəti |
| 29. | **Nəbi Quliyev** | **İdarəetmə sistemi istiqaməti üzrə işçi qrupun rəhbəri** |
| 30. | **Akif Fərruxov** | Maliyyə resurslarının idarə edilməsi |
| 31. | **Vilayət Əliyev** | İdarəetmə orqanları |
| 32. | **Səfa Bağırov** | İctimaiyyətlə əlaqələr |
| 33. | **Yavuz Öztürk** | İnformasiya idarəetmə sistemi |
| 34. | **Töhfə Abdullayeva** | İdarəetmə orqanları<br>İnsan resurslarının idarə edilməsi |
| 35. | **Mirməhəmməd Ələkbərli** | İdarəetmə orqanları |
| 36. | **Rəşad Əliyev** | **İnfrastruktur istiqaməti üzrə işçi qrupun rəhbəri** |
| 37. | **Elgün Quliyev** | Təhsil infrastrukturu |
| 38. | **Fərid Məmmədzadə** | Elmi-tədqiqat infrastrukturu |

| | | |
|---|---|---|
| 39. | **Orxan Vətənxah** | **Beynəlmiləlləşmə istiqaməti üzrə işçi qrupun rəhbəri** |
| 40. | **Mənzər Məmmədli** | Beynəlmiləlləşmə siyasəti<br>Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı struktur |
| 41. | **Xanım Ağadadaşova** | Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar<br>Beynəlmiləlləşmə performansı |

## 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair

**Əvvəlki akkreditasiya qiymətləndirilməsinə dair ümumi məlumatlar.**

- 2014-cü ildə təsdiq olunmuş Təhsil Standartına uyğun 1 nömrəli forma - tədris planları bəzi ixtisaslar istisna olmaqla əsasən işlənmişdir və uyğun fakültələrdə var. I kurs tələbələri bu tədris planları əsasında təhsil alır, lakin tədris planları Universitet Elmi Şurasında müzakirə olunmamış və rektor tərəfindən təsdiq edilməmişdir.
- Tədris sənədlərindən 1 nömrəli forma - ixtisasın tədris planı, 2 nömrəli forma - tədris qrafiki, 3 nömrəli forma - illik işçi tədris planları, 4 nömrəli forma - tələbələrin fərdi tədris planları, 5 nömrəli forma - müəllimlərin illik işçi tədris planlarının fakültələrdə uyğunluğu aşağıdakı cədvəldə qeyd olunmuşdur:

| Fakültə | 1 nömrəli forma | 2 nömrəli forma | 3 nömrəli forma | 4nömrəli forma | 5 nömrəli forma |
|---|---|---|---|---|---|
| Nəqliyyat fakültəsi | Uyğundur, təsdiq olunmayıb | Yoxdur | Uyğundur | Uyğundur | Uyğundur |
| Elektrotexnika və energetika fakültəsi | Uyğundur, təsdiq olunmayıb | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur |
| Radiotexnika və rabitə fakültəsi | Uyğundur, təsdiq olunmayıb | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur |

| | | | | | |
|---|---|---|---|---|---|
| Metallurgiya fakültəsi | Uyğundur, təsdiq olunmayıb | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur |
| Maşınqayırma fakültəsi | Uyğundur, təsdiq olunmayıb | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur |
| Avtomatika və kompüter texnikası fakültəsi | Yoxdur, qrup tədris planı tutulub | Yoxdur | Yoxdur | Yeni formaya uyğun deyil | Fakültədə yoxdur |
| Xüsusi texnika və texnologiya fakültəsi | Yoxdur, qrup tədris planı tutulub | Yoxdur | Var, yeni formaya uyğun deyil | Uyğundur | Uyğundur |
| Texnoloji maşınlar fakültəsi | Uyğundur, təsdiq olunmayıb | Var, yeni formaya uyğunlaş-dırılmalıdır | Var, yeni formaya uyğun deyil | Var, yeni formaya uyğunlaş-dırılmalıdır | Kafedralarda var |
| Mühəndis biznesi və menecment fakültəsi | Uyğundur, təsdiq olunmayıb | Yoxdur | Uyğundur | Uyğundur | Uyğundur |
| Xarici vətəndaşların təhsili üzrə dekanlıq | Uyğundur, təsdiq olunmayıb | Uyğundur | Uyğundur | Uyğundur | Uyğundur |

İxtisaslar üzrə məlumat paketi hazırlanmayıb.

Fakültələrdə tələbə kontingentinə görə tyutor xidmətinin tətbiqinin vəziyyəti aşağıdakı cədvəldə göstərilmişdir.

| № | Fakültə | Tələbə kontingenti | Tyutor xidmətinin mövcudluğu |
|---|---|---|---|
| 1. | Nəqliyyat fakültəsi | 1065 | Yoxdur |
| 2. | Elektrotexnika və energetika fakültəsi | 739 | 1 nəfər |
| 3. | Radiotexnika və rabitə fakültəsi | 1222 | 1 nəfər |
| 4. | Metallurgiya fakültəsi | 688 | 1 nəfər |
| 5. | Maşınqayırma fakültəsi | 677 | 1 nəfər |
| 6. | Avtomatika və kompüter texnikası fakultəsi | 1545 | Yoxdur |
| 7. | Xüsusi texnika və texnologiya fakültəsi | 271 | 2 nəfər |
| 8. | Texnoloji maşınlar fakültəsi | 866 | 1 nəfər |
| 9. | Mühəndis biznesi və menecment fakültəsi | 542 | 1 nəfər |
| 10. | Xarici vətəndaşların təhsili üzrə dekanlıq | 201 | Yoxdur |

**Yekun olaraq**

**İRADLAR**

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydalarına əlavə olaraq verilmiş nümunədə göstərilən tədris sənədləri fakültələrin bəzilərində tam uyğunlaşdırılmamışdır.
- Məzunlara verilən diploma əlavədə tələbənin Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) yazılmır.
- AzTU-da tyutor xidməti lazımi səviyyədə təşkil edilməmişdir.
- Universitetdə bakalavr səviyyəsində tədris olunan fənlərin 40%-i qədərinə, magistratura səviyyəsində isə fənn proqramlarının 80%-dən çoxuna Təhsil Nazirliyinin qrifi alınmamışdır.
- Bəzi kafedralarda norma-nəzarət sistemi tətbiq edilmir. Bu səbəbdən də kurs işi və kurs layihələri standartın tələblərinə uyğun tərtib olunmamışdır.
- Tədris və istehsalat təcrübələrinin hesabatlarının əksəriyyəti gündəliklərə uyğun gəlmir.
- Elmi-pedaqoji təcrübə üzrə tərtib olunmuş hesabatların əksəriyyətində magistrantların dərslərdə iştirakı haqqında və hansı fəndən, hansı mövzu üzrə dərs keçdiyi göstərilmir.
- Buraxılış işlərinin mövzularının təhsilalanlar arasında bölüşdürülməsinin təsdiqi VIII semestrin başlanğıcına təsadüf edilir. Bu da buraxılış işinin yazılmasına az vaxtın qalmasını söyləməyə əsas verir.
- İlbəil ayrı-ayrı ixtisaslar üzrə təsdiq edilmiş buraxılış işlərinin mövzularında təkrarlıq və ya oxşarlıq vardır.
- Buraxıliş işlərinin tərtibi, cədvəllərin və şəkillərin sıralanması çox hallarda standarta uyğun aparılmır.
- DAK sədrlərinin hesabatlarının əksəriyyətində müdafiənin təşkili, buraxılış işlərindəki ümumiləşmiş spesifik nöqsanlar, tələbələrin müdafiədə çıxış etmələrinə hazırlığın təşkili, komissiyanın səmərəli işləməsi üçün tələb olunan tədris-metodiki və normativ vəsaitlər və başqa əyani vasitələrlə təchizatı və s. məlumatlar - iradlar haqqında heç bir qeydiyyat yoxdur.
- Cari tədris ilindən yeni tədris planlarına keçidlə əlaqədar olaraq, kafedralar üzrə tədris yüklərində artma və azalma müşahidə olunur. Bir müəllimə düşən orta

tədris yükü normadan artıq olduğundan mövcud kadr potensialı kifayət etmir və bu səbəbdən əvəzçilik üzrə işləyənlərin sayı artmışdır. Əvəzçilik üzrə işləyənlərin əksəriyyətini mövcud ştatda olan müəllimlər təşkil edir. Bu isə onların normadan artıq çalışmalarına səbəb olur ki, nəticədə gözlənilən keyfiyyətin əldə olunması çətinləşir.

- Son üç tədris ilində tədris yüklərinin artması ilə əlaqədar, demək olar ki, müəllimlərin ixtisasartırma planı yerinə yetirilmir.
- Elmi-tədqiqat işlərində alınmış elmi nəticələrin istehsalata tətbiqi zəifdir.
- Təsərrüfat müqavilələrindən maliyyələşmə azdır.
- Doktorantlara ixtisaslarını əhatə edən mühazirələr oxunmur.

## TƏKLİFLƏR

- Buraxılış işlərinin müdafiəsinə müvafiq dövlət strukturlarının, qeyri dövlət-hökumət təşkilatlarının (səhmdar cəmiyyətlərin, şirkətlərin) nümayəndələrinin işəgötürən qismində cəlb edilməsi məzunların işlə təmin olunması işinin xeyrinə olardı.
- Kadrların cavanlaşdırılmasına böyük ehtiyac duyulur.
- AR Prezidenti yanında Elmin İnkişaf Fondundan və beynəlxalq fondlardan maliyyələşmənin gücləndirilməsi məqsədəmüvafiqdir.
- Tələbə, magistr, doktorant, dissertant və gənc tədqiqatçıların dövlət büdcəsindən maliyyələşən ETL-lərə cəlb edilməsi sahəsində işlər genişləndirilməlidir.
- Komissiya, AzTU-nun verdiyi diplomlara əlavələrdə Bolonya prosesinin tələblərinə uyğun fənnin məzmununun açıqlanması və ümumi orta müvəffəqiyyət göstəricisinin göstərilməsini tövsiyə edir.
- Komissiya tərəfindən aparılan təhlilə əsasən Azərbaycan Texniki Universitetinin Elektron Təhsil sisteminin yaradılması ilə görülən işlər çərçivəsində, daxili sənədləşmə dövriyyəsini daha da təkmilləşdirmək məqsədəuyğun hesab edilir.
- Komissiyanın fikrincə, layihə çərçivəsində, xüsusilə də bakalavr və magistr ixtisaslarının tədris planlarının Bolonya prosesinin tələblərinə uyğun olaraq optimallaşdırılması, AzTU üçün öndə duran məsələlərdən biri hesab edilməlidir.
- Komissiya hesab edir ki, hal-hazırda tədris kontentləri, distant təhsil üçün baza, ikili diplomların verilməsi üçün lazımı şərait yaradılmalı və bu istiqamətdə müvafiq işlər sürətləndirilməlidir.
- Komissiya tərəfindən gələcək tədris illərində AzTU və Türkiyə Universitetləri

arasında professor-müəllim və tələbə kontingenti, yəni bakalavr və magistrantlarından ibarət nümayəndə heyətinin iştirakı ilə elmi mübadilələrin daha da genişlənməsi və müştərək elmi layihələrin aparılması tövsiyə olunur.

- Müxtəlif ölkələrdə birgə tədris və elmi-tədqiqat fəaliyyətini inkişaf etdirmək məqsədi ilə Universitetdə səyləri artırmaq, komissiya tərəfindən tövsiyə olunur.
- Komissiya, AzTU-nun beynəlxalq əməkdaşlığı üzrə fəaliyyətinin təhlilinin nəticəsi kimi aşağıdakı istiqamətlər üzrə aparılan işlərin təkmilləşdirilməsini tövsiyə edir:
- xarici ölkə vətəndaşları olan tələbələrin sayının azalması tendensiyasını nəzərə alaraq, buna təsir edən amillərin aradan qaldırılması üçün müvafiq işlərin aparılması;
- həyata keçirilən layihələrdə yerli və xarici tələbələrin mübadiləsi məsələlərinin genişləndirilməsi;
- AzTU-nun tədris planlarının xarici ölkə universitetlərinin tədris planlarına uyğunlaşdırılması prosesinin daha da təkmilləşdirilməsi;
- Universitetdə heç bir ixtisasda tədris ingilis dilində aparılmadığı üçün mübadilə məsələlərində çətinliklər meydana çıxır, bu da universitetin Avropa təhsil məkanına inteqrasiyasına mənfi təsir göstərir. Bu halın qısa zaman ərzində aradan qaldırılması üçün müvafiq işlər aparılması tövsiyə olunur.
- AzTU-nun beynəlxalq əməkdaşlıq çərçivəsindəki fəaliyyətinin nəticəsində elm, təhsil və tədqiqat sahələri üzrə innovasiyalı texnologiyaların tədris prosesindəki tətbiqi təqdirəlayiq qiymətləndirilərək, respublikanın digər universitetləri arasında yayılması tövsiyə olunur.
- "Dəmiryol nəqliyyatının istismarı" və "Texniki mexanika" kafedralarının mənəvi köhnəlmiş avadanlıqları AzTU-da aparılan təmir işləri ilə əlaqədar işçi vəziyyətdə deyillər. Bu səbəbdən, göstərilən kafedralarda laboratoriya dərslərinin müvəqqəti olaraq, məşğələ dərsləri ilə əvəz edilməsi daha məqsədəuyğun olardı.
- "Elektrotexnikanın nəzəri əsasları" kafedrasının "Elektrotexnika və elektrik avadanlığı" kafedrasına birləşdirilməsi, Texnoloji maşınlar fakültəsinin isə Maşınqayırma fakültəsinə birləşdirilməsi tədrisin təşkili və idarəçilik baxımından məqsədəuyğun olardı.
- "Biotibbi texnika" kafedrası əsasən elektronika və avtomatika ilə əlaqədar olduğu üçün bu kafedranın Avtomatika və kompüter texnikası fakültəsinin nəzdində fəaliyyət göstərməsi tövsiyə edilir.
- Tədqiqat sahəsi və istiqaməti yaxın olan, fəaliyyətində parallellik müşahidə edilən

elmi- tədqiqat laboratoriyalarının elmi-tədqiqat mərkəzləri şəklində birləşdirilməsi tövsiyə olunur.

- Öncəki institusional akkreditasiyada AzTU-nun fəaliyyətinin onun statusuna uyğunluğu meyarlara əsasən qiymətləndirməyə görə 72 bal olduğu üçün "kafi" qiymətləndirilmişdir.

**Yekun Hesabatda Komissiyanın verdiyi tövsiyələrin ümumi icrasına və çatışmazlıqların aradan qaldırılması vəziyyətinə dair**

Azərbaycan Texniki Universitetində (AzTU) hesabat dövründə kadr potensialının gəncləşdirilməsi ilə bağlı müvafiq işlər görülmüşdür. ATM-in əsas məqsədlərindən biri də təhsilalanların işlə təmin olunması üçün məzun izləmə sistemi yaradılması çərçivəsində məzunlar professor-müəllim heyətinə qatılmış, tədris ilinin əvvəlində dekanlıqların kadr ehtiyacının müəyyənləşdirilməsi və buna müvafiq addımların atılmasıdır. Eyni zamanda universitetimizdə fəaliyyət göstərən Kareyera və Məşğulluq Mərkəzi tələbə və məzunların işlə təmin olunması üçün müvafiq yarmarkalar keçirir.

Əmək bazarının tələblərini nəzərə alaraq və xarici ölkələrin tədris planlarını ölkə ekosisteminə uyğunlaşdıraraq bakalavriat və magistratura səviyyələrindəki ixtisasların tədris planları Boloniya prosesinin tələblərinə uyğun olaraq optimallaşdırılmışdır və tədris planları mütəmadi olaraq yenilənir.

Akkreditasiya komissiyasının tövsiyələrinə əsasən hesabat dövründə kafedralarda sillabusların təkmilləşdirilməsi üzərində işlər aparılmış və mövzular əmək bazarının tələblərinə uyğun olaraq dəyişdirilmişdir.

AzTU-da cari və inzibati idarəetmənin səmərəli, keyfiyyətli və operativ şəkildə həyata keçirilməsini təmin etmək, daxili sənədləşmə dövriyyəsini daha da təkmilləşdirmək üçün universitet daxilində Elmi Şuranın 04.05.2021-ci il tarixli qərar ilə AzTU Katibliyi yaradılmış və müvafiq struktur fəaliyyətini Əsasnaməsinə uyğun davam etdirir.

Hesabat dövründə AzTU dünyanın bir çox ölkəsindən olan tərəfdaşları ilə əlaqələri möhkəmləndirmiş və inkişaf etdirmişdir. Dünyanın 100-dən çox aparıcı universiteti ilə əməkdaşlıq etməklə yanaşı, həmçinin, AzTU Xəzəryanı Ölkələrin Dövlət Universitetləri Assosiasiyası, Texniki Universitetlər Assosiasiyası, Rusiya-Azərbaycan Universitetləri Assosiasiyası, Qara Dəniz Hövzəsi Universitetləri Assosiasınına və CDİO (Conceive – Design – Implement – Operate) şəbəkəsinə üzvdür.

AzTU-da 2015-2022-ci illər ərzində 23 ölkədən olmaqla 117 təhsil müəssisəsi ilə elm və təhsil sahəsində əməkdaşlıq müqaviləsi bağlanılmışdır. Həmçinin, universitetimizin 14

Mevlana Mübadilə Proqramı, 16 Erasmus+ Mobillik Proqramı və 7 universitetlə ikili diplom proqramı çərçivəsində əməkdaşlıq müqaviləsi mövcuddur.

AzTU-da tələbə və müəllimlərin beynəlxalq proqramlarda fəal iştirakını təmin etmək, həmçinin, onların mövcud mexanizmlərdən istifadə etmələri üçün müxtəlif təşviqat və təbliğat işləri aparılmışdır. Belə ki AzTU Avropa Birliyinin Tempus, Erasmus Mundus EMİNENCE(01.05.2014 - 30.05.2017)), Erasmus+ KA1 Mobillik Proqramı, Erasmus+ KA2 (15.11.2018 - 15.11.2021) Ali Təhsildə Potensialın Gücləndirilməsi Layihələri, Tvinninq layihəsi (2017), Yerli Qrant Layihələri, Türkiyənin Mevlana Mübadilə Proqramı, Alman Akademik Mübadilə Xidməti (DAAD) kimi beynəlxalq proqramların təqdim etdiyi imkanlardan 52 tələbə, 111 professor müəllim heyəti və inzibati heyət yararlanır, bu proqramlar çərçivəsində xarici universitetlərlə əməkdaşlıq edir və mübadilələr həyata keçirir.

Son 7 ildə AzTU-nun professor-müəllim heyəti Almaniyanın Maqdeburq Universiteti və Münhen Texniki Universiteti, Rusiyanın Cənubi Ural Dövlət Universitetinin elm adamları ilə birgə elmi tədqiqat işləri həyata keçirilmişdir. Həmçinin, Xarkov Şəhər Təsərrüfatı Mühəndisləri Akademiyası, Poltava Texniki Universiteti və Ukraynanın digər müəssisələrində 13 birgə elmi tədqiqat işi aparılmışdır. Eləcə də, AzTU və Belarusiya Dövlət Rabitə Akademiyası arasında “Optik rabitənin kvant sistemləri” adlı Birgə Beynəlxalq Elmi Laboratoriya təşkil edilmişdir.

Son illərdə AzTU-nun tələbələri üçün resurs bazasının zənginləşdirilməsi, onların praktik bilik və qabiliyyətinin təkmiləşdirilməsi üçün müasir şəraitə uyğun yaradılmış laboratoriyalardan biri də, “Cezeri Lab” laboratoriyasıdır. Türkiyə Cümhuriyəti Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) maliyyə dəstəyi, AzTU və TİKA-nın birgə təşkilatçılığı ilə AzTU-da “Cezeri Lab” laboratoriyası qurulmuşdur. Laboratoriyanın açılışı Elm və Təhsil naziri Emin Əmirullayevin iştirakı ilə 2021-ci ilin oktyabr ayında həyata keçirilmişdir. Laboratoriya, AzTU tələbələrinin resurs bazasının zənginləşdirilməsi, onların praktik bilik və bacarıqlarının təkmiləşdirilməsi üçün müasir standartlara uyğun qurulmuşdur. Belə ki, laboratoriya CNC lazer kəsmə avadanlığı, CNC Routerlər, 3D printerlər, Torna, Masaüstü qazma dəzgahı kimi avadanlıqlarla təchiz olunmuşdur. Həmçinin, laboratoriyanın yarandığı gündən bu günə kimi laboratoriyanın əməkdaşları tərəfindən CNC Pyroprinter avadanlığı, Mini lazer CNC avadanlığı, qələm plotter CNC avadanlığı, suyun ekoloji təmizliyi üçün süni intelekt əsaslı “freqat” robot, gözdən əlil və nitq məhdudiyyəti olan insanların rahat ünsiyyəti üçün cihaz, ağıllı çən sistemi, server otağı üçün IoT sistemi hazırlanmışdır.

2018-ci ildə Azərbaycan Texniki Universiteti Türkiyə Hava və Kosmos Sənayesi (TÜSAŞ) ilə ortaq elmi-tədqiqatların aparılması üçün əməkdaşlıq müqaviləsi imzalamış və 2022-ci ildə AzTU-nun magistr və doktorantlarının elmi-tədqiqatlarının aparılması üçün TÜSAŞ–ın istehsalat və tədqiqat laboratoriyalarından istifadə etməsi üçün razılığa gəlinmişdir.

Müxtəlif ölkələrdə birgə tədris və elmi-tədqiqat fəaliyyətini inkişaf etdirmək məqsədi ilə Universitet səylə çalışmışdır, belə ki AzTU -nun Metallurgiya və Materiallar Texnologiyası kafedrasının elmi fəaliyyətinin daha da inkişaf etdirilməsi məqsədi ilə Türkiyəli ekspert Prof.Dr.Mustafa Güden ilə əməkdaşlığa başlanılmışdır. Prof.Dr. Mustafa Güden kafedranın əməkdaşlarına beynəlxalq elmi-tədqiqat layihələrinin hazırlanması istiqamətində təlimlər keçir, eyni zamanda, universitetin metallurgiya və materialşünaslıq üzrə beynəlxalq tədqiqatlara cəlb olunması üçün işlər aparır. Bundan əlavə, AzTU tərəfindən 2015-2022-ci tədris illəri ərzində ümumilikdə 11 respublika və 16 beynəlxalq səviyyəli konfranslar keçirilmişdir.

AzTU-da son dövrlərdə birgə təhsil proqramları istiqamətində aşağıda adları qeyd olunmuş nüfuzlu universitetlərlə müvafiq ixtisaslar üzrə ikili diplom proqramı müqavilələri imzalamışdır:

Ankara Universiteti (Türkiyə):

- Kompüter mühəndisliyi - Bakalavr səviyyəsində - 2022-ci ildən qəbul;

Gazi Universiteti (Türkiyə):

- Elektrik və elektronika mühəndisliyi - Bakalavr səviyyəsində (2023-cü ildən etibarən)
- Mexanika mühəndisliyi;( nəzərdə tutulur)
- Metallurgiya mühəndisliyi. (nəzərdə tutulur)

OSTİM Texniki Universiteti (Türkiyə) (2023-cü ildən etibarən)

- İdarəetmə - Bakalavr səviyyəsində;
- Sənaye mühəndisliyi;

Kazan Federal Universiteti (Rusiya) – 2022-ci ildən qəbul;

- Avtomatika və texnoloji proseslər
- Nəqliyyat proseslərinin texnologiyası
- İqtisadiyyat

Brandenburq Texnoloji Universiteti (Almaniya) (2023-cü ildən etibarən)

- Mexanika mühəndisliyi;
- Metallurgiya mühəndisliyi.

Xarkov Milli Radioelektronika Universiteti (Ukrayna):

- Kompüter sistemləri və şəbəkələri - Magistratura səviyyəsi - 2022-ci ildən qəbul;
- Sistem proqramlaşdırma ixtisasları – Magistratura səviyyəsi - 2022-ci ildən qəbul;

Dövlət Dəmir Yolu Nəqliyyatı Universiteti (Ukrayna):

- Vaqon və vaqon iqtisadiyyatı – Magistratura səviyyəsi - 2022-ci ildən qəbul.

Tədrisin keyfiyyətinə bilavasitə təsir edən müəllim faktorunu nəzərə alaraq, AzTU 2021-ci ilin dekabr ayında Türkiyənin Çankaya Universitetinin dekanı, Prof. Dr. Buket Akkoyunlu ilə tədrisin keyfiyyəti və öyrənmə-öyrətmə metodologiyalarının inkişaf etdirilməsi ilə əlaqəli təlim və konsultasiya xidmətlərinin verilməsi məqsədi ilə əməkdaşlıq müqaviləsi bağlanmışdır. 2022-ci ildə bu müqavilə çərçivəsində həm əyani, həm də onlayn formada AzTU-nun gənc müəllimlərinə silsilə təlimlər verilmişdir.

Hesabat dövründə Universitetdə həyata keçirilən yerli və xarici layihələr çərçivəsində tələbələr mübadilə proqramları barədə məlumatlandırılmış və mütəmadi şəkildə onların proqramlara cəlb olunması aparılmış və bir çox tələbə xarici ölkələrdə mübadilə proqramı ilə  təhsil almışlar. Son 7 ildə 400-dək xarici ölkə vətəndaşı universitetin məzunu olmuşdur. Hazırda universitetdə 200-dək xarici tələbə təhsil alır.

Təhsilanlanların buraxılış işlərində mövzularının seçilməsinə, o cümlədən, mövzuların təkrarlanmaması və əmək bazarının tələbləri nəzrə alınmaqla mövzuların ixtisaslar üzrə reestri hazırlanmışdır.

Buraxılış işlərinin müdafiəsinə müvafiq dövlət strukturlarının, qeyri dövlət-hökumət təşkilatlarının (səhmdar cəmiyyətlərin, şirkətlərin) və digər maraqlı tərəflərin nümayəndələri işəgötürən qismində cəlb edilmişdir.

Ümumilikdə, hazırda bakalavriat səviyyəsi üzrə 6 ixtisas (Biznesin idarə edilməsi, İqtisadiyyat, Menecment, Kompüter mühəndisliyi, Kompüter mühəndisliyi / Ankara Universiteti*, Radiotexnika və telekommunikasiya mühəndisliyi) üzrə bir sıra akademik qruplarda tədris ingilis dilində aparılır. Tədrisi ingilis dilində olan ixtisasların artırılması üçün müvafiq tədbirlər görülür.

AzTU-da əvvəlki akkreditasiya tövsiyələrinə uyğun olaraq, hesabat dövründə Boloniya prosesinin tələblərinə cavab verəcək şəkildə məzunlara diploma əlavə verilir ki, orada məzunların ÜOMG əks olunur.

Artıq bir neçə ildir ki, universitetdə  elektron təhsil sistemi yaradılmış və mütəmadi olaraq təkmilləşdirilməsi üçün işlər həyata keçirilir.

Universitetdə struktur bölmə kimi, mərkəzləşdirilmiş Tyutor (akademik məsləhətçi) xidməti yaradılmış, sonradan bu xidmət növü müvafiq fakültələrdə fəaliyyətini davam

etdirmişdir. Tyutorların peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə onlar üçün treninqlər təşkil edilmişdir.

AzTU-da müxtəlif kafedraların və onların tərkibində olan maddi-texniki bazanın yetərsizliyi, eyni zamanda mövcud kafedraların əmək bazarının müasir tələblərinə tam cavab vermədiyi üçün bir neçə kafedralar bağlanılmış və ya digər kafedralara birləşdirilmişdir. Nəticədə universitetdə mövcud olan kafedraların sayı 41-dən 21-ə endirilmişdir. ATM-in Elmi Şurasının 13 iyul 2022-ci il tarixli qərarı ilə, 2022-2023 tədris ilində Sabah magistratura proqramları çərçivəsində Kibertəhlükəsizlik ixtisası üzrə kadr hazırlığına başlanılmasını nəzərə alaraq, eyni ixtisas üzrə bakalavriat səviyyəsində mühəndis hazırlığının həyata keçirmək üçün yeni Kibertəhlükəsizlik kafedrası yaradılmış və beləliklə kafedraların sayı 22-yə çatmışdır.

Hesabat dövründə alınmış elmi nəticələrin gələcəkdə kommersiyalaşdırılması və təşviqi məqsədi ilə ekosistem yaradılması üçün bir sıra tədbirlər həyata kecirilmişdir. Qabaqcıl xarici ölkələrin təcrübəsi öyrənilmiş, xüsusilə Türkiyə universitetlərinin uyğun sahədə Türkiyənin istehsalat sahələrinin məsələn: TUSAŞ, ASELSAN, ROKETSAN, HAVELSAN kimi elmi-istehsalat şirkətlərinin ARGE fəaliyyətinin Azərbaycan Texniki Universitetində tətbiqi üçün işlək platformanın yaradılması istiqamətində fəaliyyət davam etdirilir. Eyni zamanda kommersiyalaşdırılma işinin istehsalata tətbiqi məqsədi ilə qurulması üçün AzTU TUSAŞ-la birlikdə mühəndis inkişaf etdirmə proqramını həyata keçirir.

Müxtəlif qabaqcıl ölkə univetsitetlərində tədris, elmi - tədqiqat fəaliyyətinin birgə həyata keçirilməsi üçün hesabat dövründə 4 Erasmus+KA2 (NİZAMİ Erasmus+ KA2 layihəsi (01.10.2015 – 01.10.2018), CRENG Erasmus+ KA2 layihəsi (15.11.2018 - 15.11.2021), LMQSante ERASMUS+KA2 layihəsi (15.11.2020 - 14.11.2023), UniClaD ERASMUS+ KA2 layihəsi (15.01.2020-14.01.2023)) potensialın gücləndirilmə layihələri udulmuş, bu dövrdə əlliyədək əməkdaş Avropanın müxtəlif universitetlərində təlimlər keçmiş, bu proqramlar çərçivəsində magistratura səviyyəsində iki yeni ixtisası yaradılmış və ikili diplom proqramları çərçivəsində 3 bakalavriat proqramı üzrə kadr hazırlığına başlanılmış, 1 magistratura səviyyəsi üçün Almaniyanın Brandenburg Texnologiya Universiteti ilə müqavilə imzalanmışdır.

Tövsiyə əsasında hesabat dövründə fəaliyyat göstərən elmi tədqiqat laboratoriyaları və onların fəaliyyəti sahəsində islahatlar aparılmış, daha səmərəli fəaliyyət göstərilməsi üçün universitetin tədqiqat fəaliyyəti 7 istiqamətdə birləşdirilmiş və 7 tədqiqat istiqamətinə uyğun olaraq, yeni tədqiqat infrastrukturu yaradılmış, 7 tədqiqat institutu təsis edilmişdir. Tədqiqat infrastrukturunun gücləndirilməsi üçün görülən işlər davam etdirilir.

## II. Təhsil müəssisəsinin özünütəhlili

## 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

AzTU-nun Özünütəhlil Hesabatı Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-176 nömrəli 28.10.2022 tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya uyğun olaraq hazırlanmışdır. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin Özünütəhlil Hesabatı ATM-in rektorunun 122 nömrəli 25.10.2022-ci il tarixli əmri ilə yaradılan Təşkilat Komissiyası tərəfindən hazırlanmışdır. Təşkilat Komissiyasının müvafiq istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[1]:

### 1. STRATEJİ İNKİŞAF

*1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

Ali ixtisas təhsilinin dövlət təhsil müəssisəsi olan AzTU Azərbaycan Respublikasının aparıcı təhsil və elm mərkəzidir. Ötən illərdə keçirilmiş Dövlət Akkreditasiyalarının rəyinə görə AzTU yeni təhsil texnologiyalarına əsaslanan, tədris və elmi prosesləri tam təmin etmək üçün yetərli olan güclü elmi-pedaqoji potensiala, maddi-texniki bazaya malik, dinamik inkişaf edən və yüksək ixtisaslı kadr hazırlayan ali təhsil müəssisəsidir.

AzTU-da strateji planlamaçərçivəsində fəaliyyətinin təşkil olunması məqsədilə, ATM-in Elmi Şurasının 12 iyun 2019-cu il tarixli iclasını n 10 saylı protokolu ilə 2019-2023-cü illəri əhatə edən strateji inkişaf planı (qısamüddətli) və AzTU Elmi Şurasının 19.11.2021-ci il tarixli onlayn iclasının 2 saylı protokolu ilə 2021-2030-cü illəri əhatə edən inkişaf strategiyası (uzunmüddətli) təsdiq edilmişdir. AzTU-nun Smartnation şirkəti ilə əməkdaşlıq müqaviləsinə əsasən şirkət tərəfindən mütəmadi təhlillər aparılmış, unversitetdə post-pandemiya dövrünün tələblərini və əsas strateji məqsədləri ehtiva edən AzTU-nun 2021-2025-ci illər üzrə strateji inkişaf planının layihəsi hazırlanmışdır. Həmin strateji inkişaf planında müəyyən edilmiş əsas fəaliyyət istiqamətləri AzTU-nun 2021-2030-cu illər üzrə strategiyasının hazırlanmasında əhəmiyyətli rol oynamışdır.

AzTU-nun Strateji İnkişaf Planları “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24

[1] Uyğun istiqamət və meyarlar üzrə qısa icmal müvafiq indikatorların təhlili əsasında aparılmalıdır. Belə ki, hər bir icmal təsdiqedici sənədlər, qoşma və ya keçidlərdən (link) istifadə edilməklə, eləcə də informasiyanın ümumiləşdirilməsi məqsədilə təqdim edilmiş şablon formalar doldurulmaqla müfəssəl hala gətirilməlidir.

oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”na, “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf Konsepsiyası, 2019-2023-cü illər üçün Azərbaycan Respublikası ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə dövlət proqramına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Təhsil Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

AzTU-nun strateji inkişaf planları hazırlanarkən əmək bazarının nümayəndələri ilə görüşlər keçirilmiş, şifahi müzakirələr aparılmışdır. Həmin müzakirələrdə AzTU-nun əməkdaşları tərəfindən müvafiq qeydlər götürülmüş və müzakirə edilən məsələlər Strateji inkişaf planlarında nəzərə alınmışdır.

AzTU 2019-2023-cü illər üzrə Strateji İnkişaf Planına əsasən Universitetin əsas məqsədi əmək bazarında rəqabət qabiliyyətli, səriştəli, öz peşəsini dərindən bilən, bazar iqtisadiyyatı şəraitində ixtisası üzrə dünya standartları səviyyəsində səmərəli fəaliyyət göstərməyə, peşə hazırlığı səviyyəsini daim artırmağa qadir olan yüksək ixtisaslı mütəxəssis hazırlamaqdır.

AzTU 2019-2023-cü illər üzrə Strateji İnkişaf Planında AzTU-nun inkişafı prioritetlərinə maddi-texniki bazanın təkmilləşdirilməsi və əmək bazarının tələblərinə uyğunlaşdırılması, AzTU-nun idarəetmə strukturunun təkmilləşdirilməsi, optimallaşdırılması və səmərəliliyinin yüksəldilməsi kimi istiqamətlər öz əksini tapmışdır.

2021-2030-cu illər üçün AzTU-nun strateji inkişaf üzrə tədbirlər planında 2019-2020-ci tədris ili üzrə ali təhsil səviyyələrinə müvafiq yeni dövlət təhsil standartları əsasında ixtisaslar üzrə tədris planlarının və proqramlarının təkmilləşdirilməsi, dövlət və biznes strukturlarının sifarişləri əsasında məqsədli mütəxəssis hazırlığı mexanizminin işlənib hazırlanması və tətbiqi, məzun yarmarkalarının təşkili, elmi tədqiqat işlərinə investisiyaların və büdcədənkənar vəsaitlərin cəlb olunması kimi tədbirlər əks olunmuşdur.

AzTU-nun 2021-2030-cu illər üzrə inkişaf strategiyasında mühəndislik elmləri və ağıllı texnologiyaların tətbiqi sahəsində regionda lider universitet olmaq əsas missiya kimi qiymətləndirilmiş, həmin missiyanın təmin edilməsi üçün müxtəlif istiqamətlər üzrə prioritet məsələləri əhatə edən strateji vəzifələr əhatə olunmuşdur.

Strateji vəzifələrin həyata keçirilməsi istiqamətində AzTU-nun 2022-ci il üzrə fəaliyyət planında göstərilmiş tədbirlər mühüm əhəmiyyət kəsb edir.

Strateji inkişaf planında AzTU-nun inkişafı prioritetlərinə maddi-texniki bazanın təkmilləşdirilməsi, əmək bazarının tələblərinə uyğunlaşdırılması, AzTU-nun idarəetmə strukturunun təkmilləşdirilməsi, optimallaşdırılması və səmərəliliyinin yüksəldilməsi kimi istiqamətlər öz əksini tapmışdır.

Strateji inkişaf planının baza prinsipləri qismində AzTU-nun fəaliyyətinin tədris, elmi-tədqiqat, innovasiya, tələbələr arasında tərbiyə işi, rəqəmsallaşdırma sahəsində fəaliyyət, universitetin idarəetmə strukturunun səmərəliliyinin yüksəldilməsi, iqtisadi-maliyyə fəaliyyəti, sosial sferanın və maddi bazanın yaxşılaşdırılması və beynəlxalq fəaliyyət kimi əsas istiqamətlərə əsaslanması təsbit edilmişdir.

Strateji İnkişaf Planında məzunların ölkədə və beynəlxalq aləmdə əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı kadr kimi formalaşmasının təmin edilməsi, əmək bazarının tələbatına cavab verən təhsil proqramlarının formalaşması üçün dinamik və mobil mexanizmin yaradılması, informasiya texnologiyalarının müasir vəziyyətini əks etdirən, əmək bazarında tələb olunan ixtisaslar üzrə mütəxəssislərin hazırlanması kimi strateji məqsədlər müəyyən edilmişdir.

Eyni zamanda, 2021-2030-cu illər üzrə inkişaf strategiyasında AzTU-nun qarşıdakı on ildə inkişafının təməl məqsədi rəqəmsal platformada texnoloji gələcək üçün ağıllı həllər vermək və bu yönümdə mütəxəssis hazırlığını təmin etmək göstərilmişdir. Həmin məqsədə çatmaq üçün texnoloji gələcəyi qarşılayan məsələlərin həllini öyrədən yenilikçi-təşəbbüskar akademik vəsahibkar universiteti qurmaq, mühəndis kadrların səviyyəsini beynəlxalq standartlar səviyyəsinə yüksəltmək kimi əsas strateji hədəflər müəyyən edilmişdir. Strateji hədəflərə çatmaq üçün AzTU qlobal səriştələrin mənimsənilməsi məqsədilə bütün təhsil səviyyələrində müasir standartlarla keyfiyyətli tədrisi təmin etmək, yüksək texnologiyalı sənayeni dəstəkləyən tədqiqatları keyfiyyətli tədrisin əsası kimi təşviq etmək, davamlı olaraq innovasiyaları və sahibkarlığı dəstəkləyərək iqtisadiyyata və cəmiyyətə töhfə vermək, 21-ci əsrin qlobal tələblərinə cavab verən Dayanıqlı və İnklüziv Universitet qurmaq kimi əsas missiyaları qarşıya qoymuş və strateji istiqamətlər müəyyən etmişdir.

AzTU-nun 2021-2030-cu illər üzrə inkişaf strategiyası əsasında hazırlanmış Azərbaycan Texniki Universitetinin 2022-ci il üçün prioritet istiqamətlər üzrə fəaliyyət

planında qarşıya qoyulmuş məqsədlər əks olunmuş və həmin məqsədlər istiqamətində görüləcək tədbirlər əhatə olunmuşdur. Fəaliyyət planında hər bir görüləcək tədbirə münasibətdə nəticə indikatoru müəyyən edilmişdir ki, qeyd olunan indikatorlar fəaliyyətin nəticəsini qiymətləndirməyə imkan verir.

2019-2023-cü illər üzrə Strateji İnkişaf Planına uyğun hazırlanmış 2019-2020-ci illər üçün tədbirlər planının icrasında COVİD-19 pandemiyası səbəbindən gecikmə olduğundan, tədbirlərin icrası üçün lazımi resursların ayrılmasında çətinliklər olmuşdur. 2021-2023-cu illər üçün İnkişaf Strategiyasına uyğun hazırlanmış 2022-ci il üzrə Fəaliyyət Planındakı tədbirlərin icrası başladıqca tələb olunan maliyyə resursları ayrılmışdır. Onların icrası üçün tələb olunan insan resursları isə aidiyyəti struktur bölmələri və rəhbər şəxslər olmuşdur.

2022-ci il üçün AzTU-nun büdcəsində Fəaliyyət Planı üçün büdcə müəyyən olunmamışdır. Digər bölmələrdə qeyd olunduğu kimi, 2022-ci il üzrə Fəaliyyət Planındakı tədbirlər ümumən AzTU-nu əhatə etdiyindən, onların icrası aparıldıqca büdcə ayrılmışdır.

AzTU-nun strateji inkişaf planları hazırlanarkən Universitetin mövcud vəziyyəti təhlil edilmiş, AzTU-nun təhsil sistemində tutduğu mövqe, onun zəif və güclü tərəfləri qiymətləndirilmişdir. Bu qiymətləndirilməyə nümunə olaraq Smartnation şirkəti tərəfindən 2020-ci ildə aparılmış SWOT analizi göstərmək olar. SWOT analizdə AzTU-nun güclü tərəfləri, zəif tərəfləri, imkanları və təhlükələri əhatə olunmuşdur. AzTU-nun növbəti strategiyası hazırlanarkən SWOT analizin qiymətlədirilmə nəticələri nəzərə alınmış və zəif tərəflərin aradan qaldırılması üçün yeni strateji hədəf və vəzifələr müəyyən edilmişdir.

AzTU- nun strateji inkişaf planlarının hazırlanmasında əsas maraqlı tərəflərin iştirakının təmin edilməsinə mühüm diqqət yetirilmişdir. Belə ki, strateji inkişaf planları hazırlanarkən əvvəlcə mövcud bazar və AzTU-nun bazardakı rəqibləri təhlil edilmişdir. Daha sonra mövcud əmək bazarında işəgötürənlərin tələbləri öyrənilmiş və bu tələblərə cavab verən mütəxəssis hazırlığının təmin edilməsi üçün əsas strateji məqsədlər müəyyən edilmişdir. AzTU inkişaf strategiyasına nail olmaq üçün bir çox müəssisələrlə əməkdaşlıq əlaqələrini genişləndirmiş, tələbələrin istehsalat təcrübələrinin həmin müəssisələrdə təşkil edilməsi istiqamətində mühüm işlər görmüşdür. AzTU-nun əsas strateji istiqamətləri müəyyənləşdirilərkən abituriyent və tələbələrin mövqeyi də dəyərləndirilmiş, həmçinin abituriyent və tələbələrin universitetdən gözləntiləri nəzərə alınmaqla keyfiyyətli tədrisin aparılması üçün

mühüm strateji vəzifələr qarşıya qoyulmuşdur. AzTU-nun Smartnation şirkəti ilə əməkdaşlığı əsasında iyun 2020-ci il tarixində abituriyentlər və tələbələr arasında keçirilmiş sorğu əsasında əsasında abituriyenlərin universitetdən gözləntiləri və ixtisas seçimində nəzərə alınan məqamlar, tələbələrin isə AzTU-nun tədris prosesini qiymətləndirməsi ilə bağlı suallar ünvanlanmışdır. Həmin sorğunun nəticələri AzTU-nun inkişaf strategiyalarının hazırlanmasında nəzərə alınmışdır.

AzTU-nun 2019-2023-cü illər üzrə strateji inkişaf planının icra edilməsi məqsədilə görüləcək tədbirlərin əhatə olunduğu AzTU-nun Elmi Şurasının 12 iyun 2019-cu il tarixli iclasının 10 saylı protokolu ilə təsdiq edilmiş tədbirlər planında bütün istiqamətlər üzrə görüləcək işlərin həvalə edildiyi icraçı strukturlar əks olunmuşdur. 2021-2030-cu illər üçün İnkişaf Strategiyasına uyğun hazırlanmış 2022-ci il üzrə Fəaliyyət Planındakı tədbirlər aidiyyəti üzrə  müvafiq struktur bölmələrinə şamil edilmişdir.

## *1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi*

AzTU-nin 2019-2023-cü illəri əhatə edən strateteji inkişaf planı əsasında 2019-2020-ci illər üçün tədbirlər planı hazırlanmış və icrasına başlanılmışdır. 2020-ci ildə dünyada COVİD-19 pandemiyasının başlanması ilə əlaqədar bütün ali təhsil müəssisələri kimi AzTU-nun da fəaliyyəti müəyyən dövrdə dayandığından, tədbirlərin icrası tam aparılmamışdır. Digər tərəfdən, post-pandemiya dövrü və mühəndislik tədrisindəki yeni meyllərin və çağırışlar nəzərə alınmaqla əvvəlki bölmələrdə təsvir edilmiş 2021-2030-cu illər üçün İnkişaf Strategiyası qəbul olunmuşdur. Bu Strategiya əsasında 2022-ci il üzrə Fəaliyyət Planı müəyyən olunmuşdur. Fəaliyyət Planı ümumən universitetin bütün struktur bölmələrinə aid tədbirləri ehtiva edir və korporativ elektron poçt vasitəsilə bütün struktur bölmələrinə təqdim olunmuşdur. Eyni zamanda, ayrıca olaraq fakültə səviyyəsində illik fəaliyyət planları da 2022-ci il üçün hazırlanmışdır.

Əvvəlki strateji inkişaf planı əsasında hazırlanmış 2019-2020-cu illər üçün tədbirlər planının illik icrası vəziyyəti COVİD-19 pandemiyası səbəbindən tam icra olunmamışdır. 2022-ci il üzrə Fəaliyyət Planının özü ümumən AzTU-nun bütün struktur bölmələrinə aid olduğundan və ayrıca fakültələrin illik fəaliyyət planları hazırlandığından, Fəaliyyət Planının yarım illik icrası vəziyyəti AzTU-nun Elmi Şurasında, fakültələrin illik fəaliyyət planları fakültə elmi şuralarının iclasında 2021-2022-ci tədris ilinin sonunda müzakirə edilmişdir.

2022-ci il üçün Fəaliyyət Planındakı tədbirlərin icrası aidiyyəti üzrə müvafiq prorektorlar tərəfindən, fakültələrin fəaliyyət planları isə fakültə dekanları tərəfindən monitorinq olunmuşdur.

2022-ci il üzrə Fəaliyyət Planının yarım illik icrasının monitorinqi və fakültə elmi şuralarının monitorinq barədə qərarları AzTU-nun Elmi Şurasının 13 iyul 2022-ci il tarixli iclasında müzakirə edilmişdir. 2022-ci il üçün Fəaliyyət Planındakı tədbirlərin icrası vəziyyətinin monitorinqi barədə Elmi Şuranın qərarının surəti bütün struktur bölmələrinə korporativ email vasitəsilə çatdırılmışdır.

## 2. KEYFİYYƏT TƏMİNATI

### *2.1. Keyfiyyət təminatı siyasəti*

Azərbaycan Texniki Universitetinin Keyfiyyət təminatı siyasətinin məqsədi Azərbaycan Respublikasının təhsil üzrə siyasəti və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla, tədrisin yüksək səviyyədə təşkili ilə əmək bazarının tələblərinə uyğun yaradıcı, yüksək ixtisaslı kadr və mütəxəssislərin hazırlanmasından ibarətdir.

Keyfiyyət təminatı siyasəti universitetin strateji inkişaf planının hədəflərinə uyğun olmaqla, universitetdə keyfiyyətin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir. Keyfiyyət təminatı siyasəti universitetdə həyata keçirilən fəaliyyətlərin Boloniya təhsil prosesinin müddəalarına, "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının Qanunlarına, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"-nə, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar"a, dövlətin bu sahədəki müvafiq qanunvericilik sənədlərinə, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ-hüquqi aktlarına əsaslanır və Elmi Şuranın 13 iyul 2022-ci il tarixli iclasının qərarı ilə (protokol №11) təsdiq olunmuşdur.

Belə ki, Keyfiyyət siyasəti 2022- ci ildə TKTA tərəfindən AzTU-da keçirilməsi nəzərdə tutulan pilot institusional akkreditasiya çərçivəsində hazırlanmışdır və Özünütəhlil hesabatının hazırlanması üçün yaradılmış Təşkilat Komissiyasının müvafiq iclaslarında siyasət müzakirə olunmuşdur. Eyni zamanda AzTU-nun Keyfiyyət təminatı siyasəti təkmilləşdirilərkən universitetin 2021-2030-cu illər üçün inkişaf strategiyasının müddəaları, o cümlədən, müvafiq müzakirələrdən hasil olan fikir və təkliflər nəzərə alınaraq, məzmunu hazırlanmışdır. Əvvəlki illərdə keçirilən sorğularda əməkdaş və tələbələrin göstərdiyi fikirlərə diqqət yetirilmiş, universitet

rəhbərliyi və təhsilanlarla bir neçə dəfə keyfiyyət təminatı siyasətinin müddəaları barədə müxtəlif görüşlər keçirilmiş və müzakirələr aparılmış, Elmi Şurada şuranın üzvləri ilə müzakirə edilərək qəbul olunmuşdur.

Nəticədə, mövcud olan Keyfiyyət təminatı siyasəti sənədi ATM-in bütün struktur bölmələri və rəhbər şəxsləri üçün etibarlı olan əsas meyardır. Hər bir struktur bölmə qəbul olunmuş keyfiyyət təminatı siyasətinə uyğun olaraq, sənəddə göstərilən keyfiyyət təminatı müddəalarının davamlı və dayanıqlı ödənməsi üçün görüləcək işləri müəyyənləşdirməlidir.

AzTU-nun Keyfiyyət təminatı siyasəti ATM-in bütün struktur bölmələrinə keyfiyyət idarəetmə sisteminin strukturlaşdırılması və idarəedilməsi zamanı bütün əməkdaşlar tərəfindən qəbul edilən əsas elementləri izah edir.

Keyfiyyət təminatı siyasətinin hazırlanması zamanı onun AzTU-nun hazırkı inkişaf mühiti nəzərə alınmaqla, xarici ölkələrin ATM-lərinin təcrübələrinə müxtəlif aspektlərdən baxılmış və müvafiq müzakirələr aparılmış, nəticədə universitet üçün icrası mümkün olan fəaliyyətlərin icrası qarşıya məqsəd qoyulmuşdur. Əlavə olaraq qeyd edək ki, keyfiyyət təminatı siyasəti hazırlanan zaman əsas məqsədlərdən biri də onun maraqlı tərəflər üçün sadə və anlaşılan formada tərtibi olmuşdur.

ATM-də maraqlı tərəflərin tətbiq edilən keyfiyyət mexanizmindən məlumatlı olması keyfiyyət təminatı sisteminin əsas məqsədlərindən biridir. Bu kontekstdə universitetdə keyfiyyət mədəniyyətinin inkişafı və keyfiyyətin yüksəldilməsi istiqamətində fəaliyyətlər davam etdirilir. Universitet rəhbərliyi və keyfiyyət təminatına məsul şəxslər bütün maraqlı tərəflərin (universitetin inzibati, akademik heyəti, təhsilalanlar, valideynlər və əmək bazarında olan müəssisələr və s. ) universitetin Strateji inkişaf planından, Keyfiyyət siyasətindən, Daxili Keyfiyyət mexanizmindən xəbərdar olmasında maraqlıdırlar. Nəzərə alsaq ki, AzTU-da vahid mərkəzləşdirilmiş daxili keyfiyyət təminatı strukturu yeni qurulmuşdur, bu səbəbdən hər hansı böyük bir tədbir baş tutmamışdır, amma ilkin mərhələdə yuxarıda göstərilən sənədlərlə bütün struktur bölmələr tanış edilmiş, həmin sənədlər əlçətanlıq üçün universitetin saytına yerləşdirilmiş və hal-hazırda Keyfiyyətin Təminatı və Öyrənmə-öyrətmə Mərkəzinin (KTÖM) fəaliyyət planında keyfiyyət mədəniyyətinin izlənilməsi və inkişafı istiqamətində maraqlı tərflərin məlumatlandırılması və prosesdə iştirakı üçün tədbirlər planlaşdırılmışdır.

Mövcud olan keyfiyyət təminatı siyasəti sənədi ATM-in bütün struktur bölmələri və rəhbər şəxslər üçün əsas və etibarlı sənəd funksiyasını yerinə yetirir.

Keyfiyyət təminatı siyasəti hazırlanarkən diqqət edilməli məqamlardan biri də onun ölkəmizin təhsil strategiyası və cəmiyyətin inkişaf perspektivlərinə, təhsilanların rəy və gözləntilərinə uyğun olması olmuşdur. Buna görə də sənədin məzmunun əhatəllik səviyyəsinə xüsusi diqqət yetirilmiş və aşağıdakı hissələr siyasət sənədində öz əksini tapmışdır:

1. Fəaliyyətlərin təşkili və idarəetmədə keyfiyyət- Bütün struktur bölmələri öz fəaliyyətlərini universitetin Strateji inkişaf planına, missiyasına və məqsədinə nail olmaq üçün tələb olunan fəaliyyətlərə uyğun olaraq planlaşdırır və həyata keçirir, universitetin SİP-də qeyd etdiyi missiyasına və istiqamətlərə uyğun olaraq, həyata keçirilən tədbirlərin səmərəliliyi hesabatlar və monitorinq məlumatları əsasında qiymətləndirilir və zərurət olduğu zaman ona uyğun müvafiq qərarlar verildiyi göstərilir.

2. Keyfiyyətli təhsil təminatı - Bu hissədə keyfiyyətli təhsilin təmini universitetin Strateji inkişaf planının tərkib elementi olduğu və universitetin keyfiyyət təminatı siyasətinin əsas məqsədi peşəkar fəaliyyət sahələrinin müasirliyini və inkişafını qabaqcıl nailiyyətlər səviyyəsində təmin edə bilən, ölkədə və xaricdə rəqabətədavamlı məzunların hazırlanması olduğu qeyd edilir.

3. Resursların idarə edilməsi - Universitetin öz missiyasına uyğun olaraq, yerinə yetirməli olduğu xidmətlərin keyfiyyətinə təsir edən mühüm amillərdən biri də bu təhsil xidmətlərinin göstərilməsi zamanı istifadə olunan resursların (otaqlar, avadanlıqlar və materiallar) keyfiyyətidir.

Bu, unversitet əməkdaşlarının və təhsilalanların hərtərəfli təhlükəsizliyi ilə sıx bağlıdır. Bunu təmin etmək üçün universitet lazımi planları hazırlayır və həyata keçirir. Bu planlara Fövqəladə Hallar Planı, Yanğın təhlükəsizliyi və evakuasiya planı, Kurs alətlərinə baxım, Təmir və monitorinq planı və s nümunə göstərilmişdir.

4. Təhsil və tədqiqatlara dəstək olan bilik resurslarının idarə edilməsi - Universitetin təhsilalanların onlara lazım olan bilik və bacarıqları əldə etməsi üçün zəruri olan resursların adekvatlığını və tədris proqramlarına uyğunluğunu təmin etməyi əks olunur.

Zəruri hallarda təkmilləşdirmə tədbirləri həyata keçirildiyi, təkmilləşdirmə fəaliyyətlərində keyfiyyətin yaxşılaşdırılması və inkişafının əsas prinsiplərindən istifadə olunduğu, bu proseslərin təkmilləşdirilməsi və inkişaf etdirilməsi zamanı daxili və xarici maraqlı tərəflərin gözləntiləri və rəyləri nəzərə alındığı göstərilir.

5. Keyfiyyət mədəniyyəti və keyfiyyətin yaxşılaşdırılması - Ümumi keyfiyyət idarə etmə sisteminin müəssisənin idarəetmə yanaşması olduğu və universitetin keyfiyyətin təkmilləşdirilməsi fəaliyyətini bütün bölmələrində və bütün əməkdaşlar tərəfindən həyata keçirilməli olan bir fəaliyyət kimi qəbul etdiyi göstərilir. Eyni zamanda müvafiq aidiyyəti struktur bölmələrin rəhbərliyi altında universitetdə keyfiyyət mədəniyyətinin yayılması üçün səylərin göstərilməsi vurğulanır.

6. Keyfiyyətin idarəedilməsi təcrübəsi - *Planlaşdır-Tətbiq et-Yoxla-Tədbir gör* (PTYT) anlayışı Universitetində Keyfiyyət İdarəetmə təcrübələrinin əsasını təşkil etdiyi və PTYT tsikli çərçivəsində hansı işlər görüldüyü vurğulanır.

7. İzləniləcək keyfiyyət İndikatorları - ATM strategiyası ilə müəyyən edilmiş, əsas istiqamətlər üzrə fəaliyyətini davamlı olaraq izləyir və müvafiq olaraq, müxtəlif sahələrdə monitorinqi aparılır.

8. İctimaiyyətin məlumatlandırlması - Universitetin əsas fəaliyyət sahələrinə aid olan məlumatların icrası haqqında qərəzsiz və obyektiv məlumatları dərc edilir. İctimaiyyətin dərc edilmiş məlumatlara çıxışı təmin edilir.

9. Sahələr üzrə fəaliyyətləri tənzimləyən siyasətlər - müxtəlif sahələr (təhsil, tədqiqat və inkişaf, sosial töhfə, beynəlmiləlləşmə, idarəetmə, informasiya idarəedilməsi, insan resursları, maliyyə) üzrə siyasətlərin hazırlanması öz əskini tapmışdır.

## 2.2. *Daxili keyfiyyət təminatı mexanizmləri*

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici tələbənin təlim nəticələridir, bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran əsas vasitə hesab olunur.

Bu kontekstdə 2020-2021-ci tədris ilində ATM-də "Tədrisin keyfiyyətinə Nəzarət işçi qrupu" yaradılmış və bu komissiyaya müxtəlif kafedralardan əməkdaşlar cəlb olunmuş, həmçinin komissiyanın göstərdiyi fəaliyyətlərə uyğun olaraq, komissiyanın əsasnaməsi, hesabatları hazırlanmış və işçi qrup uğurla öz işini tamamlamışdır. İşçi qrupun fəaliyyətinə tədris olunan fənlərin, buraxılış işləri və magistr dissertasiyalarının məzmununun müasirlik, aktuallıq və istehsalatla uzlaşmasının yoxlanılması, tədrisin aparılması prosesinə nəzarət, imtahan suallarının məzmununun ümumitəhsil standartlarına uyğun olub-olmamasının yoxlanılması daxildir. Həmçinin universitetdə hər il imtahan sessiyalarında yarana

biləcək problemlərin aydınlaşdırılması, obyektivliyin təmin olunması məqsədi ilə Münaqişə (apellyasiya) komissiyası, imtahan sessiyasının gedişinə nəzarət üçün Qərargah, bundan əlavə tədris-tərbiyə prosesinin keyfiyyətini və onun elmi metodiki təminatını yüksəltmək məqsədi ilə Metodiki Komissiyalar, tədris prosesində dərslərin keçirilməsinin keyfiyyətini yoxlamaq məqsədi ilə fakültələr üzrə açıq dərslərə nəzarət komissiyaları (Əvvəlcədən müəyyən olunmuş açıq dərs qrafiklərinə uyğun nəzarət, dərsin təhlili, qiymətləndirilməsi, maraqlı tərəflərin rəy və iradlarının əks olunduğu sənədlər), tədris prosesinin keyfiyyətinin artırılması və tədris yüklərinin normativə uyğun optimallaşdırılması məqsədi ilə komissiya, "Tədrisin keyfiyyətinə Nəzarət işçi qrupu" komissiyası, İSO 9001;2015 keyfiyyət standartlarının tətbiqi işçi qrupunun yaradılması daxili keyfiyyət təminatı mexanizmlərinin fəaliyyətini əks etdirir.

Bundan əlavə, 22 aprel 2022-ci il tarixində şöbələrin fəaliyyətinin səmərəliliyi, şöbələrarası koordinasiyanı gücləndirmək, əməkdaşların xidməti fəaliyyəti üzrə daxili nəzarət tədbirlərinin həyata keçirilməsi, eləcə də əmək və icra intizamına nəzarət etmək məqsədilə AzTU Katibliyinin tabeliyinde Daxili Nəzarət qrupu yaradılmışdır. AzTU Katibliyinin fəaliyyət istiqamətlərinə unversitetdə cari və inzibati idarəetmənin səmərəli, keyfiyyətli və operativ şəkildə həyata keçirilməsinin təmin edilməsi, cari və inzibati idarəetmənin keyfiyyətinin yüksəldilməsi məqsədilə fasiləsiz tədbirlərin görülməsi, inzibati idarəetmə ilə bağlı riskləri qiymətləndirilməsi və onların idarə edilməsinə dair rəhbərliyə mütəmadi təkliflərin verilməsi daxildir.

ATM-də "Qiymətləndirmə və Keyfiyyətə nəzarət" şöbəsi 2017-ci ildə yaradılmasına baxmayaraq, təhsilin keyfiyyətinə nəzarət məqsədilə hesabat illəri üzrə müvafiq komissiyalar yaradılmış, hesabatları hazırlanmış və struktur mövcuddur.

Komissiyalara bütün maraqlı tərəflərin cəlb olunması əsasən təmin olmuşdur.

Daxili keyfiyyət təminatı sistemi üzrə yaradılmış komissiyaların fəaliyyət istiqamətlərinin strateji inkişaf planının hədəflərinə uyğunluğu əsasən təmin edilir.

Daxili Keyfiyyət Təminatı sisteminin cari tədris ilində təsdiq edilən fəaliyyət planında hər bir proses üzrə tədbirlərin, struktur-bölmələrin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi öz əksini tapmışdır. Eyni zamanda həmin fəaliyyət planında təhsil proqramları, inzibati və akademik heyət, fakültələr,

təhsilalanlarla bağlı keyfiyyət təminatı istiqamətində icra olunacaq müxtəlif fəaliyyətlər qeyd olunur.

Hal-hazırda Daxili Keyfiyyət Təminatı Siyasəti sənədinin müddəaları əsasında daxili keyfiyyət təminatı sisteminin hər kəsə əlçatan və aydın olması məqsədilə keyfiyyət təminatı bələdçisi sənədi hazırlanır.

Daxili keyfiyyət təminatı çərçivəsində müvafiq struktur bölmələri tərəfindən tədris illəri üzrə hər tədris ilinin sonunda rəhbərliyə müvafiq hesabatlar verilir. Bundan əlavə, 2022-ci ildə yaradılmış Keyfiyyətin Təminatı və Öyrənmə-öyrətmə Mərkəzi (KTÖM) AzTU-nun daxili keyfiyyət təminatı sistemində məsul qurum kimi özünün başlıca fəaliyyət istiqamətlərindən biri olaraq, ATM-in fəaliyyətinə dair yeni institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarlarına uyğun olaraq hər tədris ilinin sonunda illik özünütəhlilin aparılmasına nəzarət müəyyənləşdirilmişdir.

Qeyd edək ki, AzTU-nun əvvəlki akkreditasiya üzrə Yekun Hesabatında göstərilən tövsiyə və göstərişlərin nəzərə alındığı ayrı-ayrı tədris illərinə müvafiq Fəaliyyət Planları icra edilmiş, yekun olaraq müvafiq tövsiyə və göstərişlərin icrasına dair hesabat hazırlanmışdır.

AzTU-da maraqlı tərəflərin rəylərinin və gözləntilərinin, məmnunluq səviyyəsinin öyrənilməsi keyfiyyət təminatı sisteminin əsas prioritet istiqamətlərindən biridir. Bu kontekstdə ATM-in rəhbərliyi daxili və xarici maraqlı tərəflərlə ünsiyyətdə və qarşılıqlı əlaqədədir. Müəssisənin keyfiyyət təminatı sistemi bütün maraqlı tərəflərin rəylərinin, sorğu və təkliflərinin monitorinqini və qiymətləndirilməsini əhatə edir. Universitet bütün fəaliyyətlərində maraqlı tərəflərin məmnuniyyətini əsas kimi qəbul edərək müvafiq keyfiyyət hədəflərini müəyyən edir və həyata keçirir.

Hesabat dövründə fakültələrdə tələbələr arasında, universitetin inzibati və akademik heyəti arasında müxtəlif sorğular keçirilmişdir. AzTU-nun keyfiyyət təminatı sisteminin əsas istiqamətlərindən biri də davamlı olaraq bütün maraqlı tərəflərin məmnunluq səviyyəsinin ölçülməsidir. Belə ki hesabat dövründə təhsilalanlar üçün "ATMin ümumi fəaliyyətinin qiymətləndirilməsi", "Tədris prosesinin qiymələndirilməsi", məzunlar arasında "Karyera xidmətlərindən məmnunluq", Akademik heyət arasında "Akademik fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq", "Peşəkar inkişafın dəstəklənməsi fəaliyyətlərindən məmnunluq", İnzibati və tədris-köməkçi heyət arasında "Fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq" barədə sorğular keçirilmişdir.

Sorğulardan gələn geridönüşlər nəticəsində probelmlər müzakirə edilmiş və həlli yollarında müvafiq işlər görülmüşdür. Maraqlı tərəflər arasında keyfiyyət mədəniyyətinin inkişafı yolunda tədris ili ərzində hər semestr üzrə iki və daha artıq müxtəlif sorğuların keçirilməsi (KTÖM) əsas prioritet fəaliyyət istiqamətlərindən biridir.

*2.3. Keyfiyyət təminatı mədəniyyəti*

Keyfiyyət mədəniyyətinin ATM-də bütün struktur bölmələrə yayılması siyasətimizin əsas məqsədlərindən biridir. Bu çərçivədə universitet keyfiyyət mədəniyyətinin inkişafı və keyfiyyətin yüksəldilməsi istiqamətində fəaliyyətini davam etdirir. Belə ki, keyfiyyət təminatına məsul şəxslər maraqlıdırlar ki, bütün maraqlı tərəflər (universitetin inzibati, akademik heyəti, təhsilanlarlar, valideynlər və əmək bazarında olan müəssisələr və s. ) universitetin strateji inkişaf planı, daxili keyfiyyət təminatı strukturunun əsasnaməsi (Elmi Şuranın 24 iyun 2022-ci il tarixli iclasının qərarı ilə (protokol №10 təsdiq edilmişdir.)) və keyfiyyət siyasətindən xəbərdar olsunlar və keyfiyyətin yaxşılaşdırılması istiqamətində öz missiyalarını yerinə yetirsinlər. Qeyd edilmiş sənədlər Elmi Şura iclaslarında müzakirəyə çıxarılmış və təsdiq olunduqdan sonra bütün struktur bölmələr AzTU –nun korporativ e-maili vasitəsilə məlumatlandırılmışdır. Eyni zamanda həmin sənədlərin universitetin rəsmi saytında yerləşdirilməsi təmin olunmuşdur. Hazırda AzTU-da keyfiyyətin təmin olunmasına məsul bölmə olan KTÖM-ün əsas fokuslandığı məsələlərdən biri də onun koordinasiyası ilə yaradılması nəzərdə tutulan Keyfiyyət Komissiyası və onun işçi qrupları ilə universitetin rəhbərliyi, akademik və inzibati heyəti, ümumilikdə, bütün maraqlı tərəflərini əhatə edən daha səmərəli kommunikasiya şəbəkəsinin qurulmasıdır.

https://www.aztu.edu.az/az/page/normativ-senedler-148

Universitetdə keyfiyyətin təkmilləşdirilməsi işi bütün struktur bölmələrdə və bütün əməkdaşlar tərəfindən həyata keçirilməli olan bir fəaliyyət kimi qəbul edilir. Müvafiq aidiyyəti struktur-bölmələrin rəhbərliyi altında universitetdə keyfiyyət mədəniyyətinin yayılması üçün səylər göstərilir. Bu məqsədlə akademik və inzibati heyətin keyfiyyətin idarə edilməsi və keyfiyyətin yüksəldilməsi ilə bağlı məlumatlandırılması üçün daxili keyfiyyət təminatına məsul bölmə və TKTA tərəfindən təlimlərin təşkil edilməsi planlaşdırılmış və həyata keçirilmişdir.

https://aztehsil.com/news/15704-azerbaycan-texniki-universiteti-tehsilde-keyfiyyet-teminati-agentliyi-ile-muqavile-imzalayib.html

Əməkdaşların keyfiyyətin artırılması fəaliyyətlərində iştirakı dəstəklənir və həvəsləndirilir. Müvafiq struktur rəhbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və koorperativ fəaliyyətləri arasında koordinasiya gücləndirilir və dəstəklənir. Struktur bölmələri arasında koordinasiya və əməkdaşlığın gücləndirilməsi üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir.

Universitetin əsas məqsəd və vəzifələrindən olan təlim-tədris və tədqiqat fəaliyyətlərinin inkişaf etdirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün lazım olan akademik və inzibati heyətin, infrastrukturun, avadanlıqların və digər zəruri obyektlərin müəyyən edilməsi üçün universitet rəhbərliyi ilə struktur rəhbərləri arasında tez-tez görüşlər olur. Universitetin missiyasına, məqsəd və vəzifələrinə uyğun prioritetlər universitet rəhbərliyi və struktur rəhbərlərinin birgə iştirakı ilə müəyyən edilir.

Keyfiyyətin təmin olunması və davam etdirilməsinda ATM rəhbərliyi bilavasitə iştirak edir, həmçinin xarici ölkələrin ali təhsil müəssisələrinin keyfiyyət təminatında təşkil etdiyi mexanizmlər öyrənilir və universitetimizdə tətbiqi yolunda işlər görülür.

Keyfiyyət təminatı sahəsində keyfiyyətin müşahidəsi daimi aparılır və keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi keyfiyyət təminatına məsul bölmənin fəaliyyət istiqamətlərindən biridir, bu səbəbdən daimi müşahidələr aparılır, maraqlı tərəflər arasında sorğular keçirilir və səmərəli əks-əlaqə nəticəsində maraqlı tərəflərin uyğun ehtiyacları, gözləntiləri təmin olunmuşdur və hazırda davam edir.

Müəyyən olunmuş prioritetlərə uyğun fəaliyyət göstərmək və keyfiyyətin yüksəldilməsi üçün lazım olan resurslar universitet rəhbərliyi tərəfindən təmin olunur. Lazım olan resursların təmin olunması və bölüşdürülməsindəki əsas müəyyənedici amil fəaliyyətlərin qiymətləndirilməsinin nəticələridir. Akademik və inzibati heyətin bilik və bacarıqlarını inkişaf etdirmək və onlardan tələb olunan kompetensiyaları qorumaq üçün uyğun ehtiyacları müəyyən edilir və mütəmadi olaraq təlimlər keçirilir.

https://www.aztu.edu.az/az/news/kafedranin-emekdaslari-yeni-layihe-cercivesinde-kecirilen-telimde-istirak-edibler-7815

Azərbaycan Texniki Universitetində təhsilin keyfiyyətinin yüksəldilməsi

məqsədi ilə qabaqcıl ATM-lər arasında praktiki əlaqələrin genişləndirilməsinə, tələbələrin təqaüd proqramlarına dəstək, bu istiqamətdə birgə proqramların təşkilinə, tələbələr arasında biznes ideyalarının formalaşdırılmasına, innovativ təşəbbüslərin reallaşdırılmasına, mühəndislik və idarəetmə sahələri üzrə araşdırmaların aparılmasına dəstək, Universitetin elmi potensialından istifadə etməklə əməkdaşlığın qurulması və digər oxşar məsələlər ilə bağlı birgə fəaliyyətin göstərilməsi, müştərək layihələrin icra edilməsi məqsədilə qarşılıqlı əməkdaşlıqlar yaradılmışdır:

https://www.aztu.edu.az/az/news/aztu-ile-abs-in-kaliforniya-statinda-yerlesen-berkli-universiteti-arasinda-memorandum-imzalanib-7702

https://www.aztu.edu.az/az/news/aztu-da-creng-ofisi-ve-laboratoriyasi-fealiyyete-baslayib-7914

https://www.aztu.edu.az/az/news/aztu-nun-terefdasi-oldugu-beynelxalq-layihe-uzre-onlayn-isci-gorus-kecirilib-7971

https://www.aztu.edu.az/az/news/aztu-erasmus-ka2-uniclad-layihesi-cercivesinde-klasterlerin-yaradilmasi-tecrubesini-muzakire-edib-7977

Akademik heyətin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılması və inkişaf etdirilməsi, təhsil və tədqiqat işləri arasında əlaqənin gücləndirilməsinə yönəlmiş elmi fəaliyyətin həvəsləndirilməsi, tədrisdə innovasiyaların tətbiqi və yeni texnologiyalardan istifadənin stimullaşdırılması məqsədi ilə əməkdaşlar və təhsilanlar arasında sorğular keçirilmişdir.

Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyi bilavasitə maraqlıdır və rəhbərlik institusional dayanıqlılıq istiqamətində müxtəlif işlər görmüşdür. Belə ki 13-17 yanvar 2022-ci il tarixlərində universitetimizdə Çankaya Universitetinin dekanı, professor Buket Akkoyunlu və Türkiyənin Ali Təhsildə Keyfiyyət Təminatı Şurasının (YÖKAK) konsultantı Salih Bardakçı tərəfindən “Keyfiyyətin Təminatı və Öyrətmə - öyrənmə Mərkəzi üçün kadr hazırlığı” mövzusunda təlimlər keçirilmişdir. Təlimlərdə AzTU-nun müxtəlif fakültələrinin professor-müəllim heyəti və müvafiq şöbələrin əməkdaşları iştirak etmişdir.

https://azedu.az/az/news/52112-aztu-da-keyfiyyetin-teminati-ve-oyretme-oyrenme-merkezi-ucun-kadr-hazirligi-telimleri-yekunlasib-foto

AzTU rəhbərliyi və əməkdaşları tədrisin keyfiyyətinin artırılması istiqamətində müxtəlif xaricə ölkələrdə ezamiyyətdə olmuşdur və bunun nəticəsində mühəndis yetişdirən xarici ali təhsil müəssisələri ilə iki diplom

müqavilələri bağlanmışdır. İkili diplom müqavilələri nəticəsində AzTU həm beynəlmiləlləşmə istiqamətində inkişaf etmiş, xarici professor-müəllim heyəti ATM-ə cəlb olunmuşdur, həm də xarici inkişaf etmiş ali təhsil müəssisələrinin tədris təcrübələrini mənimsəmişdir.

https://mektebgushesi.az/2022/06/08/qazi-universitetind%C9%99-t%C9%99crub%C9%99d%C9%99-olan-aztu-numay%C9%99nd%C9%99l%C9%99ri-il%C9%99-gorus-kecirilib/

https://www.aztu.edu.az/az/news/aztu-nun-rektoru-ispaniya-ve-portuqaliyada-isguzar-seferde-olub-7867

https://www.aztu.edu.az/az/news/turkiyeli-professorlar-aztu-ya-sefer-edib-7869

https://www.aztu.edu.az/az/news/aztu-ile-daskend-inha-universiteti-arasinda-emekdasliq-istiqametleri-muzakire-olunub-7874

https://www.aztu.edu.az/az/news/aztu-ile-cenubi-qazaxistan-dovlet-universiteti-arasinda-emekdasliq-memorandumu-imzalanib-7752

https://www.aztu.edu.az/az/news/aztu-da-innovativ-oyrenme-oyretme-yanasmalari-1-movzusunda-telim-kecirilir-7853

https://www.aztu.edu.az/az/news/turkiyenin-qazi-universitetinde-tedqiqat-tecrube-proqrami-nda-istirak-eden-aztu-nun-heyeti-ile-ilkin-qiymetlendirme-gorusu-kecirilib-7810

Qeyd etdiyimiz kimi, keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətinin koordinasiyası hal-hazırda Elmi Şurasının 04.05.2021-ci il tarixli qərarı ilə yaradılmış AzTU Katibliyinin fəaliyyətinin əsasını təşkil edir. Katiblik rektorun icra aparatı olmaqla, AzTU-nun cari və inzibati fəaliyyəti üzərində rəhbərliyi və koordinasiyanı həyata keçirən struktur bölməsidir.

## 3.TƏLİM VƏ TƏDRİS

### *3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

Azərbaycan Texniki Universitetində tələbə qəbulu:

- təhsilin bakalavriat səviyyəsində:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli, 8 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısı” və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31

oktyabr 2011-ci il tarixli, 177 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) təsnifatı” üzrə müvafiq fakültələrdə **37 ixtisas (proqram):**

**1. Nəqliyyat və logistika fakültəsi**

1. 050621 – Dəmiryolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi
2. 050622 – Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi
3. 050623 – Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi
4. 050658 – Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi
5. 050811 – Nəqliyyat servisi (avtonəqliyyat üzrə)

**2. Energetika və avtomatika fakültəsi**

1. 050608 – Elektroenergetika mühəndisliyi
2. 050609 – İstilik energetikası mühəndisliyi
3. 050610 – Enerji maşınqayırması mühəndisliyi
4. 050626 – Elektrik mühəndisliyi
5. 050628 – Proseslərin avtomatlaşdırılması mühəndisliyi
6. 050648 – Biotibbi texnologiya mühəndisliyi

**3. Metallurgiya və materialşünaslıq fakültəsi**

1. 050601 – Materialşünaslıq mühəndisliyi
2. 050605 – Dağ-mədən mühəndisliyi
3. 050611 – Metallurgiya mühəndisliyi
4. 050649 – Ekologiya mühəndisliyi
5. 050651 – Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi

**4. Maşınqayırma və robototexnika fakültəsi**

1. 050612 – Maşın mühəndisliyi
2. 050624 – Cihazqayırma mühəndisliyi.
3. 050625 – Texnoloji maşın və avadanlıqlar mühəndisliyi
4. 050629 – Mexatronika və robototexnika mühəndisliyi
5. 050630 – Mexanika mühəndisliyi
6. 050645 – Poliqrafiya mühəndisliyi
7. 050646 – Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi.

**5. İnformasiya və telekommunikasiya texnologiyaları fakültəsi**

1. 050509 – Kompüter elmləri
2. 050627 – Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
3. 050631 – Kompüter mühəndisliyi

4. 050655 – İnformasiya texnologiyaları
5. 050656 – Sistem mühəndisliyi
6. XTB 050106 – İnformasiya təhlükəsizliyi

**6. Xüsusi texnika və texnologiya fakültəsi**

1. XTB050101 – Silah və silah sistemlərinin istehsal texnologiyası
2. XTB050102 – Optotexnika
3. XTB050103 – Pirotexniki vasitələrin texnologiyası
4. XTB050104 – Çoxkanallı radiorele və troposfer rabitəsinin yerüstü aparatlarının hazırlanması, istismarı və təmiri
5. XTB050105 – Kompozisiya materiallarından müdafiə təyinatlı məmulatların layihələndirilməsi və istehsalı
6. 050647 – Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi

**7. İqtisadiyyat və idarəetmə fakültəsi**

1. 050405 – Sənayenin təşkili və idarə olunması.
2. 050407 – Menecment.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli, 45 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı” üzrə müvafiq fakültələrdə **36 ixtisas (proqram):**

**1. Nəqliyyat və logistika fakültəsi**

1. 050621 – Logistika və nəqliyyat texnologiyalari mühəndisliyi
2. 050632 – Nəqliyyat mühəndisliyi
3. 050806 – Nəqliyyatda servis

**2. Energetika və avtomatika fakültəsi**

1. 050607 – Elektrik və elektronika mühəndisliyi
2. 050608 – Energetika mühəndisliyi
3. 050630 – Mühəndis fizikası
4. 050634 – Proseslərin avtomatlaşdırılması mühəndisliyi

**3. Metallurgiya və materialşünaslıq fakültəsi**

1. 050606 – Ekologiya mühəndisliyi
2. 050614 – Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi
3. 050618 – Kimya mühəndisliyi
4. 050623 – Materiallar mühəndisliyi
5. 050624 – Mədən mühəndisliyi

6. 050627 – Metallurgiya mühəndisliyi

**4. Maşınqayırma və robototexnika fakültəsi**

1. 050604 – Cihaz mühəndisliyi
2. 050622 – Maşın mühəndisliyi
3. 050628 – Mexanika mühəndisliyi
4. 050629 – Mexatronika və robototexnika mühəndisliyi
5. 050635 – Qida mühəndisliyi
6. 050638 – Sənaye mühəndisliyi

**5. İnformasiya və telekommunikasiya texnologiyaları fakültəsi**

1. 050509 – Kompüter elmləri
2. 050615 – İnformasiya təhlükəsizliyi
3. 050616 – İnformasiya texnologiyaları
4. 050620 – Kompüter mühəndisliyi
5. 050636 – Radiotexnika və telekommunikasiya mühəndisliyi

**6. Xüsusi texnika və texnologiya fakültəsi**

1. XTB050101 – Hərbi kompozisiya materialları mühəndisliyi
2. XTB050102 – Hərbi rabitə vasitələri mühəndisliyi
3. XTB050103 – Optotexnika mühəndisliyi
4. XTB050104 – Pirotexniki və partladıcı vasitələr mühəndisliyi
5. XTB050106 – Silah və silah sistemləri mühəndisliyi
6. 050601 – Aerokosmik mühəndislik

**7. İqtisadiyyat və idarəetmə fakültəsi**

1. 050401 – Beynəlxalq ticarət və logistika.
2. 050402 – Biznesin idarə edilməsi
3. 050405 – İqtisadiyyat.
4. 050407 – Marketinq.
5. 050408 – Menecment.
6. 050410 – Statistika.

- Təhsilin magistratura səviyyəsində:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2011-ci il tarixli, 95 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı" və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2011-ci il tarixli, 177 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) təsnifatı"

üzrə müvafiq fakültələrdə **35 ixtisasın (proqramın)** aşağıda göstərilən **133 ixtisaslaşmaları** üzrə aparılır:

| №/№ | İxtisasın şifri | İxtisas və ixtisaslaşmaların adı |
|---|---|---|
| 1 | **060405** | **Sənayenin təşkili və idarə edilməsi** |
| | | İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (maşınqayırma üzrə) |
| | | İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (rabitə üzrə) |
| | | İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (nəqliyyat üzrə) |
| | | Layihənin idarə olunması |
| | | İnnovasiya strategiyasının işlənməsi |
| | | İnvestisiyanın iqtisadi qiymətləndirilməsi |
| | | Müəssisənin iqtisadiyyatı |
| 2 | **060407** | **Menecment (sahələr üzrə)** |
| | | Menecment (maşınqayırma üzrə) |
| | | Strateji idarəetmə |
| | | Heyətin idarə edilməsi |
| | | İnnovasiyaların və layihələrin idarə olunması |
| 3 | **060409** | **Biznesin idarə edilməsi** |
| | | Biznesin təşkili və idarə edilməsi |
| 4 | **060509** | **Kompüter elmləri** |
| | | İntellektual sistemlər |
| | | Kompüterli modelləşdirmə |
| | | Optimal idarəetmənin riyazi-iqtisadi üsulları |
| | | Sistem proqramlaşdırılması |
| | | Kompüter sistemlərinin və şəbəkələrinin proqram təminatı |
| | | Dövlət informasiya sistemlərinin təhlükəsizliyi |
| | | Verilənlərin təhlili (data analitikası) |
| | | İdarəetmənin informasiya texnologiyaları |
| 5 | **060601** | **Materialşünaslıq mühəndisliyi** |
| | | Materialşünaslıq və materiallar texnologiyası |

| | | |
|---|---|---|
| | | Maşınqayırma materialşünaslığı |
| | | Kompozisiya materialları |
| 6 | **060605** | **Dağ-mədən mühəndisliyi** |
| | | Faydalı qazıntıların zənginləşdirilməsi |
| 7 | **060608** | **Elektroenergetika mühəndisliyi** |
| | | Elektroenergetika |
| | | Elektrik şəbəkə və sistemləri |
| | | Elektrik təchizatı (sahələr üzrə) |
| 8 | **060609** | **İstilik energetikası mühəndisliyi** |
| | | Bərpa olunan enerji mənbələri |
| | | Sənaye istilik energetikasi |
| 9 | **060610** | **Enerji maşınqayırması mühəndisliyi** |
| | | Daxili yanma mühərrikləri və onların texniki istismarı |
| | | Enerji maşınlarının istehsalı |
| | | Soyuducu maşın və qurğular |
| 10 | **060611** | **Metallurgiya mühəndisliyi** |
| | | Metalların və ərintilərin tökmə istehsalı |
| | | Qaynaq istehsalı metallurgiyası, texnologiyası və avadanlığı |
| | | Metalşünaslıq və metalların termiki emalı |
| | | Metalların təzyiq altında emalı |
| 11 | **060612** | **Maşın mühəndisliyi** |
| | | Maşınqayırma texnologiyası |
| | | Maşınqayırmada kompüter texnologiyaları |
| | | Tökmə və qaynaq istehsalının maşın və avadanlıqları |
| | | İnteqrasiya olunmuş və kompüterləşdirilmiş dəzgah sistemləri |
| | | Texnoloji komplekslərin layihələndirilməsi |
| 12 | **060621** | **Dəmir yolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi** |
| | | Dəmir yolu təsərrüfatı və onun istismarı |
| | | Vaqon və vaqon təsərrüfatı |
| 13 | **060622** | **Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi** |
| | | Yol hərəkətinin təşkili və təhlükəsizliyi |
| | | Avtomobil nəqliyyatının istismarı |
| | | Yol-nəqliyyat hadisələrinin avtotexniki ekspertizası |

| | | |
|---|---|---|
| | | Yol-hərəkət kompleksinin sertifikatlaşdırılması və lisenziyalaşdırılması |
| | | Nəqliyyat əməliyyatlarının intellektual idarə edilməsi |
| 14 | **060623** | **Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi** |
| | | Logistika və nəqliyyat** (SABAH) |
| | | Şəhər nəqliyyat şəbəkəsi və nəqliyyat xidmətinin təşkili |
| | | Nəqliyyat xidmətləri üçün böhran və risklərin idarə edilməsi |
| | | Nəqliyyatda daşımalar və menecment (nəqliyyat növləri üzrə) |
| | | Beynəlxalq avtomobil daşımaları |
| 15 | **060624** | **Cihazqayırma mühəndisliyi** |
| | | Cihazqayırma texnologiyası |
| 16 | **060625** | **Texnoloji maşın və avadanlıqlar mühəndisliyi** |
| | | Yükqaldırıcı maşınlar və avadanlıqlar |
| | | Yeyinti sənayesi iaşə və ticarətinin texnoloji maşın və avadanlıqları |
| | | Yüngül sənaye və məişət xidmətinin texnoloji maşın və avadanlıqları |
| | | Metalkəsən dəzgahlar və alətlər |
| | | Plastik kütlə və rezin emalının maşın və avadanlıqları |
| 17 | **060626** | **Elektrik mühəndisliyi** |
| | | Kabel və keçiricilərin fizikası və texnikası |
| | | Elektrik aparatları |
| | | Elektrik nəqliyyatı (metropoliten sahəsi üzrə) |
| | | Elektrik təchizatının optimallaşdırılması və modelləşdirilməsi |
| | | Avtomatlaşdırılmış elektrotexnoloji qurğular və sistemlər |
| | | Nəqliyyat vasitələrinin elektrik avadanlığı və elektronikası (nəqliyyat növləri üzrə) |
| | | Sənaye qurğuları və texnoloji komplekslərin avtomatikası və elektrik intiqalı |
| 18 | **060627** | **Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi** |
| | | Radiorabitə, radioverilişlər və televiziya |

| | | |
|---|---|---|
| | | Radioelektron sistemlər |
| | | Xüsusiləşdirilmiş radiorabitə sistemləri |
| | | Radioelektron mübarizə vasitələri |
| | | Çoxkanallı telekommunikasiya sistemləri |
| | | Şəbəkələr, rabitə sistemləri və informasiyanın paylanması |
| | | Hərəkət edən obyekti olan rabitə vasitələri |
| | | Telekommunikasiya sistemlərinin informasiya təhlükəsizliyi |
| | | Optik rabitə fizikası və texnikası |
| | | İfrat yüksək tezlikli texnika və texnologiya |
| | | Güc elektronikası |
| | | Elektron cihazlar və qurğular |
| | | Sənaye elektronikası |
| 19 | **060628** | **Proseslərin avtomatlaşdırılması mühəndisliyi** |
| | | Energetika sistemlərinin avtomatik idarə edilməsi |
| | | Texnoloji proseslərin avtomatlaşdırılması və idarə edilməsi |
| | | Texniki sistemlərdə informatika və idarəetmə |
| | | Enerji menecmenti |
| 20 | **060629** | **Mexatronika və robototexnika mühəndisliyi** |
| | | Robotlar və robototexniki sistemlər |
| | | Mexatronika |
| 21 | **060630** | **Mexanika mühəndisliyi** |
| | | Maye və qazların nəqli avadanlıqları |
| | | Tribotexnika |
| | | Maşın və mexanizmlər nəzəriyyəsi |
| | | Maşınların möhkəmliyi və dinamikası |
| | | Hidravlik maşınlar, hidrointiqrallar və hidropnevmoavtomatika |
| | | Yükqaldırıcı maşınların dinamikası və möhkəmliyi |
| | | Hidromexanika və hidravlik maşınlar |
| 22 | **060631** | **Kompüter mühəndisliyi** |
| | | Kompüter sistemləri və şəbəkələri |
| | | Kompüter texnikasının layihələndirilməsi və konstruksiya edilməsi |
| | | Dinamiki arxitekturalı multiprosessor sistem və şəbəkələri |

| | | |
|---|---|---|
| | | Kompüter mühəndisliyi |
| | | Biliklərin əldə edilməsi sistemləri |
| | | Kompüter təhlükəsizliyi |
| 23 | **060632** | **İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi** |
| | | Kibertəhlükəsizlik** (SABAH) |
| | | İnformasiya mühafizəsi və təhlükəsizliyi |
| | | İnformasiya texnologiyaları və telekommunikasiya sistemləri |
| | | Tətbiqi proqram təminatı |
| | | İdarəetmədə informasiya sistemləri |
| | | İqtisadi informatika |
| 24 | **060645** | **Poliqrafiya mühəndisliyi** |
| | | Poliqrafiya maşınları və avtomatlaşdırılmış komplekslər |
| 25 | **060646** | **Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi** |
| | | Metallurji tullantıların təkrar emal texnologiyaları |
| | | Maşın və aparat hissələrinin yeyilməyədavamlılığının yüksəldilməsi və bərpası texnologiyası və avadanlığı |
| 26 | **060647** | **Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi** |
| | | Metrologiya və metroloji təminat |
| | | Keyfiyyətə nəzarət, diaqnostik üsul və sistemlər |
| | | Standartlaşdırma və sertifikatlaşdırma (maşınqayırma sahəsi) |
| 27 | **060648** | **Biotibbi texnika mühəndisliyi** |
| | | Biotibbi və radioelektron aparatlarına servis xidməti |
| | | Tibbi və texniki diaqnostik üsul və cihazlar |
| 28 | **060649** | **Ekologiya mühəndisliyi** |
| | | Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması |
| | | Təbii ehtiyatların qorunması və təkrar emalı |
| | | Neft və kimya sahəsində ətraf mühitin mühafizəsi |
| 29 | **060651** | **Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi** |
| | | Həyat fəaliyyətinin təhlükəsizliyi |

| | | |
|---|---|---|
| 30 | **060804** | **Nəqliyyat servisi (nəqliyyat növləri üzrə)** |
| | | Avtomobil servisinin texnologiyası |
| 31 | **XTM060001** | **Silah və silah sistemlərinin istehsal texnologiyası** |
| | | Atıcı, artilleriya və raket silahlarının istehsal texnologiyası |
| 32 | **XTM060002** | **Optotexnika** |
| | | Optik materiallar, optik-elektron cihazlar və sistemlər |
| 33 | **XTM060003** | **Pirotexniki vasitələrin texnologiyası** |
| | | Partlayıcı məmulatların texnologiyası |
| 34 | **XTM060004** | **Çoxkanallı radiorele və troposfer rabitənin yerüstü aparatlarının hazırlanması, istismarı və təmiri** |
| | | Hərbi rabitə vasitələri |
| 35 | **XTM060005** | **Kompozisiya materiallarından müdafiə təyinatlı məmulatların layihələndirilməsi və istehsalı** |
| | | Metal əsaslı kompozisiya materiallarından hərbi təyinatlı məmulatların istehsalı |
| **3*** | **060409** | **Biznesin idarə edilməsi*<br>MBA (Master of Business Adminstration) Proqramı üzrə** |
| | | Biznesin təşkili və idarə edilməsi (Mühəndislik və idarəetmə riskləri üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (Risklərin idarə edilməsi üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (Marketinq üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (Menecment üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (Kiber təhlükəsizlik üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (Beynəlxalq biznes üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (Biznes və data analitikası üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (Beynəlxalq logistika və təchizat zəncirinin idarə edilməsi üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (Səhiyyənin idarə edilməsi) |
| | | Biznesin təşkili və idarə edilməsi (Enerji menecmenti üzrə) |
| | | Biznesin təşkili və idarə edilməsi (İnsan resurlarının idarə edilməsi üzrə) |

Azərbaycan Respublikası Müdafiə Sənayesi kompleksi üçün yüksək ixtisaslı kadrların hazırlanması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 7 iyun tarixli 91 nömrəli qərarı ilə AzTU –da Xüsusi texnika vıə texnologiya fakültəsi və müvafiq kafedralar yaradılmışdır və bu sahədə yüksək ixtisaslı kadrlar hazırlanır.

Tələbə qəbulu üzrə sifarişlərin hazırlanmasında müvafiq ixtisasların plan yerlərinın təyin olunmasında təhsil proqramlarında qeyd olunan tələblərin ödənilməsinın vəziyyəti nəzərə alınır.

Əsasən işəgötürənlərin də iştirakı ilə əmək bazarının tələblərinə uyğun olaraq, əvvəlki illərin faktiki qəbulu da nəzərə alınmaqla ixtisaslar üzrə tələbə qəbulu sifarişlərinin optimal say tərkibi müəyyən edilir.

Bütövlükdə təhsilalanların qəbulu universitetin tələbə qəbulu planının proqnoz layihəsi əsasında Nazirlər Kabinetinin təsdiq etdiyi plan üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır.

Akkreditasiya olunan 2015/2016-2021/2022-ci tədris illəri üzrə tələbə qəbulunun nəticələri özünətəhlil hesabatına əlavə olunan 3 saylı (ATM-ə təhsilalan qəbulu) Excel cədvəlində təqdim olunur.




Təhsilalan qəbulunun illər üzrə artım dinamikası

Universitetə transfer olunmuş, subbakalavr təhsili almış və Təkrar ali təhsil üzrə qəbul olunmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması fakültə dekanlarının xidməti məruzələri əsasında müvafiq ixtisas üzrə kafedra müdirlərinin

rəyi nəzərə alınmaqla universitetdə yaradılmış fənn əvəzlənməsi Komissiyası tərəfindən tam nəzərə alınır.

Təhsilalanların əvvəlki kvalifikasiyalarının tanınması Azərbaycan Respublikası Təhsil Nazirliyinin (indi: Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi – **AR ETN**) təsdiq etdiyi təhsil proqramlarının tələblərini yerinə yetirmiş tələbələrə verilmiş dövlət nümunəli diplomlarla reallaşdırılmışdır.

Hesabat dövründə AzTU –da ümumilikdə 52989 bakalavr və 5520 magistrant təhsil almışdır.




3.2. *Təhsil proqramları*

Akkreditasiya olunan 2015/2016-2021/2022-ci tədris illəri üzrə təhsilin bakalavriat və magistratura səviyyələrində kadr hazırlığı Təhsil Nazirliyi (indi: ARETN) tərəfindən təsdiq edilmiş təhsil proqramları əsasında tərtib olunan tədris planları üzrə təşkil olunmuşdur.

Universitetdə həyata keçirilən təhsil proqramları əmək bazarı, cəmiyyətin və iqtisadiyyatın tələblərini nəzərə almaqla yenilənmişdir.

Kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi, tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu, tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu, həmçinin təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı nəzərə alınmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu illərdə təsdiq edimiş təsnifata uyğun ixtisaslar üzrə təhsil proqramları 2020-ci ildə yenidən işlənilmiş və müvafiq qaydada təsdiq olunmuşdur.

İstifadə olunan təhsil proqramları Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğun hazırlanmış və təsdiq edilmişdir.

İxtisasların tədris proqramları və planlarının hazırlanmasında və rəsmiləşdirilməsində AzTU ilə əməkdaşlıq edən müəssisələrin aparıcı mütəxəssisləri iştirak etmiş və təhsil proqramlarının əmək bazarının tələblərinə uyğun kadr hazırlığına uyğunluğu barədə rəylər alınmışdır. (Rəylər hesabata əlavə edilir).

Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğunu və tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu təmin etmək üçün 2022-ci ildə ixtisaslar üzrə tədris planlarında ixtisasın seçmə fənləri bölümündəki (60 kredit) ixtisas fənlərinə yenidən baxılmış, həmin fənlərin ABŞ, Avropa və Türkiyənin aparıcı universitetlərində tədris olunan fənlərə uyğunluğu təmin olunmuşdur.

Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu və həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu tam təmin edilmişdir.

Universitetin müstəqil saytı, Elektron təhsil sistemi vasitəsi, aparılmış sorğuların köməyi ilə təhsil proqramlarının icrası nəticəsində əldə olunan təlim nəticələri dövri mətbuat, sosial media, həmçinin universitetin müstəqil saytı vasitəsilə ictimaiyyət üçün əlçatanlığı təmin edilir.

Əlavə təhsil proqramlarına qəbul və tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na uyğun təşkil edilmişdir. Eyni zamanda AzTU-nun tələbələri və əməkdaşları məqsədli ixtisasartırma hazırlıq kurslarına cəlb olunmuşlar.

### *3.3. Tədrisin təşkili*

Tədrisin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və

Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" və 2010-cu il 24 iyun tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili" Qaydalarının tələblərinə uyğun hazırlanmış tədris planlarının əsasında həyata keçirilir.

Tədris planları ixtisasların təhsil proqramlarının tələblərini nəzərə almaqla kredit sisteminin tələblərinə tam uyğun hazırlanmışdır.

İxtisasların tədris planlarında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikləri mövcuddur.

Fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi aparılmışdır. Belə ki, 2022-ci ildə demək olar ki, bütün ixtisasların tədris planlarında ixtisasın seçmə fənləri bölümündəki (60 kredit) ixtisas fənlərinə yenidən baxılmış, həmin fənlərin dünyanın aparıcı universitetlərdə tədris olunan fənlərə uyğunluğu təmin olunmuşdur.

Tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü aparılmış, ümumi və ixtisas fənləri arasında balans saxlanılmışdır. Belə ki, tədris planında ümumi auditoriya saatlarının 15-20 faizi humanitar fənlərin (30 kredit, onlardan 6 kredit seçmə fənlər), 80-85 faizi isə peşə hazırlığını təmin edən fənlərin (180 kredit, onlardan 60 kredit seçmə fənlər) tədrisinə ayrılmışdır. Təcrübələr üçün 21, Yekun Dövlət Attestasiyası (YDA) üçün isə 9 kredit nəzərdə tutulmuşdur. Humanitar fənn bölümünə məcburi fənlər kimi "Azərbaycan tarixi", "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya, "Xarici dildə işgüzar və akademik kommunikasiya" fənləri daxildir. Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyənləşdirilmişdir və bir kredit 30 saata bərabər götürülmüşdür. Hər tədris ilində təlim müddəti sentyabrın 15-dən başlanır və ixtisas üzrə tədris planına müvafiq olaraq yekunlaşır. Əyani təhsil forması üzrə tədris ilinin müddəti 40 həftədir. Hər semestr 20 həftədən (o cümlədən 5 həftə imtahan sessiyası) ibarətdir. Qiyabi təhsil forması üzrə isə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən (o cümlədən 1 həftə imtahan sessiyası) ibarətdir və hər semestrə 24 kredit müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili"

qaydalarının “3.4. Yay semestrinin təşkili” bölməsinin tələblərinə uyğun olaraq hər tədris ilinin sonunda (bir qayda olaraq, iyul-avqust aylarında) 6 həftədən ibarət yay semestri təşkil edilir.

İmtahanların keçirilmə qaydaları və formaları normativ hüquqi aktların tələblərinə uyğun (Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi” haqqında Əsasnamə) təşkil olunur. Ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramlarının təhsilalanlar tərəfindən mənimsənilmə səviyyəsi və keyfiyyəti müvafiq qaydalar əsasında cari, aralıq və dövlət attestasiyası zamanı müəyyənləşdirilir. Təhsilalanların cari, aralıq və dövlət attestasiyası zamanı biliyinin qiymətləndirilməsi AKTTS-nə uyğun olaraq 100 ballı sistemlə həyata keçirilir. Tələbələrin müraciətləri əsasında və normativ tələblər çərçivəsində yay semestri təşkili olunur.

Digər məsələləri də nəzərə almaqla tədris planlarının ixtisasın təhsil proqramlarının tələblərinə uyğunluğu, tədris prosesi və imtahanların normativ hüquqi aktların tələblərinə uyğun təşkil olunmasına təm əməl olunmuşdur.

Yekun Dövlət Attestasiyanın təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın və Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”nin tələbləri çərçivəsində həyata keçirilir. Buraxılış işlərinin hazırlanması və müdafiəsinin təşkili müvafiq təlimata uyğun normativ tələbləri gözləməklə aparılır.

Pandemiya dövrünün tələblərinə uyğun 2021-ci ildə Yekun dövlət attestasiyası “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 iyun 2021-ci il tarixli 158 №-li Qərarına əsasən Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə (ÜOMG) əsasən keçirilmişdir. Lakin, öz istəyi ilə ÜOMG-si 81 baldan yüksək olan bəzi tələbələrimiz buraxılış işlərini hazırlamış və müdafiə etmişlər.

Fənlərin təlim nəticələri fənn sillabuslarında göstərilir və buna rəhbərlik, dekanlıqlar, kafedralar və KTÖM tərəfindən nəzarət olunur.

Tədris planlarında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi tam təmin edilmişdir.

Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planları mövcuddur.

İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar üzrə illik işçi tədris planları hazırlanmış və müvafiq qaydada təsdiq olunmuşdur.

Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planları hazırlanmış, müvafiq qaydada rəsmiləşdirilmişdir. Dərs yükünün bölünməsində auditoriya və auditoriyadan kənar saatlarının uyğun olaraq 60/40 nisbəti gözlənilir.

Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsinə nəzarət olunur. Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyətini yoxlamaq üçün açıq dərslər təşkil olunur, müvafiq qaydada müzakirə olunur və istiqamətverici tədbirlər həyata keçirilir.

Fənlərin daha dərindən mənimsənilməsini məsləhət saatları təşkili edilir və müəllimlərin dərs yüklərində nəzərə alınır. Eyni zamanda təhsilalanlar tədris prosesinin təşkilinə dair tyutor məsləhət xidmətindən də yararlanırlar.

Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işlərinin hazırlanması təşkil edilir. Sərbəst işlərin mövzuları fənnin sillabusunda göstərilir, işlərin yerinə yetirilməsi üçün lazım olan metodiki mənbələr və materiallar fənnin elektron səhifəsində yerləşdirilir.

Təcrübələr normativ-hüquqi tələblərə uyğun rəsmiləşdirilir və müvafiq olaraq 14 həftə (21 kredit) ixtisaslar üzrə müvafiq istehsalat müəssisələrində təşkil edilir, təcrübə dövründə əsasən tələbələrin buraxılış işlərinin mövzuları üzrə məlumatların əldə olunması və ixtisasın peşə hazırlığı istiqamətində praktiki biliklərin mənimsənilməsi məsələlərinə ciddi əməl olunur. Təcrübə keçən bütün tələbələrin gündəliyinin qeydiyyatı və hər qrup üçün davamiyyət jurnallarının qeydiyyatı Elektron təhsil sistemində aparılmışdır. Yekunda hər bir tələbə təcrübə zamanı gördüyü işlər haqqında hesabat hazırlamış və Elektron təhsil sisteminə

yüklənmişdir. Təcrübə planının yerinə yetirilməsi səviyyəsi, davamiyyət və hesabat nəzərə alınmaqla tələbənin təcrübəsinin nəticəsi sonuncu gün attestasiya olunmuş və nəticələr sistemə yüklənilmişdir. Ümumilikdə, təhsilalanlar 200-dən çox müəssisələrdə təcrübə keçirlər.

Stajkeçmə kursları təşkil olunur. Belə ki, bir qrup magistrantlar Türkiyə Respublikasında (Mevlana Mübadilə Proqramı), Almaniyada (Alman Akademik Mübadilə Xidməti-DAAD), digər tələbələr isə fərdi qaydada müxtəlif proqramlar çərçivəsində (Tempus, Erasmus+Mobillik Proqramı və s.) stajkeçmə kurslarına cəlb olunmuşlar.

Kurs layihəsi (işi) və referatların hazırlanması və müdafiəsi müvafiq kafedralarda təşkil olunur. Tapşırıqlar üzrə mövzular müəyyən edilir, məsləhət saatları təşkil olunur və fənn müəllimlərinin rəyi əsasında tələbələr müdafiəyə təqdim edilirlər. Müdafiə olunmuş işlər qeydiyyata alınır, kafedralarda normativ müddətdə saxlanılması üçün qəbul olunur.

Tədris illəri üzrə kredit borcu yaranmış tələbələrin və fənlərin toplam sayına görə azalan dinamika müşahidə olunur (baxmalı: hesabata əlavə olunan 5 saylı "Kredit borcları, bərpa və xaric olunma" adlı Excel cədvəli).

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyi müvafiq dekanlıq və kafedralar tərəfindən izlənilir və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülür.

*3.4. Tədris metodları və üsulları*

Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə edilir. Belə ki, mühazirələr Microsoft PowerPoint proqram təminatında elektron təqdimat formasında tədris olunur. AzTU üzrə təqdimatların müasir tələblərə cavab verən vahid forması hazırlanmış və 2021-2022-ci tədris ilindən başlayaraq tətbiq olunmuşdur. Bunun üçün dəfələrlə professor-müəlim heyəti və əməkdaşlar üçün təlimlər təşkil edilmişdir və bu proses mütəmadi olaraq davam etdirilir.

Elektron təqdimatlar formasında hazırlanmış mühazirə dərsləri, müasir avtomatlaşdırılmış layihələndirmə üsulları, proqramlaşdırma və avtomatlaşdırmaya dair məşğələ dərsləri interaktiv lövhələrlə təmin olunmuş, müvafiq proqram paketləri yüklənilmiş kompüter siniflərində, tətbiqi məşğələ dərsləri isə xüsusi avadanlıqlarla təchiz olunmuş laboratoriya otaqlarında tədris olunur. Maşın dizaynı,

konstruksiya etmə, müasir metroloji üsullar, avtomatlaşdırılmış texnoloji komplekslərə dair dərslər xüsusiləşdirilmiş auditoriyalarda həyata keçirilir. Əlavə olaraq mühəndis hazırlığı üçün müasir zəruri hazırlıq tələb edən kurslar üçün də xüsusi auditoriyalar təşkil olunmuşdur.

Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edilir. Belə ki, təhsilalanların fərdi tapşırıqları və buraxılış işlərinin mövzuları əsasən istehsalat sahəsindən götürülür. Tədris prosesində ixtisas fənlərinin bəzi mövzuları xüsusi proqram təminatının əsasında nəzəri biliklərə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə etməklə tədris olunur.

Bütün təhsil formalarında təhsilalanların bilik və peşə hazırlığı səviyyəsinin artırılması, təhsil prosesinin səmərəliyinin yüksəldilməsi məqsədilə tədris prosesində bir sıra metodlardan istifadə olunur. Mühazirə dərslərinin təşkilində əsasən passiv metoddan istifadə edilir. Praktiki məşğələ dərslərində isə aktiv və interaktiv təlim metodlarının müxtəlif növləri olan - konkret halların təhlili ("case study"), kiçik qruplarda (komandada) iş, beyin həmləsi, debat, diskussiya, sual-cavab, tənqidi düşüncənin inkişafı və s. kimi üsullarından istifadə edilir. Müəllim tərəfindən aktiv və interaktiv təlim metodları seçilərək mövzunun tədris proqramının və tədris-mövzu planının məqsəd və vəzifələrinə uyğunluğu; məşğələnin (mövzunun) didaktik məqsədinə uyğunluğu; dinləyicinin intellektual səviyyəsinə və s.uyğunluğu gözlənilir.

Tədris prosesində dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının kimi tədris metodlarına üstünlük verilir.

"Xarici dildə işgüzar və akademik kommunikasiya" fənninin tədrisində tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodları və üsulları tətbiq edilir.

Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi təmin edilmişdir. Belə ki, fənlərin mühazirə dərsləri elektron təqdimat formasında tədris olunur, bir sıra fənlərin tədrisində isə virtual laboratoiyalardan, məs.: Almaniyanın "KELLER proqram təminatı" istifadə olunur.

Yeni təlim və tədris metodlarının və interaktiv öyrənmənin tətbiq olunması təşviq edilir və bununla bağlı bir sıra tapşırıqlar verilmişdir.

Tədris metod və üsullarının universitet rəhbərliyi, Keyfiyyətin təminatı və Öyrənmə-öyrətmə Mərkəzi, Tədris hissəsi, fakültə dekanlıqları tərəfindən dövrü

monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi işləri görülür. Bunun üçün sorğular keçirilir və sorğuların nəticələri təhlil olunur.

### 3.5. *Təlim və tədris resursları*

Universitetdə öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sistemi (KOİCA) yaradılmışdır və mütəmadi olaraq təkmilləşdirilməklə, hal-hazırda da istismar olunur.

Auditoriyalar müasir təlim prosesini aparmaq üçün texnika (proyektor, kompüter, ağıllı lövhələr və s) ilə təchiz olunmuşdur.

Tam funksional elektron tədris platforması və elektron jurnal tələbələrin təlim prosesində iştirakını/aktivliyini qeydiyyata almağa imkan verir. Tələbələrin qeydiyyatı (davamiyyəti) Elektron təhsil sistemində (KOİCA) aparılır.

Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlər və texniki təminat təhsil proqramlarına uyğundur. Tədrisin təşkili prosesində elektron dərs resurslarından daha çox istifadə olunur. Müəllimlər tərəfindən hazırlanmış elektron təhsil (e-Learning) resursları bazasının tədris prosesinə inteqrasiyası məqsədilə tədris otaqlarının informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminatının yaxşılaşdırılması istiqamətində əsaslı işlər görülmüşdür.

Tələbələrin İKT üzrə savadlılığının artırılmasını təmin etmək, ümumi porifilli və ixtisaslaşdırılmış proqram təminatları ilə (Excel, Word, Power Point, Photoshop, Auto CAD, Solid Works və ya analitik proqramlardan hər hansı biri ilə (SPSS, Stata, Python kimi proqramlarla) işləmək, sadə analizləri etmək bacarıqlarını formalaşdırmaq məqsədilə internetə qoşulmuş kompüterlər və kompüter laboratoriyaları mövcuddur. Bu illər ərzində 1943 internetə qoşulmuş kompüter mövcud olmuşdur. Son illərdə 12 ən yeni avadanlıqlarla təchiz olunmuş kompüter laboratoriyaları mövcuddur.

Universitetin 63 mühazirə, 106 məşğələ, 90 tədris laboratoriyaları olmaqla cəmi 259 auditoriya mövcuddur və auditoriya fondunun (11617 kv.m.) onun tələbə sayına uyğunluğu tam təmin edilmişdir.

Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun elektron məlumat bazası yaradılmış və xüsusi təyinatlı yeni auditoriyalar

yaradılmışdır. Akademik heyətin fəaliyyəti üçün 109 otaq, inzibati heyətin fəaliyyəti üçün 95 otaq mövcuddur.

Kitabxana 2015-2016-cı illərdə 1 abunəliyə – Thomson Reuters, 2016-2017-ci illərdə 1 abunəliyə – Thomson Reuters, 2017-2018-ci illərdə 1 abunəliyə – Thomson Reuters, 2018-2019-cü illərdə 1 abunəliyə – Clavirate Analytics, 2019-2020-ci illərdə 1 abunəliyə – Clavirate Analytics, 2020-2021-ci illərdə 1 abunəliyə – Clavirate Analytics, 2021-2022-ci illər ərzində isə - 2 abunəliyə – Clavirate Analytics və EBSCO (sınaq) kimi elektron bazalara abunə olmuşdur.

EBSCO (3 aylıq sınaq) elektron məlumat bazasından 2021-2022-ci illər ərzində "eBook Collection" üzrə 83 Sadə axtarış, 40 Tammətn və 31 Abstrakt sorğusu istifadəçilər tərəfindən verilmişdir. "eBook academic Collection" üzrə 34 Sadə axtarış, 2 Tammətn sorğusu və 3 Abstrakt sorğusu istifadəçilər tərəfindən verilmişdir.

EBSCO – KİM 2022-ci ildə EBSCO verilənlər bazasının "eBook Collection (EBSCOhost)" və "eBook Academic Collection" adlı 2 kolleksiyasına 3 aylıq (1 May – 31 İyul, 2022-ci il) sınaq istifadə imkanı əldə etmişdir. Bu baza istifadəçilərə aşağıdakı elm sahələri üzrə axtarış imkanı təqdim edir:

- Biznes
- İqtisadiyyat
- Texnologiya
- İnformasiya texnologiyaları
- Fizika
- Astronomiya
- Kimya
- Materialşünaslıq və s.

Belə ki, istifadəsinə icazə verilən bu resurslar "Oxford Press", "New York University" "Harvard University Press", "Cambridge University Press" kimi universitet nəşriyyatlarının, həmçinin "Elsevier", "De Gruyter", "Sage", "Wiley" kimi dünyaca tanınmış akademik nəşriyyatların resurslarıdır.

Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanları artmışdır.

Akkreditasiya olunan 2015/2016-2021/2022-ci tədris illəri üzrə kitabxana fonduna daxil olan nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) sayı artmışdır.

2015-2016-cı illər arasında ümumi kitabxana fondunda (eyni zamanda kağız format) 459529 nüsxə, 2016-2017-ci ildə 460647, 2017-2018-ci illərdə 461658, 2018-2019-cu illərdə 463096, 2019-2020-ci illərdə 464671, 2020-2021-ci illərdə 466392, 2021-2022-ci illərdə isə 468321 nüsxədə ədəbiyyat mövcud olmuşdur.
Ümumi fondun 2015-2016-cı illərdə 208764 nüsxəsi, 2016-2017-ci illərdə 209178 nüsxəsi, 2017-2018-ci illərdə 205356 nüsxəsi, 2018-2019-cü illərdə 205673 nüsxəsi, 2019-2020-ci illərdə 206155 nüsxəsi, 2020-2021-ci illərdə 206436 nüsxəsi, 2021-2022-ci illərdə isə 206753 nüsxəsi dərslikləri əhatə etmişdir.
Fondda yerləşən ədəbiyyatın 2015-2016-cı illərdə 2540 ingilis/348464 rus, 2016-2017-ci illərdə 2550 ingilis/348573 rus, 2017-2018-ci illərdə 2608 ingilis/349047 rus, 2018-2019-cu illərdə 2612 ingilis/349059 rus, 2019-2020-cu illərdə 2618 ingilis/345805 rus, 2020-2021-ci illərdə 2638 ingilis/345869 rus, 2021-2022-ci illər ərzində isə 3138 ingilis/345909 rus dilini əhatə edir.

Tədris dillərinə uyğun kitab fondları kitabxanada və ixtisas kafedralarında formalaşdırılmışdır və sayı əvvəlki illərə nisbətən artmışdır.



Universitet üzrə dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası mövcuddur.

Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi aparılmışdır.

Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı təmin edilmişdir. Tələbələrın təlim və tədris resurslarını əsasən elektron kabinetlərindən əldə etmək imkanı yaradılmışdır.

Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının imkanlarından istifadə edillmiş və bu işlər daha da inkişaf etdirilir. Bunun üçün əsasən elektron təhsil sisteminin imkanlarından istifadə olunur.

Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsinə xüsusi diqqət ayrılmışdır.

Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planları mövcuddur.

Universitetin poliklinikasında təhsialanlara tibbi xidmət və digər psixoloji məsləhət xidmətləri göstərilir.

*3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

Bilik və bacarıqların qiymətləndirilməsi “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə”yə uyğun aparılır və bununla bağlı prosedur qaydalar işlənilmişdir. Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlıdır.

Hər tədris ilinin müvafiq olaraq qış və yay semestrlərində universitet Elmi Şurası tərəfindən “Cari qiymətləndirmənin (kollokviumların) keçirilməsi qaydaları” və “Qış (və ya yay) imtahan sessiyasının təşkili və idarə olunması qaydaları” müzakirə olunaraq təsdiq edilir.

Qiymətləndirmədə müxtəlif formalardan (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunur.

Qiymətləndirmədə prosesində ədalətlilik, obyektivlik, şəffaflıq təmin olunmuşdur və tələbələrə verilmiş qiymətlər əsaslandırılır və tələbələrə elan edilir.

Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması üçün tələbələrə müstəqillik imkanları verilir.

Təhsilalanların bütün fəaliyyət növləri üzrə qiymətləndirmənin elektron təhsil sistemində qeydiyyatı aparılır və yekun qiymətin formalaşması avtomatik olaraq sistem tərəfindən icra olunur.

Zəruri hallarda sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə elektron sistemin üzərindən xüsusi qiymətləndirmə üsullarından istifadə edilir.

Müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq cari və aralıq qiymətləndirmə elektron qaydada şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri gözlənilməklə aparılır.

Yekun Dövlət Qiymətləndirilməsi (yekun dövlət imtahanı və/ və ya buraxılış işi) sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğun təşkil edilir və məsul şəxslər tərəfindən elektron sistemə köçürülür.

AzTU-da yekun attestasiyanın təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın və Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”nin tələbləri çərçivəsində həyata keçirilir.

AzTU-nun bakalavriat səviyyəsində 2021-ci ildə Yekun dövlət attestasiyası “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 iyun 2021-ci il tarixli 158 №-li Qərarına əsasən Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə əsasən keçirilmişdir. Lakin, öz istəyi ilə ÜOMG-si 81 baldan yüksək olan bəzi tələbələrimiz buraxılış işlərini hazırlamış və müdafiə etmişlər.

Universitet və fakültə elmi şuralarında bilik və bacarıqların qiymətləndirilməsi sistemi mütəmadi olaraq müzakirə olunur, proseslərin izlənilməsi və təkmilləşdirilməsi üzrə qərarlar qəbul olunur.

Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formada həyata keçirilir və tələbələr üçün əlçatanlıq təmin edilmişdir.

Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini müvəffəqiyyətlə bitirməyən şəxslərə müvafiq arayışın verilməsi qanunvericiliyin tələblərinə uyğun aparılır.

*3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

Akademik heyətin işə qəbulu, yüksəlişi və digər vəzifəyə təyinatla bağlı universitetdə qaydalar işlənilmişdir və şəffaf və ictimaiyyət üçün əlçatanlığı təmin edilmişdir.

Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlar işlənilmişdir. Differensial əmək haqqının təyin edilməsi üçün proqram təminatı işlənilmiş və əməkdaşlara təlimatlar keçirilmişdir.

Akademik heyətə interaktiv və aktiv tədris metodları, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər keçirilmişdir. Pandemiya dövründə əməkdaşların öz şəxsi kabinetlərindən istifadə etməklə onlayn dərsləri müxtəlif platformalar üzərindən təşkil olunmuşdur. Bunun üçün interaktiv və aktiv tədris metodları və distant təhsilin təşkilinə dair təlimlər keçirilmiş və müvafiq təlimatlar elektron qaydada əməkdaşlara təqdim edilmişdir.

Akademik heyət öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirak etmişdir. Süni intellekt, müasir avtomatlaşdırılmış layihələndirmə sistemlərinin proqram paketinin öyrənilməsi, proqramlaşdırma metodları, texniki xarici dil kursları təşkil olunmuşdur.

Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında və qrant layihələrində iştirak edirlər.

Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sistemi mövcuddur. Akademik heyətin açıq dərsləri planlaşdırılır və təyin olunmuş meyarlar üzrə onların qiymətləndirilməsi aparılır.

Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf yanaşma mövcuddur. Dərs yükünün bölünməsində professor-müəllim heyətinin dərs yükü normasının təyin edilməsində, həmçinin auditoriya və auditoriyadan kənar saatlarının nisbətinin normativ tələblərə uyğunlaşdırılmasında "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il tarixli 215 nömrəli Qərarına tam əməl olunmuşdur.

Universitet üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti **1/16** nisbətində təmin olunmuşdur.

O cümlədən, fakültələr üzrə hər 1 tələbəyə düşən professor-müəllim heyətinin sayı analiz edilmişdir:

**Nəqliyyat və logistika** fakültəsində **1144** tələbə təhsil alır və **42** müəllim fəaliyyət göstərir. Fakültə üzrə hər 10 tələbəyə düşən professor-müəllim heyətinin sayı 42/1144=**1/27,**

**Energetika və avtomatika** fakültəsində **1616** tələbə təhsil alır və **102** müəllim fəaliyyət göstərir. Fakültə üzrə hər 10 tələbəyə düşən professor-müəllim heyətinin sayı 102/1616 =**1/16,**

**Metallurgiya və materialşünaslıq** fakültəsində **648** tələbə təhsil alır və **60** müəllim fəaliyyət göstərir. Fakültə üzrə hər 10 tələbəyə düşən professor-müəllim heyətinin sayı 60/648=**1/11,**

**Maşınqayırma və robototexnika** fakültəsində təhsil alan tələbələrin sayı **1010 nəfər** təşkil edir. İxtisas kafedraları üzrə professor-müəllim heyətinin sayı isə **88 nəfər** təşkil etdiyindən uyğun olaraq orta hesabla bu göstərici 88/1010=**1/12,**

**İnformasiya və telekommunukasiya texnologiyaları** fakültəsində 10 tələbəyə düşən professor-müəllim heyətinin sayı **1/17,**

**Xüsusi texnika və texnologiyalar** fakültəsində hər tədris ilində orta hesabla **450** nəfərə yaxın tələbə tədris alır. Hal-hazırda fakültədə çalışan professor-müəllim heyətinin sayı 28 nəfərdir. Fakültə üzrə hər 10 tələbəyə düşən professor-müəllim heyətinin sayı 28/450=**1/16 səviyyəsində** və

**İqtisadiyyat və idarəetmə** fakültəsində 2016/17 tədris ilində fakültədə təhsil alan tələbə sayı **592** nəfər olmuşdur. Müvafiq göstərici 5 tədris ili ərzində 10 faiz artaraq 2020/21 tədris ilində **692** nəfərə çatmışdır. Fakültə üzrə 2016/17 tədris ilində 1 professor-müəllim heyətinə düşən tələbə sayı **15**, 2020/2021-ci tədris ilində isə artaraq **18** tələbə olmuşdur.

Cari tədris ilində AzTU-da fəaliyyət göstərən **22** kafedrada çalışan professor-müəllim heyətinin ümumi sayı **545** nəfər təşkil edir, o cümlədən **69** nəfəri və ya **12.66%**-i elmlər doktoru və professorlardır.

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 80 faizindən çoxunun əsas iş yeri universitetdir.

Kənardan cəlb edilən professor-müəllim heyətinə tələbat vardır. Xüsusən də müasir istiqamətlər üzrə gənc kadrların, eləcə də SABAH qruplarında müsabiqə yolu ilə əvəzçiliklə xaricdən müəllimlərin cəlb olunmasına xüsusi önəm verilir.

Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqinə başlanılmışdır. Differensial əmək haqqının təyin

edilməsi üçün AMAS proqram təminatı işlənilmiş və əməkdaşlara təlimatlar keçirilmişdir.

Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyəti mövcuddur.

Xarici ölkələrdə təhsil almış müəllimlərimizin sayı 49 nəfərdir. Bu göstərici fakültə üzrə 8,99% təşkil etmişdir. Lakin, xarici dövlətlərdə əməkdaşlıq çərçivəsində mübadilə proqramlarında iştirak edən müəllimləri nəzərə alsaq bu göstərici 15%-ə təşkil edir.

*3.8. Tələbəyönümlü tədris*

Tələbələrin tədris prosesində fəal iştirakını təşviq etmək və təhsil alan şəxslərlə müəllim arasında münasibətlərinin qarşılıqlı hörmət əsasında qurulması və tələbələrin şikayətlərinə baxılması üçün müvafiq prosedurlar (Müəllimlər və tələbələr üçün Etik davranış kodeksi ) yaradılmışdır. Təhsil proqramı və hədəflənən kompetensiyalarla bağlı məlumatlar tələbələrlə paylaşılır və müzakirə olunur. Müəllimlər tələbələrin tədris prosesində fəal iştirak etməsi üçün tələbələri istiqamətləndirir, aralıq və cari qiymətləndirmə meyarları və metodu öncədən çatdırılır, tələbələr bu barədə məlumatlı olurlar.

Akkreditasiya aparılan dövrdə unversitetdə gənc müəllimlərin sayının illər üzrə dinamikası növbəti qrafikdə verilmişdir.



Etik Davranış Məcəlləsi AzTU Elmi Şurasının 17 iyun 2020-ci il tarixli 10 saylı qərarı ilə təsdiq edilmişdir. 05 may 2021-ci il tarixli 79-müx saylı Etik Davranış məcəlləsinin tətbiq edilməsi haqqında əmr imzalanmışdır.

AzTU-da həmçinin AzTU Elmi Şurasının 29 sentyabr 2021-ci il tarixli 01 saylı protokolu ilə "Azərbaycan Texniki Universitetində Elmi Etika və Elmi Etika Komitəsinin təşkili qaydaları" təsdiq edilmişdir.

AKTTS-nə əsasən təhsilalanlar fərdi tədris planının tərtib edilməsində akademik məsləhətçilərin (tyutorların) yaxından köməkliyi ilə bilavasitə iştirak edirlər.

Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlər üzrə tələbələrə tam seçim sərbəstliyi təmin edilir.

Akademik məsləhətçilər Bolonya prinsiplərinə uyğun olaraq təhsilverənlərin tələbələr tərəfindən seçimilməsi prosesində tam sərbəstlik təmin edirlər.

Tələbələr arasında rəy sorğuları tədris prosesinin təşkili, tədrisin keyfiyyəti, elmi-tədqiqat işlərinə tələbələrin marağı və elmi ideya bazası üçün müstəqil təklifləri, tələbələrin sosial məsələləri və istəkləri istiqamətlərində aparılmışdır və nəticələri təhlil edilmişdir. Uiversiteti rəsmi iteret səhifəsidə sosial mediada mütəmmadi olaraq paylaşılır

Universitetdə tələbə və məzunların təklifləri əsasında qərarlar qəbul edilir. Bu təkliflər əsasən əmək bazarının tələblərinə uyğun tədrisin və imtahan sessiyasının təşkili və qiymətləndirmə metodlarının tətbiqi, müxtəlif layihələrdə iştirak kimi məsələləri əhatə etmişdir.

Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə prosesində istifadə edilməsi təmin edilmişdir.

Təhsilalanların şikayət və/və ya təklifləri üçün şərait yaradılmışdır. Bunun üçün tələbələrin rəhbərlik və dekanlarla görüşlərinə şərait yaradılmış, şikayət və təkliflər üçün universitetin binasında qutular yerləşdirilmiş və anonim sorğular təşkil edilmişdir. Həmçinin elektron təhsil sistemində (KOİCA) tələbələrin fənn müəllimlərini qiymətləndirməsi mexanizmi mövcuddur. Bu statistik araşdırmaların nəticələri növbəti tədris ili üçün kafedralarda dərs yüklərinin bölünməsi zamanı nəzərə alınır.

Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilər cəlb olunmuşlar. Onlar müvafiq ixtisaslar üzrə magistratura səviyyəsində təhsil almış və ya təhsillərini davam etdirirlər. Tyutor xidmətinin səmərəliliyinin artırılması məqsədilə onlar üçün əlavə təlimlər keçirilmişdir. Karyera Mərkəzi tərəfindən təhsilin magistratura səviyyəsini bitirmiş və ya magistraturada təhsil alanların iştirakı ilə tyutor hazırlığı kursları təşkil edilir. Bu kursları müvəffəqiyyətlə bitirənlər içərisindən müsabiqə yolu ilə tyutorlar seçilərək işə qəbul olunurlar. Qeyd edək ki, proses 2022/2023-cü tədris ilindən etibarən Keyfiyyətin Təminatı və Öyrənmə-öyrətmə Mərkəzi tərəfindən həyata keçirilir.

Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiya təşkil olunmuşdur.

Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarları tədris prosesində nəzərə alınmışdır. Zəruri hallarda elektron sistemin imkanlarından istifadə olunur.

Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı müvafiq normativ tələblər çərçivəsində təmin edilmişdir. Bu qrup tələbələrin Tələbə Təhsil Krediti sistemindən səmərəli istifadə etmələri üçün fakültə dekanlıqları, Yüksək Təhsil İnstitutu, Tədris hissəsi və Mühasibatlıqda məsləhətçi-məsul şəxslər təyin edilmişdir.

Təhsilalanlara universitet tərəfindən təqaüd alma imkanları qanuna müvafiq qaydada təmin edilmişdir.

“Doktorantlara, ali təhsil, orta ixtisas vəpeşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 fevral 2016-cı il tarixli 38 saylı qərarına əsasən həmin müddətdən Universitetdə Təqaüd Komissiyası fəaliyyət göstərir. Təqaüd yerlərinin sayı universitetdə dövlət sifarişi ilə təhsil alan tələbə sayı və hər semestr rəhbər orqanlar tərəfindən müəyyən edilən əlavə təqaüd yerlərinin cəmi miqradında müəyyən edilir. İmtahan sessiyasından sonra fakültə dekanlıqları tələbələrin həmin semestr üçün ÜOMG-ni hesablayaraq, tələbələrə elan edir və dekanlığın qarşısında lövhələrdə paylaşır.

*3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

Təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət planı mövcuddur. İxtisaslar üzrə təhsil proqramlarının məzmunu və mənimsənilmə səviyyəsi təhsilin nəticələrinə görə təhlil olunur, təhsilalanların hansı təhsil proqramlarına üstünlük verməsi izlənilir.

Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət olunur. Təlim nəticələrinə dair hesabatlar hazırlanır və təhlil olunur.

Təhsil proqramlarının monitorinqi nəticəsində daha üstün təlim metodlarının seçilməsi, məzmun baxımından bir sıra fənlərin (peşə hazırlığının seçmə fənləri) yenisi ilə əvəz olunması, qiymətləndirmə meyarlarına yenidən baxılması və s. kimi tədbirlər görülmüşdür. İxtisasların təhsil proqramları üzrə təklif olunan seçmə fənlər əmək bazarının tələblərini və informasiya texnologiyalarının müasir imkanlarının tətbiqini nəzərə almaqla ixtisasların peşə hazırlığının əsaslarını təşkil edir və burada əsas məqsəd təlim nəticələrinin əldə olunmasını təmin etməkdən ibarətdir. Əsasən ABŞ, Almaniya, Rusiya, Türkiyə və digər ölkələrin aparıcı universitetlərinin ali təhsil müəssisələrində tədris olunan fənlərə ətraflı şəkildə baxılmış və bunun əsasında seçmə fənlərin uyğunluğu təmin olunmuşdur.

Bu fənlər, yəni "Ali Təhsil Müəssisələr tərəfindən müəyyən edilən fənlər" (İxtisasın (proqramın) peşə hazırlığının seçmə fənləri) – cəmi 60 kredit, sonuncu dəfə 2022-ci ilin may ayında universitet Elmi Şurası tərəfindən təsdiq edilmişdir.

Təhsil proqramları üzrə hazırlığın illik özünüqiymətləndirmə hesabatları hazırlanır və fakültə, həmçinin universitet və fakültə Elmi Şuralarında müzakirə olunaraq təhlil edilir və müvafiq qaydada qiymətləndirilir.

Universitetdə tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğun, 2020-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli 45 saylı qərarına əsasən təsdiq edilmiş ixtisasların (proqramların) təsnifatına uyğun qaydada hazırlanaraq rəsmiləşdirilmişdir.

*3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

Akkreditasiya olunan 2015/2016-2020/2021-ci tədris illərində Tədris hissəsinin tərkibində "Təcrübə şöbəsi və karyera mərkəzi", 2021/2022-ci tədris ilindən isə yeni yaradılan "Karyera və məşğulluq mərkəzi" müstəqil qurum kimi fəaliyyət göstərir. Qrumun fəaliyyət planı mütəmadi olaraq yenilənir.

“Karyera və məşğulluq Mərkəzi” universitet-məzun əlaqələrinin yaradılmasına və daha da möhkəmləndirilməsinə xidmət edir, həmçinin tələbə və məzunlara karyera məsləhət xidmətləri göstərir və məşğulluqla bağlı universitetin təhsil alan tələbələrinə və məzunlara təkliflər təqdim edir, əmək yarmarkası keçirir (sonuncu əmək yarmarkası AzTU-da 2022-ci ilin oktyabr ayında təşkil edilmişdir), təhsilalanların sərgilərdə iştirakını təşkil edir, həmçinin təhsilalanların müxtəlif proqramlar üzrə təcrübələrdə iştirakı işini təşviq edir.

Məzunların əmək bazarında məşğulluq vəziyyətinin izlənilməsi Karyera və Məşğulluq Mərkəzi tərəfindən həyata keçirilir. Bunun üçün mərkəzdə təhsilalanların və məzunların məlumat bazası hazırlanmışdır.ümumilikdə hesabat dövründə 1204 məzun işlə təmin olunmuşdur.

Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi məqsədilə təhsilalanlar arasında sorğular Karyera və Məşğulluq Mərkəzi tərəfindən təşkil olunmuşdur. 2021- 2022 -ci tədris ilində bu istiqamətdə işlər görülmüş 1 sorğu keçirilmişdir.

## 4. ELMİ TƏDQİQAT

### *4.1. Elmi-tədqiqat strategiyası*

Azərbaycan Texniki Universitetində aparılan elmi tədqiqat işlərinin, elmi-innovasiya fəaliyyətinin inkişaf strategiyası Azərbaycan Texniki Universitetinin Elmi Şurasının 24.06.2022 tarixli iclasında (protokol 10) təsdiq edilmişdir.

https://www.aztu.edu.az/az/page/normativ-senedler-148

Strategiya AzTU-nun 2020-2030-cu illəri əhatə edən ümumi inkişaf strategiyasının əsas qayəsinə, həmçinin AzTU-nun missiyasına və hədəflərinə, bu sahədə mövcud qanunvericilik, dövlət proqramları və strateji sənədlərin tələblərinə uyğun hazırlanmışdır. Strategiyada universitetin məqsədlərinə uyğun olaraq tədqiqat universitetinin yaradılması, tədqiqat potensialının artırılması, sahibkar universitet ideyasının reallaşması, universitet-sənaye əməkdaşlığının təmin olunması, texnopark və startap ekosisteminin yaradılması istiqamətində müddəalar yer almış və prioritet olaraq müəyyən edilmişdir.

Strateji hədəf və məqsədlər AzTU-nun tədqiqat fəaliyyəti, onun idarə olunması mexanizmləri, təşviqi 2030-cu ilədək nəzərdə tutulan strategiyaya uyğundur.

Elmi Şura iclaslarında və Sənaye müəsisələri ilə görüşlərdə geniş müzakirələr keçirilmişdir.

http://192.168.1.21/azp/#/azp/etc/newsView.do?deptid=0&articleid=20220929124302982109&keyword=&searchtype=
http://192.168.1.21/azp/#/azp/etc/newsView.do?deptid=0&articleid=20220928210212083527&keyword=&searchtype=
http://192.168.1.21/azp/#/azp/etc/newsView.do?deptid=0&articleid=20220826210851746658&keyword=&searchtype=
http://192.168.1.21/azp/#/azp/etc/newsView.do?deptid=0&articleid=20220621103236394474&keyword=&searchtype=
http://192.168.1.21/azp/#/azp/etc/newsView.do?deptid=0&articleid=20220318193716198521&keyword=&searchtype=
http://192.168.1.21/azp/#/azp/etc/newsView.do?deptid=0&articleid=20210806121030699307&keyword=&searchtype=

Strategiyada tədris prosesinin tədqiqatlarla üzvi şəkildə bağlılığı, praktik biliklərin verilməsinin diqqətdə saxlanılması, CDİO prinsipinə uyğun mühəndis hazırlığının təmin olunması, tədqiqatların nəticələrinin tədrisdə nəzərə alınması xüsusi qeyd edilir.

Elmi-innovasiya fəaliyyətini əks etdirən strateji sənədin yerinə yetirilməsi üçün xarici tərəfdaş universitetlərlə daim müzakirələrin aparılması və birgə layihə proqramların yerinə yetirilməsi üçün mühüm müddəalar yer almışdır. Bunun üçün Türkiyənin mühəndis universitetləri, Almaniya universitetləri ilə ciddi elmi əməkdaşlıq imkanları mövcuddur və bu istiqamət prioritet hesab edilir. Strategiyada nəzərdə tutulan müddəalar həm akademik heyətin, həm də universitetin tərəfdaşları üçün tam açıqdır və əlçatandır.

Strategiyanın hazırlanması zamanı müvafiq işçi qrup yaradılmış, universitetin müvafiq kafedra, institutlarının fikirləri alınmış, dəfələrlə elmi şura və işçi iclaslarda müzakirə edilmiş əmək bazarı və sənayenin fikirləri diqqətdə saxlanılmış, universitet-sənaye əməkdaşlığına məxsusi əhəmiyyət verilmiş, tələbələrin maraqları nəzərə alınmış, həmçinin bütün maraqlı tərəflərin iştirakına şərait yaradılmışdır.

*4.2. Tədqiqat resursları*

Hesabat dövründə AzTU–da Elm və Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilən 10 elmi tədqiqat laboratoriyası, istiqamətlər üzrə sonradan formalaşmış 7 tədqiqat institutları və müxtəlif elmi tədqiqat mərkəzləri fəaliyyət

göstərmişdir. Həmin elmi tədqiqat mərkəzlərinin maddi texnoloji resursları tədqiqat məqsədlərinə uyğun olaraq istifadə olunmuşdur.

AzTU-da professor-müəllim heyətinin sayı 2015-2016-cı tədris ilində *624* nəfər, 2016-2017- cı tədris ilində 592 nəfər, 2017-2018- cı tədris ilində 586 nəfər, 2018-2019- cu tədris ilində 604 nəfər, 2019-2020- cı tədris ilində *602* nəfər, 2020-2021- cı tədris ilində *545* nəfər, 2021-2022-cı tədris ilində 545 nəfər olmuşdur. Professor-müəllim heyəti aktiv elmi tədqiqatla işləri ilə məşğul olur.

Hesabat dövründə AzTU –da fəaliyyət göstərən elmi tədqiqat mərkəzləri və elmi tədqiqat laboratoriyalarında çalışan gənc əməkdaşlar və təhsil alan magistrantlar, doktorant və dissertantlar (2015–2016- cı tədris ilində 90 nəfər, 451 magistr, 33 doktorant -dissertant, 2016 –2017-cı tədris ilində 83 nəfər, 392 magistr, 27 doktorant- dissertant, 2017-2018–ci tədris ilində 69 nəfər, 590 magistrant, 43 doktorant-dissertant, 2018 -2019-cu tədris ilində 70 nəfər, 639 magistrant, 39 doktorant- dissertant, 2019-2020-ci tədris ilində 87 nəfər, 568 magistrant, 31 doktorant- dissertant), 2020-2021 ci tədris ilində 100 nəfər, 961 magistr, 41 doktorant- dissertant, 2021–2022-ci tədris ilində isə 119 nəfər, 1666 magistr, 27 doktorant- dissertant) aktiv şəkildə elmi tədqiqat işləri ilə məşğul olmuşlar. Gənclərin elmi tədqiqat işlərinə cəlb olunması istiqamətində işlər aparılır.

Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının təmin olunması məqsədi ilə AzTU-nun Clarivate şirkəti ilə əməkdaşlığı çərçivəsində AzTU alimlərinin "Web of Science" xidmətinə çıxışı təmin edilmişdir. Müqaviləyə əsasən Web of Science xidməti AzTU-nun professor-müəllim heyəti üçün, habelə universitetin IP-si ilə daxil olan hər bir kəs qeydiyyatdan keçmədən sərbəst şəkildə xidmətdən istifadə edə bilər. Qeydiyyatdan keçdikdən sonra isə istədiyi məkandan daxil olaraq xidmətdən istifadə edə bilər. "Web of Science" bazasından istifadəyə dair AzTU-da müxtəlif seminar və təlimlər keçirilmişdir. Həmçinin Clarivate şirkətinin mütəmadi olaraq hər kəsə açıq olan ödənişsiz vebinarları da keçirilir. Digər beynəlxalq elmmetrik baza olan Scopus-a gəlincə daha öncə universitet üçün çıxışı TKTA təmin edirdi. Daha sonra müqavilə müddəti bitdiyi üçün AzTU üçün bu çıxış bağlanmışdır. Elm və Təhsil Nazirliyi tərəfindən qeyd olunan işlərin koordinasiya olunması məqsədəuyğun hesab oluna bilər.

AzTU professor-müəllim heyətinin nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunmasını, beynəlxalq elm tutumlu nəşrlərdə nəşr aktivliyinin

yüksəldilməsini təmin etmək məqsədi ilə 2021-ci ildə Elmi Şuranın qərarı ilə “Azərbaycan Texniki Universitetinin professor-müəllim heyətinin fəaliyyətinin stimullaşdırılması sisteminin tətbiqi haqqında qaydalar“ təsdiq edilmişdir. AzTU bu məsələyə daha kompleks yanaşaraq Akademik Məlumat Axtarış Sistemi (AMAS) qurmuşdur. 2022 - ci il sentyabr ayından AMAS sistemi artıq əməkdaşlar tərəfindən aktiv istifadə olunur.

AzTU-da Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər 2015-2016-cı tədris ilində 443 834.66 manat, 2016-2017- cı tədris ilində 336 273 manat, 2017-2018- cı tədris ilində 40 000 manat, 2018-2019-cu tədris ilində 21 339 manat, 2019-2020- cı tədris ilində 230 000 manat, 2020-2021-cı tədris ilində 774 200.65 manat, 2021-2022- cı tədris ilində 750 000 manat olmuşdur. Bu göstəricilərə əsasən qeyd etmək olar ki, elmi tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər artmışdır.

Hesabat dövründə 537 müxtəlif elmi müəssisə və təşkilatlarla AzTU –nun tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcuddur.

2016-2017-ci tədris ilində Rusiyanın Cənubi Ural Dövlət Universiteti ilə birgə 1, 2017-2018-ci tədris ilində Almaniyanın Maqdeburq Universitetində 1, Rusiyanın Cənubi Ural Dövlət Universiteti ilə birgə 4, 2018-2019-cu tədris ilində Almaniyanın Münhen Texniki Universitetində 1, Rusiyanın Cənubi Ural Dövlət Universiteti ilə birgə 2, 2020-2021-ci tədris ilində Rusiyanın Cənubi Ural Dövlət Universitetinin elm adamları ilə birgə 7 elmi- tədqiqat işi həyata keçirilmişdir.

Xarkov Şəhər Təsərrüfatı Mühəndisləri Akademiyası, Poltava Texniki Universiteti və Ukraynanın digər müəssisələrində 2019-2021-ci illərdə 13 birgə elmi-tədqiqat işi aparılmışdır.

Həmçinin AzTU və Belarus Dövlət Rabitə Akademiyası arasında “Optik rabitənin kvant sistemləri” adlı Birgə Beynəlxalq Elmi Laboratoriya təşkil edilmişdir.

2018-ci ildə Azərbaycan Texniki Universiteti Türkiye Hava və Kosmos Sənayesi ilə ortaq elmi-tədqiqatların aparılması üçün əməkdaşlıq müqaviləsi imzalamış və 2022-ci ildə AzTU-nun magistr və doktorantlarının elmi-tədqiqatlarının aparılması üçün TUSAŞ–ın istehsalat və tədqiqat laboratoriyalarından istifadə etməsi üçün razılığa gəlinmişdir.

AzTU -nun Metallurgiya və materiallar texnologiyası kafedrasının elmi fəaliyyətinin daha da inkişaf etdirilməsi məqsədi ilə İzmir Yüksək Texnologiya Universiteti ilə birgə tədqiqatların aparılması layihəsi çərçivəsində İzmir Tüksək

Texnologiya Universitetinin professoru Mustafa Güden AzTU-ya ekspert-professor qismində cəlb olunmuşdur. Universitetin materialşünaslıq və metalurgiya üzrə tədqiqatların aparılmasına dəstək göstərir, seminarlar verir. Hazırda elmlər doktoru proqramı üzrə AzTU-nun 1 doktorantı İYTU-də tədqiqat işləri aparır.

AzTU hesabat dövründə Türkiyənin Ankara Universiteti, İstanbul Texniki Universiteti, Yıldız Texniki Universiteti, İzmir Yüksək Texnoloji İnstitututu, Qazi Universiteti, Yunus Emre İnstitutu, Bilkent Universiteti, Boğaziçi Universiteti, OSTİM Texniki Universiteti, Kütahya Dumlupınar Universiteti, İstanbul Universiteti, Karatay Universiteti, Orta Doğu Tekniki Universiteti, Eskişehir Texniki Universiteti, Selçuk Universiteti, Tokat Qazi Osmanpaşa Universiteti, Fırat Universiteti, İstanbul Gedik Universiteti, Hitit Universiteti, Zonguldak Bülent Ecevit Universiteti və s. kimi universitetlərlə ikitərəfli elmi-texniki əməkdaşlıq qurulmuşdur.

Tədris prosesində innovativ təlim metodların tətbiqi məqsədilə Türkiyənin Çankaya Universitetinin dekanı, Prof. Dr. Buket Akkoyunlu AzTU-ya ekspert professor olmaqla, Öyrənmə-öyrətmə metodologiyalarının inkişaf etdirilməsi ilə əlaqəli təlim və konsultasiya xidmətlərinin verilməsi məqsədi ilə əməkdaşlıq müqaviləsi bağlanmışdır. 2022-ci ildə bu müqavilə çərçivəsində həm əyani, həm də onlayn formada AzTU-nun gənc müəllimlərinə silsilə təlimlər verilmişdir.

AzTU ilə "Azerbaijan Energy Engineering and Consulting" MMC və Türkiyənin EPRA şirkəti arasında üçtərəfli anlaşma memorandumu imzalanıb. Memoranduma əsasən, tərəflər elektroenergetika sektorunda mövcud problemlərin həllinə və enerji sisteminin ehtiyaclarının ödənilməsinə yönəlmiş tədris proqramlarının hazırlanması, tədqiqat, məsləhət və texniki xidmətlərin göstərilməsi ilə bağlı universitet-sənaye işbirliyinin inkişaf etdirilməsi istiqamətində əməkdaşlıq edilir.

TUBİTAK, ASELSAN, ROKETSAN və HAVELSAN elm-istehsalat, Ar-Ge qurumları ilə ilkin görüşlər keçirilmiş, magistr və doktoroantura səviyyəsində dissertasiya mövzularının müəyyən olunması bə birgə layihələrin həyata keçirilməsi üçüm əməkdaşlıq imkanları müəyyən edilmiş, bu işlər davam etdirilməkdədir.

Türkiyə Cümhuriyəti Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) maliyyə dəstəyi, AzTU və TİKA-nın birgə təşkilatçılığı ilə AzTU-da “Cezeri Lab” laboratoriyası qurulmuş, innovsiyaların tətbiqi məqsədilə laboratoriyada lazımi tədqiqat və yaradıcılıq işləri davam etdirilir. dur. Laboratoriya CNC lazer kəsmə

avadanlığı, CNC Routerlər, 3D printerlər, Torna, Masaüstü qazma dəzgahı kimi avadanlıqlarla təchiz olunmuşdur. Həmçinin, laboratoriyanın yarandığı gündən bu günə kimi laboratoriyanın əməkdaşları tərəfindən CNC Pyroprinter avadanlığı, Mini lazer CNC avadanlığı, qələm plotter CNC avadanlığı, suyun ekoloji təmizliyi üçün süni intelekt əsaslı "freqat" robot, gözdən əlil və nitq məhdudiyyəti olan insanların rahat ünsiyyəti üçün cihaz, ağıllı çən sistemi, server otağı üçün IOT sistemi hazırlanmışdır.

Dr. R.S.Hüseynov birgə əməkdaşlıq proqramı çərçivəsində Prof. Simon ilə Frayberg Dağ Akademiyası Texniki Universitetinə səfər etmiş və Frayberq Texniki Universitetinin „Additiv hazırlanma texnologiyaları" üzrə kafedra müdiri Prof. Dr.-Ing. Henning Zeidler, Prof. Dr.-Ing. habil. Bertram Hentschel və həmyerlimiz Dr. -Ing. Rezo Əliyev ilə birlikdə Azərbaycan Texniki Universitetinin tələbələrinin və gənc tədqiqatçılarının Almaniyanın adıçəkilən universitetlərində gələcək fəaliyyətləri ilə bağlı müzakirələr aparmışlar. Eyni zamanda, Dr. R.S.Hüseynovun 2019-2020 tədris ilindən başlayaraq „Habilitation" doktorluq işinin yerinə yetirilməsi ilə əlaqədar olaraq TU Bergakademie Freiberg və BTU Cottbus Senftenberg Texniki Universitetləri ilə birgə fəaliyyəti nəzərdə tutulmuşdur.

*4.3. Elmi-tədqiqat fəaliyyəti*

Azərbaycan Texniki Universiteti tərəfindən son 7 il ərzində çoxsaylı konfranslar, elmi seminarlar görüşlər keçirilmişdir. Azərbaycan Texniki Universiteti tərəfindən 2015-2022-ci tədris illəri ərzində ümumilikdə 11 respublika və 16 beynəlxalq səviyyəli konfranslar keçirilmişdir:

1. "THERMAM 2015" "Texniki vacib materialların istilik-fiziki və mexaniki xassələri" mövzusuna həsr edilmiş IV beynəlxalq elmi konfrans (17-21 sentyabr 2015-ci il).
2. AzTU-da Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycan üçün mühəndis təhsilində tədrisin Bolonya prosesinə uyğunlaşdırılması" mövzusunda Avropa Komissiyasının "TEMPUS" Layihəsinin yekununa həsr olunmuş konfransı (23 sentyabr 2015-ci il).
3. Azərbaycan Texniki Universiteti (AzTU) ilə Almaniya Brandenburq Texniki Universitetinin (BTU) birgə təşkil etdiyi "Enerji istehsalı və effektliyi" mövzusunda Beynəlxalq elmi seminar (22 sentyabr 2015 -ci il).

4. “Maşınqayırmada intellektual texnologiyalar” mövzusunda Beynəlxalq Elmi-texniki konfrans (28-30 sentyabr 2016-cı il).
5. “İKT-nin müasir vəziyyəti və inkişafı perspektivləri” mövzusunda Beynəlxalq Elmi-texniki konfrans (23-25 noyabr 2016-cı il).
6. "Multidisipliner, Mühəndislik, Elm, Təhsil və Texnologiya" (IMESET-2017) adlı beynəlxalq konfrans (12-14- iyul 2017-ci il).
7. Maşın və Mexanizimlər elmi üzrə keçirilmiş Beynəlxalq Simpozium (ISMMS-2017) (11-14 sentyabr 2017-ci il).
8. “Metallurgiya və materialşünaslığın problemləri” mövzusunda 2-ci Beynəlxalq Elmi-texniki konfrans (28-30 noyabr 2017-ci il)
9. “Ölçmə və keyfiyyət: problemlər, perspektivlər” mövzusunda Beynəlxalq Elmi-texniki konfrans (21-23 noyabr 2018-ci il).
10. “Telekommunikasiyada innovativ texnologiyalar” mövzusunda Beynəlxalq Elmi-texniki konfrans (4-6 dekabr 2019-cü il).
11. “Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya" I Beynəlxalq elmi-praktiki konfransı (18-20 dekabr 2019 -cu il).
12. “Elektromobil və nəqliyyatda dayanıqlı enerji istifadəsi: Regional çağırışlar və imkanlar” mövzunda 5-ci beynəlxalq Avrasiya konfransı (18-19 sentyabr 2020-ci il).
13. “Təhlükəsiz infotelekommunikasiya sistemləri: nəzəriyyədən tətbiqə” beynəlxalq elmi-praktiki konfransı (8-10 dekabr 2021-ci il)
14. “Maşınqayırma və energetika: yeni konsepsiyalar və texnologiyalar” beynəlxalq elmi-praktiki konfrans (2-3 dekabr 2021-ci il)
15. “Şərq-Qərb nəqliyyat dəhlizində logistika, idarəetmə və istismar problemləri” adlı beynəlxalq konfrans (13-15 oktyabr 2021-ci il). https://science.gov.az/az/news/open/18594
16. «Mühəndislikdə Süni İntellekt və Tətbiqi Riyaziyyat» Beynəlxalq Konfrans (ICAIAME 2022) (20-22 may 2022-ci il).

Beləliklə, hesabat dövründə təşkil edilmiş nüfuzlu beynəlxalq elmi konfransların sayı üzrə göstəricini yaxşı hesab etmək olar. Bundan əlavə, hesabat dövründə universitetdə respublika səviyyəli çoxsaylı konfranslar da təşkil olunmuşdur. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə 888 digər müəssisə və 468 xarici ölkələrdən ümumilikdə 1356

tədqiqatçılar iştirak etmişdir. Konfranslarda xarici ölkələrdən iştirakçıların sayının artırılmasına ehtiyac duyulur.

AzTU hesabat dövrünü əhatə tədris illərində Elm və təhsil sahəsində 16 yerli və 8 beynəlxalq olmaqla ümumilikdə 24 qrant layihəsinin işlənilməsinə birbaşa olaraq cəlb olunmuşdur. Bunlardan 1-i Tempus proqramı, 6-sı Erasmus KA2 programı, 1-i isə UNESCO-nun İştirak proqramı çərçivəsində həyata keçirilib. Layihələr çərçivəsində elm və təhsil sahəsində müxtəlif istiqamətlər üzrə ən yaxşı Avropa təcrübəsi öyrənilmiş, elmi əməkdaşlıq sahələri müəyyən edilmiş və geniş əməkdaşlıq şəbəkəsi qurulmuşdur.

- “Gürcüstan, Azərbaycan və Moldovada turizm sənayesinin inkişafı üçün mehmanxana menecmenti üzrə bakalavr-magistr hazırlığı” Tempus LMPH layihəsi (01.05.2014 - 30.05.2017)
- “Rusiya Federasiyası, Çin və Azərbaycanda binaların enerji və ətraf mühit səmərəliliyi üzrə açıq və distant təhsil formatında peşə bakalavrı” Erasmus+ LPEB layihəsi (15.10.2015 - 14.10.2018)
- “Azərbaycanda doktorantura təhsilinin vahid Avropa Ali Təhsil Məkanının standartlarına uyğunlaşdırılması və strukturlaşdırılması” NIZAMI Erasmus+ KA2 layihəsi (01.10.2015 – 01.10.2018)
- ERASMUS+ KA2 proqramı çərçivəsində “Nəqliyyat servisi üçün böhran və risklərin mühəndisliyi” CRENG layihəsi (15.11.2018 - 15.11.2021)
- Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və risklərin idarə olunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı və magistr hazırlığı – LMQSante ERASMUS+KA2 layihəsi (15.11.2020 - 14.11.2023)
- “Azərbaycanda Rektorlar Konfransının yaradılması” – ECAR Erasmus+ layihəsi (15.01.2021 – 15.01.2024)
- “Innovativ və davamlılıq prinsipləri ilə klasterlərin inkişafında təşəbbüs və iştirak etmənin universitetlərin potensialının artırılmasında rolu” – UniClaD ERASMUS+ KA2 layihəsi (15.01.2020-14.01.2023)
- UNESCO tərəfindən maliyyələşdirilən AzTU tərəfindən icra edilən “Davamlı inkişaf üçün mühəndislik təhsilində qızların iştirakının artırılması” layihəsi, 2021-2022.

AzTU-da son dövrlərdə birgə təhsil proqramları istiqamətində uğurlu işlər həyata keçirilib və ikili diplom proqramları çərçivəsində müqavilələr imzalanıb.

Həmin proqramlar çərçivəsində müəyyən ixtisaslarda xarici uinversitetlərin tədris planları və fənləri mənimsənilib. Bu layihələr universitetə beynəlxalq birgə proqramların hazırlanması üzrə təcrübə qazandırmışdır. Eyni zamanda, müvafiq hazırlanan birgə təhsil proqramları üzrə xarici universitetlərin beynəlxalq əmək bazarına cavab verən kurikulumlarının hazırlanma metodikası və məzmunu AzTU tərəfindən mənimsənilərək bu prosesdə iştirak edən əməkdaşlara yeni bilik və bacarıqlar qazandırmışdır.

AzTU beynəlxalq qrant layihələrində aktiv iştirak edir və layihələrin məqsədlərinə uyğun olaraq universitetin kadr potensialının artırılması və təhsilin keyfiyyətinin yüksəldilməsində uğurlu nəticələr əldə edir.

Xarici dildə təhsil proqramları əvvəlki illərlə nisbətdə fərqlilik göstərsə də (hazırda 3 ingilis dilli proqram mövcuddur), bu göstərici hələ də az olduğu üçün istər əcnəbi tələbələrin qəbulu, istərsə də mübadilə proqramlarının dinamikasına mənfi təsir edir.

Mübadilə proqramları çərçivəsində müəllim və tələbələrin mobilliyi son dövrdə azalmış, səbəb isə pandemiya şəraitində həmin proqramların aktiv olmaması və sərhədlərin bağlı olması olmuşdur.

Professor-müəllim heyətinin xarici dil biliyi səviyyəsinin aşağı olması beynəlxalq əməkdaşlıqların daha da genişlənməsinə və daha çox əməkdaşın beynəlxalq proqramlardan yararlanmasına məhdudiyyət yaradır. Lakin hal-hazırda universitetdə gedən islahatlar çəçivəsində professor-müəllim heyətinin xarici dil biliklərinin inkişaf etdirilməsi kafedraların qarşısına qoyulan prioritet istiqamətlərdən biridir.

Avropa Birliyinin HORİZON proqramı beynəlxalq tədqiqatlar üçün geniş imkanları təqdim edir. Eyni zamanda Erasmus+ 2021-2027 programı üzrə qrantlar ATM-lər üçün təhsilin inkişafı və mübadilə üzrə yeni perspektivlər yaradır. Bu səbəbdən mövcud beynəlxalq proqramlar və qrantlar haqqında məlumatlar fakültə və kafedralara mütəmadi olaraq çatdırılır, təşviqat işləri aparılır. AzTU-nun özünün hazırlayıb təqdim edəcəyi layihələrin sayının artırılması və akademik heyətinin layihə yazılmasına cəlb olunması istiqamətində fəaliyyətin daha da inkişaf etdirilməsi üçün işlər görülür.

Akkreditasiya müddətində 20 yerli və 13 beynəlxalq patent alınmışdır. Ötən illərlə müqayisə nisbətən aşağı olsa da, mövcud potensialın stimullaşdırılması üçün

tədbirlər planını, əqli mülkiyyətin qeydiyyatı prosesinin stimullaşdırlması istiqamətində işlər həyata keçirilir.

AzTU-nun, 20 ölkədən olmaqla, 90-dan çox universitetlə əməkdaşlıq memorandumu, 4 ölkədən 7 universitetlə İkili diplom, 8 ölkədən 25 universitetlə Erasmus+ KA1 Mobillik proqramı çərçivəsində, Türkiyənin 23 universiteti ilə Mevlana Mübadilə Proqramı çərçivəsində müqaviləsi, eləcə də 10-dan çox beynəlxalq təşkilatla müqavilələri mövcuddur.

2019/2020-ci tədris ilində Azərbaycan Texniki Universiteti yeni nəsil mühəndis hazırlığında qabaqcıl ənənələrin daşıyıcısı olan CDİO (Öyrən-Layihələndir-Reallaşdır-İşlət) Təşəbbüsü Universitetlər Şəbəkəsinə üzvlüklə bağlı müvafiq prosedurlara başlamışdır. Qeyd edək ki, Massaçusets Texnologiya İnstitutunun (MİT) təşəbbüsü ilə yaradılan CDİO Təşəbbüsü Universitetlər Şəbəkəsinə 100-dən çox ən qabaqcıl texniki ali məktəblər daxildir. AzTU bu Təşəbbüsə ölkəmizdə və regionda bu şəbəkəyə daxil olan ilk və yeganə texniki universitet qismində 2022-ci ilin fevralında üzv qəbul olunmuşdur.

Professor-müəllim heyətinin beynəlxalq peşəkar inkişaf proqramlarında iştirakı əksər hallarda Universitetin qoşulduğu beynəlxalq qrant layihələri tərəfindən maliyyələşmiş və AzTU tərəfindən dəstəklənmişdir. Erasmus+ KA2 proqramı çərçivəsində icra edilən layihələr çərçivəsində Avropa təcrübəsinin öyrənilməsi üçün müxtəlif vaxtlarda təlimlər təşkil edilmişdir. Nizami layihəsi çərçivəsində 5-dən çox təlim və seminarda 7, LPEB layihəsi çərçivəsində 5 beynəlxalq təlimdə 7, CRENG layihəsi çərçivəsində Avropada keçirilən 3 beynəlxalq təlimdə 9 nəfər, ECAR layihəsi çərçivəsində 3 beynəlxalq təlimdə AzTU-nun 2, LMQS layihəsi üzrə 2 beynəlxalq təlimdə 5, UniClad layihəsi çərçivəsində 1 beynəlxalq təlimdə 3 əməkdaşı iştirak etmişdir.

AzTU-nun tədqiqatçı alimlərinin müxtəlif elmi şəbəkələrə çıxışı bilavasitə yüksək elmi jurnallarda dərc olunma və müxtəlif layihələrdə iştirakı vasitəsilə əldə edilir. Bu eyni zamanda Avropa İttifaqı tərəfindən maliyyələşən layihələr çərçivəsində də aparılır. Ali təhsil layihələrinin yerinə yetirilməsi zamanı da tədqiqat komponenti nəzərə alınır.

Tədqiqat işlərinin nəticələrinin tədris metodiki vasitələrdə istifadəsi qismən nəzərə alınır. Belə ki, dissertasiyanın nəticələrinin tədris prosesində istifadəsi üçün müvafiq strukturların - kafedra, fakültələrin uyğun mütəxəssislərinin tövsiyəsi ilə qərar qəbul edilir. Professor-müəlim heyətinin tədqiqatlarının metodoloji prinsipləri

tədris zamanı nəzərə alınır. Bu sayca çox olmasa da belə ənənələr və praktika mövcuddur.

Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikasına nəzər yetirsək, 2015/2016 cı tədris ilindən 2019/2020 ci tədris ilinədək artım müşahidə olunur. Növbəti tədris illərində Covid -19 virusu ilə bağlı pandemiya dövrünü və ondan sonrakı dövrü əhatə etdiyi üçün azalma müşahidə olunur. Universitetin strategiyasında nəzərdə tutulan məsələləri nəzərə alaraq, yaxın illərdə bu sahədə artımın olması gözlənilir.

| Tədris illəri | Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası |
|---|---|
| 2015/2016 | 132 |
| 2016/2017 | 114 |
| 2017/2018 | 139 |
| 2018/2019 | 130 |
| 2019/2020 | 158 |
| 2020/2021 | 140 |
| 2021/2022 | 53 |

AzTU-da tədqiqat yönümlü fənlərin magistratura səviyyəsində artırılması və dissertasiyaların yerinə yetirilməsini dəstəkləmək məqsədilə tədris planları yenilənmişdir və hazırda həmin planlar üzrə tədris aparılır. Dissertasiya mövzularının müəyyən edilməsi konkret sənayedə olan problemlər üzərində qurulur.

Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün AzTU-da “İnnovativ öyrənmə-öyrətmə yanaşmaları- 1” mövzusunda təlim keçirilir. Türkiyəli mütəxəssislər professor Buket Akkoyunlu və dosent Salih Bardakçı tərəfindən aparılan təlimlərdə AzTU-nun 40-a yaxın professor-müəllim heyəti iştirak etmişdir.

AzTU ilə Azərbaycan Layihələrin İdarəedilməsi Assosiasiyasının (AzPMA) əməkdaşlığı çərçivəsində təşkil edilən “Layihələrin idarə olunması” mövzusında təlimlər 3 istiqamətdə ("Ali təhsil müəssisələrində layihələrin idarəedilməsini

sistemləşdirmək və effektivliyi artırmaq", "Ali təhsil müəssisələrinin tələbələrinin layihə menecmentinə maraqlarını stimullaşdırmaq və onları beynəlxalq bilik və təcrübə mübadiləsi sisteminə inteqrasiya etmək”, "Ali təhsil müəssisələrində layihə menecmenti kursunun müasir tələblərə uyğun olaraq keyfiyyətini artırmaq") təşkil edilib. BP-nin maliyyə dəstəyi və AzPMA-nın təşkilatçılığı ilə təşkil edilən təlimlərin sonunda AzTU-nun müxtəlif fakültələrində təhsil alan 7 tələbə "IPMA Level D" beynəlxalq sertifikatını alıb.

2015-2022-ci illər üzrə 237 nəfər davam edən doktorant və ya dissertant təhsil alır, və hazırda daimi ştatda pedaqoji və elmi-tədqiqat fəaliyyətinə cəlb olunub. Doktorantlardan 117 nəfəri müvafiq kafedralarda fəaliyyət göstərir.

Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi vəziyyəti orta hesabla (10-11) % ətrafında olmuşdur.

| ***İllər*** | ***2015*** | ***2016*** | ***2017*** | ***2018*** | ***2019*** | ***2020*** | ***2021*** |
|---|---|---|---|---|---|---|---|
| ***Professor müəllim heyətinin ümumi sayı*** | *624* | *592* | *586* | *604* | *602* | *545* | *545* |
| ***Elmlər doktoru*** | *80* | *77* | *82* | *80* | *76* | *69* | *68* |
| ***Professor*** | *70* | *65* | *72* | *70* | *67* | *57* | *55* |
| **Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti** | 11,2 | 11,0 | 12,3 | 11,6 | 11,1 | 10,5 | 10,1 |

Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti cədvəl şəklində təqdim olunur. Verilmiş məlumatlar analiz olunaraq bu nisbətin hesabat dövrü ilə eyni olması müşahidə olunmuşdur.

| ***İllər*** | ***2015*** | ***2016*** | ***2017*** | ***2018*** | ***2019*** | ***2020*** | ***2021*** |
|---|---|---|---|---|---|---|---|

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***Professor müəllim heyətinin ümumi sayı*** | *624* | *592* | *586* | *604* | *602* | *545* | *545* |
| ***Elmi dərəcəsi olan əməkdaşların sayı*** | *392* | *367* | *371* | *370* | *365* | *343* | *331* |
| ***Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti*** | *0,63* | *0,62* | *0,63* | *0,61* | *0,61* | *0,63* | *0,61* |

AzTU-da fəaliyyət göstərən 4 Dissertasiya Şurasında 11 ixtisas üzrə elmi kadr hazırlığı həyata keçirilir. İxtisasların hamısı AzTU-nun mütəxəssi hazırlığına tam uyğundur. Eyni zamanda elmi dərəcələrin verilməsi AzTU-nun elmi-tədqiqat istiqamətlərinə və bu sahədə qarşıya qoyduğu hədəflərə tam uyğundur.

AzTU Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi məsələsinə daha kompleks yanaşaraq Akademik Məlumat Axtarış Sistemi 2022 –ci il sentyabr ayından artıq istifadəyə vermişdir. Bu sistem vasitəsilə universitetin hər bir müəlliminin elmi tədqiqat fəaliyyətinin monitorinqini aparmaq mümkündür. Tərtib edilən siyahı vasitəsilə professor-müəllim heyətinin qiymətləndirilmə prosesi aparıla bilir. Hazırda həmin sistemin istifadəsinə aktiv olaraq başlanılmışdır.

Hesabat dövründə 6 dissertasiya şurası fəaliyyət göstərmişdir. D.02.031 Dissertasiya Şurasında 3 ixtisas üzrə, D.02.171 Dissertasiya Şurasında 3 ixtisas üzrə, ED 2.09 Dissertasiya Şurasında 4 ixtisas üzrə 24 professor və müəllim heyəti, ED 2.32 Dissertasiya Şurasında 3 ixtisas üzrə 21 professor və müəllim heyəti, ED 2.38 Dissertasiya Şurasında 3 ixtisas üzrə, ED 2.41 Dissertasiya Şurasında 3 ixtisas üzrə 20 professor və müəllim heyəti müdafiələr təşkil olunmuşdur. AzTU nəzdində fəaliyyət göstərən Dissertasiya şuralarının və ixtisaslarının hamısı universitetin tədqiqat istiqamətlərinə, profilinə uyğundur.

*4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

Azərbaycan Texniki Universiteti müəllif hüquqlarının qorunması və sistemli təşkili üçün 2015-ci ildən Polşa şirkəti olan Plagiat.pl MMC ilə əməkdaşlıq müqaviləsi bağlayıb və bu günədək əməkdaşlığı davam etdirir. Plagiat.pl MMC-nin təklif etdiyi “Strikeplagiarism” proqram təminatı ilə Azərbaycan Texniki

Universitetində yerinə yetirilən elmi işlərin və tədris vəsaitlərinin orjinallığının təmin edilməsi və onların hazırlanmasında elmi plagiat hallarının qarşısının alınması prosedurları müəyyən edilir.

Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması məqsədi ilə elmi plagiat hallarına qarşı mübarizə QAYDALARI 2016-cı ildə hazırlanmış və 177 müx saylı əmrlə təsdiq edilmişdir. ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətinin tamamını əhatə edir. Bakalavr, magistr və dissertasiya işləri müdafiəyə çıxarılmağa 1 ay qalmış yoxlanılır, dərslik, dərs vəsaiti, monoqrafiya və digər elmi əsərlər, həmçinin elmi metodiki şuraya təqdimatından əvvəl plagiat yoxlanılışı edilir. İllik 500 elmi əsərin yoxlanılması prosesi həyata keçirilir.

## 5. İDARƏETMƏ SİSTEMİ

### *5.1. İdarəetmə orqanları*

AzTU-nun idarə edilməsi ilə bağlı məsələlər AzTU-nun Nizamnaməsinin 5-ci bəndinə əsasən tənzimlənir.

AzTU-nun nizamnaməsinə əsasən onun ali idarəetmə orqanı Elmi Şuradır. AzTU-nun Elmi Şurasının yaradılması və fəaliyyəti Elm və Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli 792 nömrəli əmri ilə təsdiq olunmuş “Ali təhsil müəssisələrinin Elmi şurası haqqında Əsasnamə” və AzTU-nun nizamnaməsi ilə tənzimlənir. Elmi Şuranın tərkibi ali təhsil müəssisəsi tərəfindən Elm və Təhsil Nazirliyinin göstərişinə əsasən yaradılır və təsdiq olunur. AzTU-da Elmi Şuranın tərkibi 49 nəfər olaraq təsdiq olunmuş, hazırda 43 nəfərdən ibarətdir. Elmi Şuranın iclasları elmi şura üzvləri və müzakirə olunan məsələlərdən asılı olaraq maraqlı tərəflərin və ictimai şura üzvlərinin iştirakı ilə keçirilir.

AzTU-nun nizamnaməsinin 5.1-ci bəndinə əsasən AzTU-nun idarə olunmasında demokratikliyi və şəffaflığını və maraqlı tərəflərin iştirakını təmin etmək məqsədilə unversitedə İctimai Şura və Ağsaqqallar Şurası fəaliyyət göstərir.

AzTU-nun fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad olunan rektor rəhbərlik edir. AzTU-nun prorektorları rektorun təqdimatı əsasında Elm və Təhsil Nazirliyi tərəfindən təyin edilir.

Qeyd edək ki, AzTU-nun nizamnaməsində tədris, elm və texnika, tərbiyə, inzibati-təsərrüfat işləri, beynəlxalq əlaqələr və ümumi işlər üzrə prorektor vəzifələri əks olunmuşdur. Hesabat dövründə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 20 dekabr 2017-ci il tarixli 18-1 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın tələbləri gözlənilməklə Elm və Təhsil Nazirliyinin razılığı ilə mövcud prorektor ştatlarının bəzilərinin adı dəyişdirilmiş və yeni prorektor ştatları yaradılmışdır. Hal–hazırda AzTU-da tədris, elm və innovasiyalar, beynəlxalq əlaqələr, sosial məsələlər və ictiamiyyətlə əlaqələr, maliyyə-təsərrüfat, rəqəmsallaşma və layihələr və ümumi işlər üzrə prorektorlar fəaliyyət göstərir.

AzTU-nun tədris, elm və inzibati bölməsi olan fakültələr eyni sahə və istiqamət daxilindəki bir və ya bir-birinə yaxın olan bir neçə ixtisas üzrə bakalavr və magistr hazırlanmasını, müvafiq sahə üzrə mütəxəssislərin ixtisasının artırılması (və yenidən hazırlanmasını) işini həyata keçirir, eləcə də elmi-tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir. Fakültəyə ümumi rəhbərlik, tərkibi və səlahiyyətləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli, 794 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin fakültə Elmi Şurası haqqında Əsasnamə" ilə tənzimlənən fakültə elmi şurası tərəfindən həyata keçirilir.

Fakültəyə rəhbərlik, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları", Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın təsdiq edilməsi barədə 18-1 nömrəli 20 dekabr 2017-ci il tarixli Qərarının tələbləri gözlənilməklə bu vəzifəyə təyin edilmiş dekan tərəfindən həyata keçirilir.

AzTU-nun əsas tədris-elm struktur bölməsi olan kafedra bir və ya bir neçə yaxın fənlər üzrə tədris, metodiki, elmi-tədqiqat işlərinin yerinə yetirilməsini, elmi-pedaqoji və elmi işçilərin hazırlanmasını, yenidən hazırlanmasını, ixtisaslarının artırılmasını və tələbələr arasında tərbiyə işlərini həyata keçirir. Kafedraya Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra

müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları", Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın təsdiq edilməsi barədə 18-1 nömrəli 20 dekabr 2017-ci il tarixli Qərarının tələbləri gözlənilməklə bu vəzifəyə təyin edilmiş kafedra müdiri rəhbərlik edir.

AzTU-da elmi-pedaqoji, mühəndis-texniki, inzibati, inzibati-təsərrüfat, tədris-köməkçi və digər heyətlər üzrə vəzifələr nəzərdə tutulur. Bu vəzifələrə təyin olunma Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın təsdiq edilməsi barədə 18-1 nömrəli 20 dekabr 2017-ci il tarixli Qərarı və digər qanunvericilik aktlarının tələbləri gözlənilməklə rektor tərəfindən həyata keçirilir.

AzTU-nun Elmi Şurasında AzTU-nun Tələbə Gənclər Təşkilatının (TGT) sədri, Tələbə Rektor, AzTU-nun Tələbə Həmkarlar Təşkilatının (THT) sədri, İctimai Şuranın üzvləri təmsil olunur.

Azərbaycan Texniki Universitetində Tələbə Gənclər Təşkilatı Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının 15 fevral 2005-ci il tarixli "Azərbaycan Respublikasında bütün ali və orta ixtisas təhsil müəssisələrində gənclər və tələbələrlə işin təkmilləşdirilməsi məqsədi ilə Tələbə Gənclər Təşkilatları yaradılması haqqında" Sərəncama əsasən 2005-ci ildə təsis edilmişdir. Təşkilatın əsas məqsədi dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində tələbələrin və ayrı-ayrılıqda hər bir tələbənin maraqlarını təmsil və müdafiə etmək, respublikanın ictimai, mədəni, sosial, iqtisadi həyatında onların fəal iştirakını təmin etməkdir. Hazırda AzTU-nun Tələbə Gənclər Təşkilatının (TGT) 650 nəfər üzvü var.

AzTU-nun TGT Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGT) əsasnaməsinə uyğun fəaliyyət göstərir. ATGT-nin əsasnaməsinə uyğun olaraq TGT sədri universitet elmi şurasının, fakültə TGT sədri isə fakültə elmi şurasının üzvüdür. TGT-nin sədri tələbələrin seçkisi əsasında təyin olunur. Sədr AzTU-nun Elmi Şurasının iclaslarında mütəmadi iştirak edərək tələbələrlə bağlı məsələləri diqqətə çatdırır. Universitetin Tələbə Gənclər Təşkilatı öz fəaliyyəti barədə dövri olaraq Universitet rəhbərliyi və ATGT rəhbərliyinə hesabat verir.

AzTU-da Tələbə Rektor vəzifəsi 2019-cu ildə Elmi Şuranın qərarı ilə təsis olunmuşdur. Tələbə Rektor vəzifəsi də seçkili olmaqla tələbələr tərəfindən səsvermə ilə müəyyən olunur. Tələbə Rektor Elmi Şuranın iclaslarında iştirak edərək tələbələrlə bağlı problemləri diqqətə çatdırır və dövrü əsasda öz fəaliyyəti barədə hesabat verir.

AzTU-nun THT Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar Təşkilatının (ATİAHT) nizamnaməsinə müvafiq funksiyaları yerinə yetirir. THT-nin sədri də Elmi Şuranın iclaslarında iştirak etməklə tələbələri maraqlandıran məsələləri diqqətə çatdırır. Sədr dövri olaraq fəaliyyəti barədə Universitet rəhbərliyi və ATİAHT-nin rəhbərliyinə hesabat verir.

Universitetin ali idarəetmə orqanı olan Elmi Şurasının iclasları təsdiq olunmuş qrafikə əsasən keçirilir. Elmi Şuranın keçirilmə qrafiki hər tədris ilinin son Elmi Şurasında təsdiq olunur.

Universitetin Elmi Şurasında gündəliyə əsasən nəzərdə tutulan çıxışlar, məsələlərin müzakirə olunması və qərarların verilməsi reqlamenti proseduru mövcuddur.

Universitet rəhbərliyinin qərarları, universitetdə keçirilən tədbirlər, xüsusi günlər və elanlar və xəbərlər universitetin veb-saytında və rəsmi sosial şəbəkə hesablarında mütəmadi olaraq paylaşılır. Zəruri sənədlər (əmrlər, daxil olan məktublar, daxili yazışmalar, rəhbərliyin qərarları və s.) operativlik məqsədilə korporativ e-mail vasitəsilə aidiyyəti əməkdaşlara göndərilir.

Daxili sənəd dövriyyəsi hesabat dövründə kağız daşıyıcıda aparılmışdır, elektron sənəd dövriyyəsi vahid sistemi mövcud olmamışdır. Elektron sənəd dövriyyəsi sisteminin hazırlanması işləri davam etdirilir və 01 dekabr 2022-ci il tarixindən istifadəyə verilməsi planlaşdırılır.

İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü struktur bölmələrin əsasnamələrinə və vəzifə təlimatlarına əsasən aparılır.

AzTU-da İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsini İnsan resursları departamentinin İnsan resurslarının qiymətləndirilməsi şöbəsi həyata keçirir. Şöbə universitet əməkdaşlarının fəaliyyət səmərəliliyinə təsir edəcək amillərin müəyyənləşdirilməsi məqsədilə bütün heyət üzrə anket sorğuları aparır, bütün struktur bölmələri üzrə analizlər həyata keçirir, analizin nəticəsinə əsasən cari vəziyyəti təhlil edir və təkmilləşdirilməsi yönündə müvafiq təkliflər hazırlayır; Universitet əməkdaşlarının fəaliyyət istiqamətləri üzrə

iş təhlilləri aparır. Universitet əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi məqsədilə vəzifə funksiyaları üzrə ölçü meyarları hazırlayır və tətbiq edir; Universitet əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsində işçilərin təlim ehtiyaclarını müəyyən edir, nəticəyə əsasən təlim planlaması təklifini hazırlayır; Təlim prosesinin monitorinqini həyata keçirir və təlimlərin keyfiyyətinin qiymətləndirilməsi üzrə tədbirləri yerinə yetirir; Universitet əməkdaşlarının performans göstəricilərinə əsasən karyera planlaması prosesini təşkil edir.

İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi haqda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən ATM-də nəticəyönlü və şəffaf idarəetmə modelinin, strateji idarəetmənin tətbiqi mexanizmlərinin yaradılması, maraqlı tərəflərin (TGT, Tələbə Rektor, AzTU THİ, İctimai Şura və s.) nümayəndələrinin iştirakı, AzTU-nun idarə olunmasının davamlı təkmilləşdirilməsini şərtləndirmişdir.

*5.2 İnsan resurslarının idarə edilməsi*

Universitetdə Elmi Şura tərəfindən təsdiq edilmiş "Azərbaycan Texniki Universitetində işə qəbul və işdən azad olunma üzrə Daxili Qaydalar" mövcuddur. Qaydalar Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ aktlarına, "Azərbaycan Texniki Universitetinin Nizamnaməsi"nə və bu sahədə mövcud olan qabaqcıl beynəlxalq və yerli təcrübəyə uyğun olaraq hazırlanmışdır. Bu Qaydalar Azərbaycan Texniki Universitetinin strategiyasına əsasən mövcud olan vakant iş yerlərinə potensial namizədlərin müəyyən edilməsi, seçilməsi, yoxlanılması, işə qəbulu və işdən azad edilməsi proseslərini tənzimləyir. Universitetdə işə qəbul və işdən azad olunma proseslərində qanunauyğunluq, bərabərlik, qərəzsizlik, şəffaflıq və aşkarlıq prinsipləri rəhbər tutulur. Universitetin tələbə və məzunlarının, eyni zamanda elan olunmuş müvafiq vəzifələr üzrə müraciət edən namizədlərin tərcümeyi-hallarından (CV) təşkil olunan universitetin CV bazası mövcuddur.

Azərbaycan Texniki Universitetində seçkili vəzifələrin tutulması Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları"na və digər normativ-

hüquqi aktlara əsasən keçirilir. Seçkinin nəticələrinə uyğun olaraq, yalnız sənədləşdirmə işləri İnsan resursları ilə iş şöbəsi tərəfindən aparılır. (https://www.aztu.edu.az/az/page/normativ-senedler-148)

Strateji inkişaf planının məqsədi əsas və infrastruktur fəaliyyətin bütün növlərində maksimum nəticələrin təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, şöbələrin və əməkdaşların əlaqələndirilməsinin yüksəldilməsi, universitetin idarə edilməsi sisteminin optimallaşdırılmasıdır. Hazırda Universitetdə akademik heyət və tədris-köməkçi heyətin rəhbərlik və inzibati heyətə nizbəti 2:1 təşkil edir. Bu nisbətinin 3:1-ə çatdırılması üçün müvafiq tədbirlər planlaşdırılıb.

Universitetin Elmi Şurası 28.10.2022 tarixli iclasında inzibati və tədris-köməkçi heyətində attestasiyanın keçirilməsi barədə qərar qəbul edilmişdir və 15 dekabr 2022-ci il tarixinədək yekunlaşdırılacaqdır (Elmi Şuranın 28.10.2022 tarixli iclasının 2 saylı Protokolu).

ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sistemi mövcuddur. Mövcud əmək haqqı sisteminə işçilərin səlahiyyət həcminə, məsuliyyət dərəcəsinə, peşəkarlıq səviyyəsinə və digər keyfiyyət göstəricilərinə əsasən ildə bir dəfədən az olmayaraq yenidən baxılır və dəyişikliklər edilir.

ATM-də işçilərin kollektiv və fərdi motivasiyası və mükafatlandırılması vəzifə təlimatında nəzərdə tutulan vəzifələrin vaxtında və peşəkarlıqla yerinə yetirilməsinə, səmərələşdirici təkliflər verilməsinə, təşəbbüskarlıq göstərilməsinə, işdə yeni forma və metodların tətbiqi, gənc mütəxəssislərə lazımi köməklik göstərilməsinə, rəhbərliyin tapşırıqlarının vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə, normativ hüquqi aktların layihələrinin hazırlanmasında və qəbul edilməsində fərqlənmələrinə əsasən həyata keçirilir.

Azərbaycan Texniki Universitetində heyətin qiymətləndirilməsini İnsan resursları departamentinin İnsan resurslarının qiymətləndirilməsi şöbəsi tərəfindən həyata keçirir. Şöbə universitet əməkdaşlarının fəaliyyət səmərəliliyinə təsir edəcək amillərin müəyyənləşdirilməsi məqsədilə bütün heyət üzrə anket sorğuları aparır, bütün struktur bölmələri üzrə analizlər həyata keçirir, analizin nəticəsinə əsasən cari vəziyyəti təhlil edir və təkmilləşdirilməsi yönündə müvafiq təkliflər hazırlayır.

İnsan resurslarının qiymətləndirilməsi şöbəsi tərəfindən ildə 2 dəfə professor-müəllim heyəti üçün sorğular həyata keçirilir. Şöbə tərəfindən Google

Forumda suallar hazırlanır. Müəllimlərə aid suallar əsasən onların tədris metodları, hansı şəristələrə, bacarıqlara malik olmaları, dərsin tədrisinin necə və hansı formada aparmaları, xarici dil bilikləri, onların elmi-pedaqoji fəaliyyəti bağlı (yüksək reytinqli beynəlxalq jurnallarda çap olunan məqalələrinin, dərsliklərinin, dərs vəsaitlərinin sayı və sairə) məsələləri əhatə edir. Aparılan sorğuların nəticələri toplanır, SPS proqramında təhlil olunur, uyğun hesabat hazırlanır və rəhbərliyə təqdim olunur.

Aparılan sorğu nəticəsində müəllimlərin xarici dil biliklərinin kifayət dərəcədə olmadığı müəyyən olunmuş, buna əsasən onlar üçün xarici dil kursları təşkil edilmişdir.

Azərbaycan Texniki Universitetinin Elmi Şurasının 24 fevral 2021-ci il tarixli onlayn iclasının 9 saylı Protokoluna əsasən müəllimlərin informasiya texnologiyaları sahəsində bilik və peşə bacarıqlarının artırılması üçün qiymətləndirmənin aparılması və təlimlərin təşkili təsdiq edilmişdir.

Universitetin bütün professor-müəllim heyətinin sözügedən sahədə bilik və peşə bacarıqlarının yoxlanılması məqsədilə 44 sualdan ibarət sorğu hazırlanmışdır (https://docs.google.com/forms/d/e/1FAIpQLSewsnh-RSlciJT5NX2_Dzgoewgh0wVS0RezzL_HkxSJiUURaQ/viewform?vc=0&c=0&w=1&flr=0&gxids=7628Universitet əməkdaşlarının fəaliyyət istiqamətləri üzrə iş təhlilləri aparır. Universitet əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi məqsədilə vəzifə funksiyaları üzrə ölçü meyarları hazırlayır və tətbiq edir.

Universitet əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsində işçilərin təlim ehtiyacları müəyyən edilir, nəticəyə əsasən təlim planlaması təklifi hazırlanır. Təlim prosesinin monitorinqi həyata keçirilir və təlimlərin keyfiyyətinin qiymətləndirilməsi üzrə tədbirlər yerinə yetirilir. Universitet əməkdaşlarının preformans göstəricilərinə əsasən karyera planlaması prosesi təşkil edilir.

Universitetdə işə qəbul qaydaları Elmi Şuranın 24.02.2021-ci il tarixli qərarı ilə təsdiq edilmişdir (Protokol №1). Qeyri-akademik heyətin işə qəbul prosesində qanuna-uyğunluq, bərabərlik, qərəzsizlik, şəffaflıq və aşkarlıq prinsipləri rəhbər tutulur. Universitetdə işə qəbul komissiyası və universitetin tələbə və məzunlarının, eyni zamanda elan olunmuş müvafiq vəzifələr üzrə müraciət edən namizədlərin CV-lərindən ibarət universitetin CV bazası mövcuddur.

Universitetdə qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə bütün heyət üzrə anket sorğuları aparılır, bütün struktur bölmələri üzrə analizlər həyata keçirilir, analizin nəticəsinə əsasən cari vəziyyət təhlil olunur və fəaliyyətin təkmillləşdirilməsi yönümündə müvafiq təkliflər hazırlanır. Analiz müxtəlif təhlil metodları ilə həyata keçirilir.

Əmək və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı Azərbaycan Respublikasının Əmək Məcəlləsinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 20 dekabr 2017-ci il tarixli 18-1 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın və digər qanunvericilik aktlarının tələbləri nəzərə alınır.

*5.3.Maliyyə resurslarının idarə edilməsi*

ATM-in maliyyə resursları dövlət sifarişi ilə təhsil alanların və ödənişli əsasda təhsil alanların təhsil haqqından, elmi-tədqiqatlar layihələrindən, ianələrdən, qrantlardan  və s. formalaşır.

ATM-in maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırılması Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nəzarəti həyata keçirilir və 3 aylıq prioritet xərclərin rezervi saxlanılmaqla, 1, 3, 5 illik smetalar hazırlanaraq təqdim edilir.

Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətləri müəssisənin SİP-ə uyğun olaraq hazırlanır.

ATM-in əlavə maliyyə resursları

- Avropa Birliyinin maliyyələşdirdiyi ERASMUS + KA2 proqramı çərçivəsində ECAR layihəsi,
- LMQsante layihəsi,
- UniClaD layihəsi,
- CRANG layihəsi çərçivəsində formalaşdırılır.

AzTU-da prioritet mühəndislik ixtisasları üzrə professor-müəllim heyətinin

akademik mobilliyinin səmərəli təşkili ilə elmi potensialının gücləndirilməsi və yüksək ixtisaslı kadr hazırlığının təmin olunması mexanizminin yaradılması layihəsindən idarətdir.

Eyni zamanda yeni layihələrin əldə edilməsi üçün fəaliyyətlər davam etdirilir.

2013-cü ildən AzTU-da SERP proqramı istifadə edilir və əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsini artırmaq 2021-ci ildən UMS (University Management System) proqramının hazırlanılmasına başlanılmış və 2023-cü ildə tətbiqi planlaşdırılır. Gəlirlərin əldə edilməsi və xərclərin ödənilməsi nağdsız formada həyata keçirilir.

Maliyyə resurslarından istifadə ATM-in Nizamnaməsinə uyğundur. Gəlir və xərclərin uçotu ATM-in müvafiq struktur bölmələri tərəfindən hazırlanmış və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş smetaya uyğun olaraq aparılır.

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetası hər ilin sonunda hazırlanır, rəhbərlik tərəfindən təsdiq edilərək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilir. Ehtiyac yaranarsa il ərzində dürüstləşdirilmiş büdcə smetası hazırlanaraq təqdim edilir. Büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurları ATM-in Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

Maliyyə resurslarından təyinatı üzrə istifadəyə cari nəzarət ATM-in müvafiq strukturları tərəfindən həyata keçirilir, eyni zamanda maliyyə resurslarından təyinatı üzrə istifadəsinə dair Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə rüblük hesabatlar təqdim olunur.

ATM-də malların satın alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun təşkil edilir.

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları “Dövlət satınalmaları haqqında”, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunlarının, Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq aparılır.

ATM-də maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun olaraq hesabat dövründə tərtib olunur və aidiyyəti orqanlara (İN yanında Dövlət Vergi Xidmətinə, Statistika Komitəsinə, Elm və Təhsil Nazirliyinə və s.) təqdim

olunur.

ATM-də maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələblərinə uyğun olaraq hesabat dövründə tərtib olunur və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunur.

Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib edilir, lakin dərc olunmur.

ATM-də daxili nəzarət tədbirləri həyata keçirmək üçün dövri olaraq komissiya təşkil olunur. Həmin komissiya tərəfindən ATM-də maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə nəzarət tədbirləri həyata keçirilir.

Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar audit xidmətindən istifadə edilməmişdir.

AzTU-nun Nizamnaməsi çərçivəsində maliyyə resurslarının əldə olunması mənbələri və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi mütəmadi olaraq araşdırılır.

*5.4. İnformasiya idarəetmə sistemi*

AzTU-da bir sıra modul və proqramlardan ibarət informasiya idarəetmə sistemi mövcuddur. (Bunlardan istinadedici sənəd olaraq SINAM və HikCentral Turniket sisteminin müvafiq sənədləri təhlilə əlavə edilir.)

Bu sistemin fərqli modulları aşağıdakı kimidir:

- AzTU-da KOİCA (https://sso.aztu.edu.az saytından daxil olunur) elektron tədris sistemindən istifadə edilir.
- Onlayn imtahan sistemi
- Veb-sayt (https://www.aztu.edu.az),
- AzTU Konfrans sistemi ( https://aztuconference.aztu.edu.az/ ) istifadə edilir.
- Əcnəbi Tələbələrin müraciət sistemi,
- Rektor ilə online görüş sistemi,
- Təkrar Ali Təhsil sistemi,
- İxtisas artırma təhsilinə müraciət sistemi,
- Rektorun online qəbul sistemi,
- Magistrlərin və Bakalavrların universitetə qəbul sistemi,
- Onlayn apellyasiya sistemi

- FORSYS Əcnəbi Tələbələrin qeydiyyat sistemi (http://forsys.aztu.local)
- EduPay Tələbə təhsil haqqı ödəniş sistemi (http://edupay.aztu.local)
- İnventar proqramı (http://inventory.aztu.local)
- DrSys Doktorantura tələbələrinin qeydiyyat sistemi (http://drsys.aztu.local)
- AMAS Akademik Məlumat və Diferensial Əmək Haqqı hesablama sistemi (http://amas.aztu.edu.az)
- Kitabxana reyestr proqramı (http://reyestr.aztu.local)
- Auditoriya qeydiyyat proqramı (http://auditoriya.aztu.local)
- Maşın Jurnalı
- Turniket proqramı (http://10.0.34.27:3000/ , http://10.0.70.22)
- SSO-Single Sign On (https://sso.aztu.edu.az)
- TaskIT Helpdesk ticket proqramı (http://helpdesk.aztu.edu.az:8888)
- Ömür Boyu Təhsil tələbə qeydiyyat ve dərs idarə proqramı (http://10.0.34.27/)
- Basketbol Qeydiyyat İdarə Sistemi (http://10.0.34.27:3031/)
- TTVS tez-tez verilen suallar (http://faq.aztu.local)
- aztu.edu.az domeni üzərindən Gmail üzərindən işlədilən mail sistemi
- HikCentral turniket proqramı
- SINAM

Sistemdə istifadə olunan idarəetmə funksiyalarının əlçatanlığı və istifadəsini təşkil etmək üçün şəbəkə infrastrukturu və istifadəçi təlimatları mövcuddur. Həmçinin funksiyalara aid məlumatların yenilənmə prosesi mütəmadi olaraq həyata keçirilir. Yenilənmə zamanı sinxronizasiya problemləri ortaya çıxır.

Sistemlərdə səlahiyyət bölgüsü mövcuddur. Ortaq istifadə olunan və ayrıca idarə edilən sistemlərin hamısında lazımi səlahiyyət bölgüsü tətbiq olunur.

İmtahanların tətbiq olunması və balların hesablanaraq ETS-ə (Elektron Təhsil Sistemi) yüklənməsi, dərslərin keçirilməsi, jurnallar, tədris materiallarının tələbələrlə paylaşılması, konfransların nizamlanması, təlim-tədris prosesi ilə əlaqədar fəaliyyətlər rəqəmsallaşdırılmışdır *(KOİCA (https://sso.aztu.edu.az saytından daxil olunur) elektron tədris sistemi, Onlayn imtahan sistemi və s.).* Qeyd edilən proqram təminatlarının tətbiqi ilə ATM-in bütün fakültələrinin pedogoji-tələbə heyəti üçün elektron mühazirələrə, elektron dərs vəsaitlərinə və

s. əlçatanlığı təmin edilmişdir. Proqram təminatından istifadə üçün professor-müəllim heyəti Tədris Hissəsinə, tələbələr isə dekanlıqlara müraciət edərək şifrə əldə etməlidirlər.

İnformasiya idarəetmə sisteminin fərqli modul və hissələrinə ehtiyaca görə universitet içində və ya kənarda, internet olan hər yerdən tələbələr daxil olub istifadə edə bilər.

İnformasiya idarəetmə sistemində bir çox proseslər avtomatlaşdırıldığı üçün idarəetmə daha sadələşib və bütün proseslərə nəzarət olunur.

İnformasiya idarəetmə sisteminin fərqli modulları müəyyən səviyyədə digər aidiyyatı qurumlarla sinxron halındadır. Amma sistem çeşidliliyi olduğu üçün sinxronizasiya prosesində meydana gələn problemlər səbəbi ilə məlumatlarda uyğunsuzluqlar mövcuddur.

İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığını təmin etmək üçün mütəmadi nəzarət edilir və texniki heyət tərəfindən dəstək göstərilir.

### *5.5. İctimaiyyətlə əlaqələr*

AzTU-da Media ilə iş kommunikasiya şöbəsi fəaliyyət göstərir. Media ilə iş kommunikasiya şöbəsi Abituryentlər və tələbələrlə iş qrupu, Dövri mətbuat qrupu, İctimaiyyətlə əlaqələr qrupu, Mədəniyyət və yaradıcılıq qrupu, Şəhid ailələri və Vətən Müharibəsi iştirakçıları ilə işlərin təşkili qrupu və Tədbirlərin təşkili qrupundan təşkil olunmuşdur.

AzTU-nun rəsmi veb-saytı fəaliyyət göstərir (www.aztu.edu.az)

ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqi veb sayt və sosial şəbəkələr vasitəsilə aparılır. Veb-saytda yerləşdirilən xəbərlərə baxış və sosial şəbəkələrdə paylaşılan xəbərlərin paylaşılma sayını istənilən dövr üçün əldə etmək mümkündür.

Veb-sayta yerləşdirilən xəbərlərin sayı aşağıdakı cədvəldə qeyd edilmişdir. Bundan əlavə elanlar da paylaşılır və müddəti bitmiş elanlar saytdan götürülür.

| *İllər* | *2016* | *2017* | *2018* | *2019* | *2020* | *2021* | *2022* |
|---|---|---|---|---|---|---|---|
| Aztu.edu.az saytında paylaşılan məlumatların sayı | 201 | 233 | 240 | 297 | 395 | 366 | 309 |

AzTU-nun rəsmi veb-saytında zəruri hallarda fakültələrin, kafedraların, eləcə də digər səhifələrin məlumatları daim yenilənir.

AzTU-nun tələbə, müəllim və əməkdaşlarını, eləcə də ictimaiyyəti məlumatlandırmaq üçün veb-saytla yanaşı sosial şəbəkə səhifələrindən də aktiv istifadə olunur. Aşağıda AzTU-nun sosial şəbəkələrdə səhifələrinin ünvanları və daim artan izləyici sayları qeyd olunub:

- Feysbuk: facebook.com/aztu1950.official – 4800
- İnstaqram: instagram.com/aztueduaz – 11700
  instagram.com/thik.aztu – 5134
  instagram.com/aztu.tgt – 4771
  instagram.com/aztu_teleberektor – 1045
- Tvitter: @aztueduaz – 394
- Linkedin: linkedin.com/school/aztueduaz – 2204
- Teleqram kanalı: t.me/aztu_edu_az – 2300

Standart fəaliyyət olmadığı üçün xüsusi bir plan yoxdur. Mütəmadi olaraq keçirilən tədbirlərin və görüşlərin formatına uyğun görüləcək işlərin planı qurulur. Xəbər mətni yazılır, çəkilən fotoşəkillərlə birlikdə təsdiqlənərək veb-saytda və sosial şəbəkələrdə paylaşılır. Bundan əlavə ehtiyac olduqca tədbirlər video kameralarla çəkilərək montaj olunur və "AzTU TV" Youtube səhifəsində paylaşılır. Mətbuat nümayəndələrinin mütəmadi olaraq fərqli mövzularda sorğular göndərməsi və bu sorğuların cavablandırılması üçün müvafiq struktur rəhbərləri ilə kommunikasiya qurulur.

Auditoriya daha çox tələbələrdən ibarət olduğu üçün mütəmadi olaraq sosial şəbəkə hesablarında sorğular aparılır. Eyni zamanda mətbuat nümayəndələri ilə görüşlər təşkil olunur. Sosial şəbəkəyə yazılan şikayət məzmunlu mesajlar təhlil olunur. Bütün bunlar fəaliyyətin qiymətləndirilməsi üçün yardımçı vasitə hesab olunur.

AzTU-nun rəsmi saytının (aztu.edu.az) interfeysinin istifadəçi dostu və mobil cihazlara uyğun olaraq təkmilləşdirilməsi, məlumatların daha əlçatan olması məqsədi ilə 2022-ci ilin sentyabr ayından saytın yeni dizaynı "beta" versiyada istifadəyə verilib. Hazırda təkmilləşdirmə işləri davam edir.

Bundan əlavə universitetdaxili tədbirlərin və məlumatların çatdırılması elektron poçt sistemi vasitəsilə həyata keçirilir. Tələbələrin birbaşa məlumatlandırılması

üçün ən vacib elanlar olduqda “KOICA” sistemi üzərindən tələbələrin şəxsi kabinetlərinə elan kimi göndərilir.

## 6. İNFRASTRUKTUR

### *6.1. Tədris infrastrukturu*

Universitetimizdə tədris auditoriyaları standartlara uyğun şəkildə təmin olunub. Son 7 ildə universitetdə 160 auditoriya proyektor və digər müvafiq avadanlıqlara təmin olunub. Bundan əlavə 2022-ci ildə otaqlara müasir tələblərə cavab verən 100 kompüter və proyektor əlavə olunub. Daha əvvəlki kompüterlər də sazlanaraq müasirləşdirilib. Hazırda aktiv olaraq 170 otaqda yenilənmiş kompüter və proyektor mövcuddur.

AzTU-da kitabxana fəliyyət göstərir və 2022-ci ilin əvvəlinə kitabxana fondunun resurs sayının ümumulikdə sayı 468321 nüsxə təşkil etmişdir. Bunlardan 206753 nüsxə dərslik, 23744 nüsxə isə bədii ədəbiyyatdır. Kitabxanada 2016-cı ilin əvvəlində 2541 xarici kitab mövcud olmuşdur. 2016-cı ildə 9 kitab alınaraq bu say 2550-ə qalxmışdır. 2017-ci ildə 58 kitab alınmış və bu say 2608 olmuşdur. 2018-ci ildə 3 kitab alınaraq bu say 2611ə qalxmışdır. Növbəti ildə 7 kitab alınaraq bu say 2618 olmuşdur. Sonuncu olaraq, 2020-ci ildə 14 kitap alınmış və say 2638-ə qalxmışdır. İrbis 64 elektron kitabxana sistemi mövcud olmuşdur. Kitabxanaya məxsus əlavə sayt da fəaliyyət göstərmiş, fəqət aktiv yenilənmə təmin edilməmişdir. Son 1 ildə universitetdə Elektron kitabxana layihəsiylə də bağlı işlər görülür.

AzTU Kitabxanası əsasən ənənəvi formatda fəaliyyət göstərmişdir. Kitabxana İnformasiya Mərkəzi yarandıqdan sonra yeni müasir kitabxana konsepsiyası işlənməyə başlanılmışdır ki, yeni layihəyə əsasən kitabxana ənənəvi xidmət ilə yanaşı elektron olmaqla, hibrid fəaliyyət göstərəcəkdir. Elektron xidmətlər aşağıdakı istiqamətlərdə nəzərdə tutulub:

1. Yeni yaradılmış veb sayt üzərindən fəalliyətin icrası
2. Onlayn randevu sisteminin formalaşdırılması
3. Onlayn otaq rezervasiyası sisteminin formalaşdırlması
4. Elektron təqvim üzərindən iş günləri və saatları haqqında məlumatlandırma
5. Yeni əldə ediləcək Kitabxana Avtomatlaşdırma sistemi nəticəsində avtomatlaşmış işçi yerlərinin formalaşdırılması
6. Kitab alışı, dövriyyəsi proseslərinin avtomatlaşdırılması.

7. Rəqəmsal repozitariyanın formalaşdırılması
8. Beynəlxalq verilənlər bazalarına abunəliyin həyata keçirilməsi
9. Elektron kataloqun yaradılması
10. Elektron kataloq köşklərinin istifadəyə verilməsi
11. Elektron özünəxidmət aparatlarının quraşdırılması
12. Oxucu platformalarının formalaşdırlması
13. Müasir elektron inventarlaşma sisteminin tətbiqi
14. Elektron giriş və çıxış qapılarının quraşdırlması həmçinin konfiqurasiyası nəticəsində kitabxanaya giriş-çıxışın nəzarətə alınması və s.

Kadr hazırlığı zamanı tələbələr ixtisaslarına uyğun laboratoriyalarda məşğələ dəsrləri keçmə şəraitinə sahib olmuşlar. Burada maşınqayırma, fizika və bir sıra sahələrlə bağlı laboratoriya avadanlıqları mövcud olmuşdur. Bundan əlavə, elektron təhsil sistemi olan KOİCA-da didaktik materiallar da mövcud olmuşdur. İxtisaslar üzrə professor-müəllim heyətinin hazırladığı elmi məqalələr və jurnallar mövcuddur.

Universitetdə ixtisaslar üzrə müvaqfiq avadanlıqlarla təhciz olunmuş 90 tədris laboratoriyaları mövcuddur. Həmçinin, son 1 ildə 6-sı 19 nəfərlik, 3-ü 25 nəfərlik, 2-si 16 nəfərlik və biri 44 nəfərlik olmaqla, 12 kompüter sinfi yaradılmışdır.

Tədris planına uyğun olaraq tələbələr 4-cü kursun son semetri müvafiq qurumlara istehsalat təcrübəsinə göndərilir. Burda əldə edilən praktiki biliklər qiymətləndirilərək yekunda diplom nəticəsinə əlavə olunur.

Universietdə distant təhsil, xüsusilə pandemiya dövründə daha aktual olmuşdur. Bu zaman Zoom və Microsoft Teams proqram təminatları ilə tədris prosesi distant olaraq təmin edilmişdir. Ümumiyyətlə, siniflər və tədris distant təhsil üçün uyğundur.

Əməkdaşların tədbir və görüşlər zamanı yerdəyişməsinin təmini üçün nəqliyyat xidməti mövcuddur.

Universitetin Elektron Tədris Sitemi olan KOİCA-dan tələbə və müəllim heyəti universitetdaxili və xarici olaraq, internet bağlantısı olan hər yerdən daxil olma imkanınına malikdir. Həmçinin universitetdə mövcud olan laboratoriyalardan tələbələrin istifadəsi təmin olunur. Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə dərs otaqları daima yeni avadanlıqlarla təmin olunur.

İnkluziv təhsilin təmin olunması üçün eşitmə və görmə məhdudiyyəti olanlar

üçün tədris infrastrukturu mövcuddur. Tədris prosesi əsasən təqdimatlar formasında – interaktiv üsulla həyata keçirilir və bu da eşitmə məhdudiyyəti olan və görmə zəifliyi olan tələbələr üçün əlverişlidir.

2020-ci ilin fevral ayına qədər universitetdə tələbə və müəllimlərin müəyyən hissəsini yerləşdirə biləcək yeməkxana mövcud olmuşdur. Hal-hazırda müvəqqəti olaraq, kiçik bufet fəaliyyət göstərir. Müasir tələblər cavab verən yeni yeməkxanada təmir –tikinti işləri həyata keçirilirr.

Universitet yataqxanası 1992-ci ildən fəaliyyətə başlamış, pandemiya dövrünə qədər davam etmişdir. Son 2 ildə isə fəaliyyət göstərməmişdir. Yataqxanada bu müddət ərzində məcburi köçkünlərin yerləşdirilməsi də həyata keçirilmişdir.

Universitetin tələbə və əməkdaşlarına xidmət göstərən poliklinikası mövcuddur. Tədbirlərdə, idman yarışlarında həkim dəstəyi də hər zaman mövcud olur.

İT xidməti universitetdə telefon zəngləri, maillər, həmçinin bunun üçün qurulmuş xüsusi proqram təminatı ilə qəbul olunur. Peşəkarla İKT əməkdaşları hər sahədə xidmət göstərirlər. Server, şəbəkə və bütün İKT avadanlıqlarına daxili imkanlar hesabına xidmət göstərilir.

Elektron təhsil sistemi olan KOİCA-da tələbə və müəllimlərlə bağlı bir sıra məlumatlar, didaktik materiallar, tələbələrin qiymətləndirilməsi yer almışdır. Buradan bütün proseslərin monitorinqi mövcuddur.

### *6.2. Elmi-tədqiqat infrastrukturu*

Universitetdə elmi-tədqiqatla bağlı 13 may 2020-ci il Elmi Şuranın qərarıyla HUB 1887:İnkubasiya və Akselerasiya Mərkəzi yaradılmışdır. Burada müəyyən layihələr çərçivəsində tələbə və mütəxəssislər cəlb olunur. Bir sıra hakaton və layihələrdə tələbələr universiteti təmsil edib uğurlar əldə edirlər. Məsələn, 2022-ci ildə Türkiyənin ən böyük texnologiya festivalı olan Texnofestdə universitetimizdən 6 komanda finala çıxmış, 1 komanda Hakatonda iştirak haqqı qazanmışdır. Bunlarda ikisi finalda ikinci və üçüncü yerlərə layiq görülmüşdür.

Elmi tədqiqatlar, layihə prototiplərinin hazırlanması prosesində 3d printer, CNC kəsim aparatlı, həmçinin avtomatlaşdırılmış digər laboratoriyalar mövcuddur və bu laboratoriyalar tələbələrin istifadəsinə açıqdır.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1. Beynəlmiləlləşmə siyasəti*

Qloballaşan və insan mobilliyinin getdikcə artdığı bir dünyada ATM-lər üçün tələbələri qlobal cəmiyyətin çağırışlarına uyğun hazırlamaq ən vacib məsələlərdən biridir. Azərbaycan Ali Təhsil sisteminin Avropa standartlarına uyğunlaşdırılması prosesi intensiv xarakter almış və hazırda davam etməkdədir. Beynəlxalq əlaqələrin genişləndirilməsi Azərbaycan ali təhsil sistemində kifayət qədər prioritet sahələrdən birinə çevrilmiş, dünya ali təhsil sisteminə inteqrasiya ali təhsil müəssisələrində bu sahənin genişləndirilməsinə ehtiyac yaratmışdır.

Azərbaycanın aparıcı universitetlərdən biri kimi AzTU bu sahədə son 7 ildə bir sıra işlər həyata keçirilmiş, o cemlədən 2021-ci ildə universitetin inkişaf strategiyası təsdiqləndikdən sonra beynəlmilləşmə siyasətini müəyyən edən sənəd 2022-ci ildə hazırlanıb təsdiqlənmişdir. Bu sənəd AzTU-nun inkişaf strategiyasında göstərilən 7 hədəfin hər birini dəstəkləyir və aşağıdakı yanaşmaları özündə ehtiva edir:

1. AzTU-nu beynəlxalq məkanda tanıtmaq, dünyanın və regionun nüfuzlu universitetləri, tədqiqat mərkəzləri və sənaye müəssisələri ilə əlaqələri genişləndirmək və AzTU-da tədqiqat və mühəndislik təhsilinə qlobal səviyyədə marağı artırmaq;
2. AzTU-da tələbələrin qlobal düşüncə tərzini inkişaf etdirən tədris və təlim metodlarından istifadənin genişlənməsi, beynəlxalq elm və təhsil məkanının imkanlarından yararlana bilən mühitin qurulması və bu mühitdə qlobal səriştəyə malik kadrların hazırlanması;
3. Qlobal səriştələrə malik gənclərin yetişdirilməsi üçün beynəlxalq təhsil məkanının prinsip və təlimatlarını mənimsəyərək tədrisin təşkilində əmək bazarının tələb etdiyi kompetensiyalara cavab verən müasir təhsil xidmətlərini təqdim etmək;
4. AzTU-nun elm və innovasiya potensialının artırılması məqsədilə qlobal bazarın tələblərinə yönələn tədqiqatın aparılması üçün beynəlxalq aləmdə bu istiqamətdə ən yaxşı nümunələri öyrənmək, tərəfdaşlarla bərabər birgə tədqiqat işlərini həyata keçirərək beynəlxalq elmi-tədqiqat gücünü artırmaq;
5. Müasir tələblərə cavab verən keyfiyyətli tədris mühitinin formalaşması üçün beynəlxalq əlaqələrin genişləndirilməsi və universitetlərin beynəlxalq proqramlara daha fəal cəlb olunması yolu ilə beynəlxalq təcrübədən istifadənin artırılmasıdır.

Eyni zamanda, AzTU-nun 2022-ci il üçün təsdiqlənmiş prioritet istiqamətlər üzrə fəaliyyət planı universitetin beynəlmilləşmə siyasəti ilə tam üst-üstə düşərək bir çox məsələlərə yer vermişdir. Bunlar, akademik heyətin və tələbələrin ingilis dil biliklərinin artırılması, QS regional reytinq siyahısında yer alma və irəliləmə, 2 ixtisas üzrə tam ingilis dilində tədris həyata keçirilməsi, 1 nüfuzlu universitet ilə ikili diplom proqramının həyata keçirilməsi kimi məsələlər öz əksini tapmışdır.

Universitetdə tələbə və müəllimlərin beynəlxalq proqramlarda fəal iştirakını təmin etmək, həmçinin, onların mövcud mexanizmlərdən istifadə etmələri üçün təşviqat və təbliğat işləri aparılır. AzTU Avropa Birliyinin Tempus, Erasmus Mundus EMİNENCE, Erasmus+ KA1 Mobillik Proqramı, Erasmus+ KA2 Ali Təhsildə Potensialın Gücləndirilməsi Layihələri, Tvinninq layihəsi, Yerli Qrant Layihələri, Türkiyənin Mevlana Mübadilə Proqramı, Alman Akademik Mübadilə Xidməti (DAAD) kimi beynəlxalq proqramların təqdim etdiyi imkanlardan yararlanır, bu proqramlar çərçivəsində xarici universitetlərlə əməkdaşlıq edir və mübadilə həyata keçirir.

AzTU-da 2015-2022-ci illər ərzində 23 ölkədən olmaqla 117 təhsil müəssisəsi ilə elm və təhsil sahəsində əməkdaşlıq müqaviləsi bağlanılmışdır. Həmçinin universitetimizin 14 Mevlana Mübadilə Proqramı, 16 Erasmus+ Mobillik Proqramı və 6 universitetlə ikili diplom proqramı çərçivəsində əməkdaşlıq müqaviləsi mövcuddur.

Azərbaycan Texniki Universiteti dünyanın bir çox ölkəsindən olan tərəfdaşları ilə əlaqələri möhkəmləndirir və inkişaf etdirir. Dünyanın 100-dən çox aparıcı universiteti ilə əməkdaşlıq etməklə yanaşı, həmçinin, AzTU Xəzəryanı Ölkələrin Dövlət Universitetləri Assosiasiyası, Texniki Universitetlər Assosiasiyası, Rusiya-Azərbaycan Universitetləri Assosiasiyası, Qara Dəniz Hövzəsi Universitetləri Assosiasiyasına və CDIO şəbəkəsinə üzvdür.

AzTU-da elmi-tədqiqat potensialının artırılması istiqamətində də bir çox işlər görülmüş, universitet-sənaye işbirliyi çərçivəsində ən yaxşı beynəlxalq təcrübənin öyrənilməsi üçün xarici tərəfdaşlarla əməkdaşlıqlar qurulmuş və bunun nəticəsində birgə tədqiqat layihələrinin icrasına başlanılmışdır.

Son 7 ildə AzTU-nun professor-müəllim heyəti Rusiyanın Cənubi Ural Dövlət Universiteti, Almaniyanın Maqdeburq Universiteti və Münhen Texniki Universitetinin elm adamları ilə birgə elmi tədqiqat işləri həyata keçirilmişdir. Həmçinin, Xarkov Şəhər Təsərrüfatı Mühəndisləri Akademiyası, Poltava Texniki Universiteti və

Ukraynanın digər müəssisələrində 13 birgə elmi tədqiqat işi aparılmışdır. Eləcə də, AzTU və Belarusiya Dövlət Rabitə Akademiyası arasında “Optik rabitənin kvant sistemləri” adlı Birgə Beynəlxalq Elmi Laboratoriya təşkil edilmişdir.

2018-ci ildə Azərbaycan Texniki Universiteti Türkiye Hava və Kosmos Sənayesi ilə ortaq elmi-tədqiqatların aparılması üçün əməkdaşlıq müqaviləsi imzalamış və 2022-ci ildə AzTU-nun magistr və doktorantlarının elmi-tədqiqatlarının aparılması üçün TUSAŞ-ın istehsalat və tədqiqat laboratoriyalarından istifadə etməsi üçün razılığa gəlinmişdir.

AzTU-nun Metallurgiya və materiallar texnologiyası kafedrasının elmi fəaliyyətinin daha da inkişaf etdirilməsi məqsədi ilə Türkiyəli ekspert Prof.Doc. Mustafa Güden ilə əməkdaşlığa başlanılmışdır. Prof.Dr. Mustafa Güden kafedranın əməkdaşlarına beynəlxalq elmi-tədqiqat layihələrinin hazırlanması istiqamətində təlimlər keçir, eyni zamanda, universitetin metallurgiya və materialşünaslıq üzrə beynəlxalq tədqiqatlara cəlb olunması üçün işlər aparır.

10 iyun 2020-ci il tarixində İqtisadiyyat Nazirliyinin dəstəyi, “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin təşkilatçılığı ilə “Universitet-Sənaye Əməkdaşlığı: OSTİM Texniki Universitetinin təcrübəsi” mövzusunda tədbir keçirilib. İşgüzar tədbirin keçirilməsində məqsəd ali təhsil müəssisələri ilə sənaye müəssisələri arasında davamlı əməkdaşlığın təmin edilməsi, elmi potensialın sənayedə geniş tətbiqi, sənaye parklarının rezidentlərinin tədqiqat və inkişaf, innovasiya fəaliyyətinin genişləndirilməsidir.

AzTU-da son dövrlərdə birgə təhsil proqramları istiqamətində uğurlu işlər həyata keçirilib və ikili diplom proqramları çərçivəsində müqavilələr imzalanıb. Həmin proqramlar çərçivəsində müəyyən ixtisaslarda xarici universitetlərin tədris planları və fənləri mənimsənilib. Bu layihələr universitetə beynəlxalq birgə proqramların hazırlanması üzrə təcrübə qazandırmışdır. Eyni zamanda müvafiq hazırlanan birgə təhsil proqramları üzrə xarici universitetlərin beynəlxalq əmək bazarına cavab verən kurikulumlarının hazırlanma metodikası və məzmunu AzTU tərəfindən mənimsənilərək bu prosesdə iştirak edən əməkdaşlara yeni bilik və bacarıqlar qazandırmışdır. AzTU aşağıdakı universitetlərlə qeyd olunmuş ixtisaslar üzrə ikili diplom proqramı müqavilələri imzalamışdır:

Ankara Universiteti (Türkiyə):

- Kompüter mühəndisliyi - Bakalavr səviyyəsində - 2022-ci ildən qəbul;

Gazi Universiteti (Türkiyə):

- Elektrik və elektronika mühəndisliyi - Bakalavr səviyyəsində (2023-cü ildən etibarən)
- Mexanika mühəndisliyi;( nəzərdə tutulur)
- Metallurgiya mühəndisliyi. (nəzərdə tutulur)

OSTİM Texniki Universiteti (Türkiyə) (2023-cü ildən etibarən)

- İdarəetmə - Bakalavr səviyyəsində;
- Sənaye mühəndisliyi;

Kazan Federal Universiteti (Rusiya) – 2022-ci ildən qəbul;

- Avtomatika və texnoloji proseslər
- Nəqliyyat proseslərinin texnologiyası
- İqtisadiyyat

Brandenburq Texnoloji Universiteti (Almaniya) (2023-cü ildən etibarən)

- Mexanika mühəndisliyi;
- Metallurgiya mühəndisliyi.

Xarkov Milli Radioelektronika Universiteti (Ukrayna):

- Kompüter sistemləri və şəbəkələri - Magistratura səviyyəsi - 2022-ci ildən qəbul;
- Sistem proqramlaşdırma ixtisasları – Magistratura səviyyəsi - 2022-ci ildən qəbul;

Dövlət Dəmir Yolu Nəqliyyatı Universiteti (Ukrayna):

- Vaqon və vaqon iqtisadiyyatı – Magistratura səviyyəsi - 2022-ci ildən qəbul;

Qeyd olunan ikili diplom proqramlarından Ankara Universiteti, Kazan Federal Universiteti və Xarkov Milli Radioelektronika Universiteti ilə ikili diplom proqramına artıq 2022-2023-cü tədris ili üçün qəbul başlanmış və hazırda hər üç proqram üzrə tədris həyata keçirilir.

Hazırda Azərbaycanda əcnəbi tələbələrin təhsili Təhsil Nazirliyinin beynəlxalq əlaqələrinin prioritet istiqamətlərindən biridir. Əcnəbi vətəndaşlarının təhsilə cəlb olunması ilə bağlı təcrübə göstərir ki, bu sahədə dünyada kifayət qədər ciddi rəqabət var. Hər bir ölkənin ali təhsil müəssisələri daha çox əcnəbi tələbənin cəlb olunmasında maraqlıdırlar.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” ali və orta ixtisas təhsili müəssisələrinə qəbul və yerləşdirmə

mexanizminin təkmilləşdirilməsini nəzərdə tutur. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli fərmanı ilə tətbiq edilmiş “Təhsil haqqında” Qanunda dövlət siyasətinin əsas prinsiplərindən olan liberallaşma, bərabərlik və inteqrasiyanı təsbit edir. Bu sadalananları rəhbər tutaraq, Azərbaycanda əcnəbi vətəndaşların təhsili sahəsində də boşluqları aradan qaldırmaq və daha işlək mexanizmlər qurulması yönündə işlər görülməyə başlamışdır.

AzTU-da xarici ölkələr üçün mütəxəssislər hazırlamağa başlandığı vaxtdan bu günə qədər 40-dək ölkə üçün 5 minə yaxın mühəndis hazırlamışdır. Burada Türkiyə tələbələri ilə yanaşı Pakistan, Hindistan, Əfqanıstan, İordaniya, İran, Suriya, Rusiya, Çin, Banqladeş, Kuba, Panama, Mali, BƏƏ, Koreya, Kompuçiya, Zimbabve, Peru, Laos, Ekvador, Marokko, Çad, Zair, Kolumbiya, Monqolustan, Sudan, İraq, Mozambik, Nigeriya, Ukrayna, Türkmənistan və s.ölkələrin vətəndaşları təhsil almışlar. Son 5 ildə 400-dək xarici ölkə vətəndaşı universitetin məzunu olmuşdur. Əcnəbi tələbələrin sayının dəyişmə dinamikası növbəti cədvəl və şəkildə verilmişdir.

| Əcnəbi tələbələrin sayı | | | |
|---|---|---|---|
| İllər | Hazırlıq | Təhsilin 3 pilləsi üzrə | Toplam |
| 2015-2016 | 39 | 156 | 195 |
| 2016-2017 | 58 | 131 | 189 |
| 2017-2018 | 136 | 126 | 262 |
| 2018-2019 | 180 | 131 | 311 |
| 2019-2020 | 243 | 149 | 392 |
| 2020-2021 | 33 | 162 | 195 |
| 2021-2022 | 39 | 148 | 187 |




Beynəlmiləşmə siaysəti AzTU-nun SİP-nə uyğun olaraq yenilənir.

*7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

Bu istiqamətdə universitetdə struktur islahatları aparılır, beynəlxalq əlaqələrdən cavabdeh şöbələrin işi təkmilləşdirilir və onlara daha əlverişli şərait yaradılır.

AzTU-nun beynəlxalq əməkdaşlıqla əlaqəli bütün struktur bölmələri universitetin beynəlxalq əlaqələr üzrə prorektoru tərəfindən koordinasiya olunur. AzTU-nun beynəlxalq əlaqələri aşağıdakı istiqamətlər üzrə qurulmuşdur:

- Xarici universitet, təşkilat və mərkəzlərlə ilə əməkdaşlıq;
- Beynəlxalq layihələr və mübadilə proqramları;
- Əcnəbi tələbələrin qəbulu və tədrisi.

AzTU-nun beynəlmiləlləşmə siyasəti və bundan irəli gələn işlərin düzgün nəzarəti üçün universitetin beynəlxalq əlaqələrinə cavabdeh struktur bölmələrində son 7 il ərzində bir sıra struktur islahatları aparılmış və optimallaşdırılmışdır. Belə ki, Beynəlxalq əlaqələr şöbəsinin adı dəyişdirilərək 2018-ci ildə Beynəlxalq əlaqələr departamenti olaraq fəaliyyət göstərmiş və tərkibində Xarici universitet və tədqiqat mərkəzləri ilə əməkdaşlıq şöbəsi, Layihə və mübadilə proqramları şöbəsi və Əcnəbi tələbələrin təhsili şöbəsi olmaqla 3 şöbəni özündə birləşdirmişdir. 2020-ci ildə isə fəaliyyətlərin daha çevik və optimallaşdırılması üçün departament 2 struktur bölməyə ayrılaraq, Xarici əlaqələr şöbəsi və Əcnəbi tələblərlə iş şöbəsi olaraq formalaşdırılmışdır.

Mübadilə proqramlarında tələbə seçimi və tədris planının uyğunluğu məsələləri fakültələrə, akademik heyət seçimi məsələsi isə kafedralara yönləndirilir və bu

proses izlənilir. Birgə təhsil proqramlarının həyata keçirilməsi prosesində müfaviq fakültə və kafedraların heyəti işə cəlb olunur və vaxtında və lazımi tələblərə uyğun yerinə yetirilməsi istiqamətində işlər Xarici əlaqələr şöbəsi tərəfindən izlənilir. Həm tələbə, həm də müəllim seçimi tam şəffaf şəkildə - elan yerləşdirilməsi, namizədlərin lazımi sənədləri e-poçt ilə göndərmələri, namizəd sayına uyğun siyahı tərtib edilərək qarşı tərəf universitetə göndərilməsi və s. prosedurlar – ardıcıllıqla həyata keçirilir.

2015-2016-cı tədris ilində AzTU-nun 5 tələbəsi mübadilədə iştirak etmiş, onlardan 1-i Erasmus Mundus Eminence II çərçivəsində 1 illik, 4-ü isə Mevlana Mübadilə Proqramı çərçivəsində 1 semestrlik xarici universitetlərdə təhsil almaq şansı qazanmışlar.

2016-2017-ci tədris ilində AzTU-nun 6 tələbəsi mübadilədə iştirak etmiş, onlardan 1-i Erasmus Mundus Eminence II çərçivəsində 1 illik, 5-i isə Mevlana Mübadilə Proqramı çərçivəsində 1 semestrlik xarici universitetlərdə təhsil almaq şansı qazanmışlar.

2017-2018-ci ilində AzTU-nun Nəqliyyat fakültəsinin 5 tələbəsi Rusiyanın Rostov Dəmir Yolu Dövlət Universitetində istehsalat təcrübəsində iştirak etmişlər.

2018-2019-cu tədris ilində AzTU-nun 6 tələbəsi mübadilədə iştirak etmiş, onlardan 2-si Qazaxıstanın Atırau Universiteti ilə universitetlərarası əməkdaşlıq çərçivəsində, 4-ü isə Almaniyanın Brandenburq Texniki Universitetində Maşınqayırma fakültəsi üzrə istehsalat təcrübəsi keçmək üçün Erasmus+ KA1 proqramı çərçivəsində mübadilədə iştirak etmişlər.

2019-2020-ci tədris ilində AzTU-nun 2 tələbəsi Erasmus+ KA1 proqramı çərçivəsində Rumıniyanı Kluj-Napoka Universitetində, 2 tələbəsi Almaniyanın Brandenburq Texniki Universitetində mübadilədə iştirak etmişdir.

2021-2022-ci tədris ilində AzTU-nun 1 tələbəsi Erasmus+ KA1 proqramı çərçivəsində 1 semestrlik xarici universitetdə mübadilədə iştirak etmişdir.

AzTU-nun Elmi Şurasının 19 oktyabr 2021-ci il tarixli qərarı ilə “AzTU: Türkiyədə tədqiqat-təcrübə proqramı” təsdiq edilmişdir. Proqram çərçivəsində AzTU-da təhsil alan 24 nəfər magistr və doktorant tələbələr, Türkiyənin Qazi Universiteti, Yıldız Texniki Universiteti və İstanbul Universitetində müxtəlif sahələr üzrə 2 aylıq təcrübə keçmişlər.

Sözügedən dövrdə tələbə mübadiləsinin dinamikası növbəti cədvəl və müvafiq diaqramda verilir.

| Tələbə mübadiləsi | | |
|---|---|---|
| **İllər** | **Gedən tələbələr** | **Gələn tələbələr** |
| 2015/2016 | 5 | 1 |
| 2016/2017 | 6 | 2 |
| 2017/2018 | 5 | 2 |
| 2018/2019 | 6 | 1 |
| 2019/2020 | 5 | 2 |
| 2020/2021 | 0 | 0 |
| 2021/2022 | 25 | 0 |




2016-2021-ci illərdə AzTU-da xarici vətəndaşlığı olan 3 müəllim tədris prosesinə cəlb edilmişdir. Belə ki, 1 nəfər Gürcüstan vətəndaşı 2016-2017-ci illərdə Avtomatika və idarəetmə kafedrasında asistent, 2017-2022-ci illərdə isə baş müəllim vəzifəsində çalışmışdır. 1 nəfər Türkiyə vətəndaşı 2020-2021-ci illərdə İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasında, 2021-2022-ci illərdə isə Kompüter texnologiyaları və kibertəhlükəsizlik kafedrasında asistent olaraq çalışmışdır. 1 nəfər İran vətəndaşı 2021-ci ildə Telekommunikasiya və informasiya təhlükəsizliyi kafedrasında, 2021-2022-ci illərdə isə Kompüter texnologiyaları və kibertəhlükəsizlik kafedrasında baş müəllim vəzifəsində çalışmışdır. Bununla yanaşı AzTU-nun Gazi universiteti ilə əməkdaşlığı çərçivəsində bir türk professoru universitetin Elm və innovasiyalar üzrə prorektoru vəzifəsinə, digər bir türk mütəxəssis isə yeni qurulmuş Yüksək Təhsil İnstitutuna rəhbər vəzifəyə təyin edilmişdir.

AzTU-nun yeni hazırlanmış beynəlmiləlləşmə siyasətinin idarəedilməsi universitetin rektoru və beynəlxalq əlaqələr üzrə prorektorunun səlahiyyətlərinə daxildir, burada əsas icraçı struktur isə universitetin Xarici əlaqələr şöbəsi, qismən də fakültə və kafedralardır. Siyasətin əsas fəaliyyət göstəriciləri və onlara nəzarət mexanizmi formalaşdırılaraq 2022-2023-cü tədris ilindən etibarən illik və ya yarımillik hesabatlar formasında monitorinq edilməsi nəzərdə tutulub.

AzTU-da, ikili diplom proqramları hazırlanarkən tərəfdaş universitetin müvafiq ixtisas üzrə tədris planı əsas alınaraq tərtib edilmişdir. Belə ki, 2022-2023-cü tədris ilindən həyata keçirilməyə başlanılmış Ankara Universiteti (Türkiyə) ilə Kompüter mühəndisliyi ixtisası (bakalavr səviyyəsi) üzrə ikili diplom proqramının müqaviləsi, birgə tədris planı və diplom nümunələri hazırlanmış, Türkiyə Yüksəköğretim Kurulu (YÖK) tərəfindən təsdiqlənmiş və AR Elm və Təhsil Nazirliyinə təqdim edilmişdir. Eynilə, digər universitetlərlər – Kazan Federal Universiteti (Rusiya) ilə İqtisadiyyat (bakalavr səviyyəsi), Proseslərinin avtomatlaşdırılması, Nəqliyyat mühəndisliyi üzrə və Xarkov Milli Radioelektronika Universiteti ilə Kompüter sistemləri və şəbəkələri (magistr) və Sistem proqramlaşdırma (magistr) ixtisasları üzrə həyata keçirilən ikili diplom proqramlarına aid bütün prosedurlar qarşılıqlı olaraq hər iki ölkənin qanunvericiliyinə uyğundur.

AzTU-da beynəlxalq proqramlar vasitəsilə akademik heyətin mübadiləsi dinamikası əsasən artan tempdə irəliləsə də, son iki ildə pandemiya vəziyyəti ilə əlaqədar olaraq say azalmış görünsə də, son tədris ilində Türkiyə universitetləri ilə əməkdaşlıq çərçivəsində bu say artmışdır.

- 2015-2016-cı tədris ilində Mevlana Mübadilə proqramı, Erasmus Mundus Eminens, Tempus və Erasmus layihələri çərçivəsində olmaqla AzTU-dan 11 nəfər professor-müəllim heyəti beynəlxalq layihələrdə iştirak etmişdir.
- 2016-2017-ci tədris ilində AzTU-dan 11 nəfər professor-müəllim heyəti beynəlxalq layihələrdə iştirak etmiş, onlardan 1-i Mevlana Mübadilə Proqramı çərçivəsində mübadilədə, digərləri isə Erasmus+ KA2 Ali Təhsil Müəssisələrində Potensialın Gücləndirilməsi Layihələri çərçivəsində xarici universitetlərdə təcrübə keçmişdir.
- 2017-2018-ci tədris ilində AzTU-dan 19 nəfər professor-müəllim heyəti beynəlxalq layihələrdə iştirak etmiş, onlardan 4-ü Alman Akademik Mübadilə Xidməti – DAAD, 3-ü Erasmus+ KA1 Mübadilə Proqramı, digərləri isə Erasmus+ KA2 ATM-lərdə Potensialın Gücləndirilməsi Layihələri çərçivəsində xarici universitetlərdə təcrübə keçmişdir.
- 2018-2019-cu tədris ilində AzTU-dan 19 nəfər professor-müəllim heyəti beynəlxalq layihələrdə iştirak etmiş, onlardan 3-ü DAAD, 3-ü Erasmus+ KA1 Mübadilə Proqramı, 1-i Avropa Birliyinin Azərbaycan Respublikasında həyata keçirdiyi TVİNNİNQ layihəsi, digərləri isə Erasmus+ KA2 ATM-lərdə Potensialın Gücləndirilməsi Layihələri çərçivəsində xarici universitetlərdə təcrübə keçmişdir.

- 2019-2020-ci tədris ilində AzTU-dan 9 nəfər professor-müəllim heyəti beynəlxalq layihələrdə iştirak etmiş, onlardan 6-sı Erasmus+ KA2 ATM-lərdə Potensialın Gücləndirilməsi Layihələri, 2-si Erasmus+ KA1 Mübadilə Proqramı, 1-i isə AB-nin TVİNNİNQ layihəsi çərçivəsində xarici universitetlərdə təcrübə keçmişdir.
2020-2021 – ci illərdə pandemiya vəziyyəti ilə əlaqədar olaraq mübadilə proqramları fiziki olaraq həyata keçirilməmiş, bu müddətdə universitetdə mübadilə baş tutmamışdır.

2021-2022-ci illərin ortasından pandemiya şərtləri yumşalmış, mübadilələr yenidən həyata keçirilməyə başlanmışdır. Həmin tədris ilində AzTU-dan 8 əməkdaş Erasmus+ KA1 proqramı çərçivəsində Türkiyə, Rumıniya və Çexiyada mübadilədə iştirak etmiş, Türkiyədə tədqiqat-təcrübə proqramı çərçivəsində 11 əməkdaşımız Türkiyənin İstanbul, Qazi və Ankara universitetində təlim proqramında iştirak etmişdirlər.




Professor-müəllim heyəti və tələbələrin beynəlxalq təcrübə əldə etmələrini dəstəkləyən mexanizmlərdən yerli və beynəlxalq qrant layihələrini, mübadilə proqramlarını və universitetlərarası ikili əməkdaşlıq çərçivəsində həyata keçirilən mübadilə fəaliyyətlərini sadalaya bilərik. Belə ki, bu günə kimi çoxsaylı beynəlxalq və yerli proqramlara tərəfdaşlıq edən Azərbaycan Texniki Universiteti Tempus, Erasmus Mundus EMINENCE, Erasmus+ KA1 Mobillik Proqramı, Erasmus+ KA2 Ali Təhsil Müəssisələrində Potensialın Gücləndirilməsi Layihələri, Avropa Birliyinin Azərbaycan Respublikasında həyata keçirdiyi Tvinninq layihəsi, Yerli Qrant Layihələri, Mevlana Mübadilə Proqramı, Alman Akademik Mübadilə Xidməti (DAAD) və universitetlərarası əməkdaşlıq çərçivəsində professor- müəllim heyəti və tələbələrin beynəlxalq təcrübə almasını dəstəkləmiş və həyata keçirmişdir. Mübadilədə iştirak edən tələbələrin kreditlərinin tanınması əsasən mübadilə

| |
|---|
| proqramlarının normativ qaydalarına uyğun aparılır və universitet də bu xüsusda lazımi dəstəyi göstərir. Erasmus+ və Mevlana kimi beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbələrin mübadilənin baş tutacağı semestr fənlərinin uyğunluğu Öyrənmə müqaviləsi adlı sənədlə təsdiqlənir. Bu sənəd mübadilədən əvvəl razılaşdırılaraq imzalanır, mübadilədən sonra tələbənin müvəffəqiyyətlə başa vurduğu fənlərin kreditləri göndərən universitet tərəfindən tanınır.<br>Mübadilə proqramlarında akademik və inzibati heyətin seçimi haqqında məlumat mövcud layihə üzrə xarici tərəfdaş universitetin təqdim etmiş olduğu tələb vəya mövcud olan müqavilədə göstərilən ixtisas sahələri üzrə kafedralara yönləndirilir və universitetin internet səhifəsində elan verilir. Mübadilədə iştirak edəcək akademik vəya inzibatı heyətin seçimi müvafiq struktur bölmələrinin rəhbərlərinin dəstəyi ilə xarici əlaqələr şöbəsi tərəfindən qoyulan tələblərə uyğun olaraq seçilir. Seçim haqqında məlumat tərəfdaş universitetə təqdim edilir və daha sonrakı prosedurların icrası xarici əlaqələr şöbəsi tərəfindən nəzarət olunur.<br>AzTU 2021-ci ildən etibarən QS, U-multirank və Clarive kimi reytinq cədvəllərində iştirak etmək üçün əməkdaşlıqlara başlamışdır. Belə ki, 2022-ci ildə "QS Quacquarelli Symonds" Reytinq Cədvəlinə qoşulmuşdur. Bu çərçivədə 5 təlim keçirilmişdir: metodoloji təlimlər və dünya universitetləri ilə müqayisəli təhlil təlimləri olmaqla. Universitetin məlumatları sistemə yerləşdirilmiş, QS İllik Reputasiya sorğusunda iştirak edilmişdir.<br>2022-ci ildə AzTU U-Multirank Beynəlxalq Universitetlər Reytinq Cədvəlinə qoşulmuşdur. Universitetimiz bu Reytinq sisteminə qoşulan Azərbaycandan 6 universitetdən biridir. Universitetin məlumatlar sistemə daxil edilmişdir. Burada 5 indikator üzrə – Öyrətmə və öyrənmə, Tədqiqat, Biliyin ötürülməsi, Beynəlxalq oriyentasiya, Regional məşğulluq və Ümumi indikatorlar üzrə qiymətləndirilmə aparılmışdır. Nəticədə AzTU-nun Tədqiqat indikatoru daha güclü olduğu müəyyən olunmuşdur. |

*7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

| |
|---|
| AzTU-da beynəlmiləlləşmə siyasətinin icrası çərçivəsində həyata keçirilən proqramlara beynəlxalq və yerli layihələrdən qazanılan qrantlarla yanaşı, həmçinin universitetin maliyyəsi hesabına resurslar ayrılır. Universitetdə xarici ezamiyyələrə ayrılan vəsaitlər ildən-ilə artırılır, beynəlmiləlləşmə prosesinin daha da inkişaf etməsi üçün universitet maddi və insan resurlarını ən optimal şəkildə istifadə edir. |

Son 7 ildə ezamiyyələrə ayrılan vəsaitlər aşağıda qeyd olunan məbləğlərdə olmuşdur:

| **Tədris ili** | 2015-2016 | 2016-2017 | 2017-2018 | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 |
|---|---|---|---|---|---|---|---|
| **Ezamiyyə xərcləri (AZN)** | 41500 | 24583,69 | 29987,30 | 19654,27 | 7796,46 | 40000 | 41000 |

AzTU, beynəlmiləlləşmə prosesində ehtiyac duyulan maliyyə resurslarının bir qismini beynəlxalq qrant proqramları çərçivəsində əldə edir və eyni zamanda, bu layihələr çərçivəsində Avropanın ali təhsil məkanının ən yaxşı təcrübəsini öyrənərək universitetin potensialının artırılmasına dəstək olur. AzTU 2015-2022-ci illərdə 8 beynəlxalq qrant layihəsinin işlənilməsinə birbaşa olaraq cəlb olunmuşdur. Bunlardan 1-i Tempus proqramı, 6-sı Erasmus KA2 programı, 1-i isə UNESCO-nun İştirak proqramı çərçivəsində həyata keçirilib. Layihələr çərçivəsində elm və təhsil sahəsində müxtəlif istiqamətlər üzrə ən yaxşı Avropa təcrübəsi öyrənilmiş, elmi əməkdaşlıq sahələri müəyyən edilmiş və geniş əməkdaşlıq şəbəkəsi qurulmuşdur.

1. “Gürcüstan, Azərbaycan və Moldovada turizm sənayesinin inkişafı üçün mehmanxana menecmenti üzrə bakalavr-magistr hazırlığı” Tempus LMPH layihəsi (01.05.2014 - 30.05.2017) - **122500 Avro**
2. “Rusiya Federasiyası, Çin və Azərbaycanda binaların enerji və ətraf mühit səmərəliliyi üzrə açıq və distant təhsil formatında peşə bakalavrı” Erasmus+ LPEB layihəsi (15.10.2015 - 14.10.2018) - **101011 Avro**
3. “Azərbaycanda doktorantura təhsilinin vahid Avropa Ali Təhsil Məkanının standartlarına uyğunlaşdırılması və strukturlaşdırılması” NIZAMI Erasmus+ KA2 layihəsi (01.10.2015 – 01.10.2018) - **107815 Avro**
4. ERASMUS+ KA2 proqramı çərçivəsində “Nəqliyyat servisi üçün böhran və risklərin mühəndisliyi” CRENG layihəsi (15.11.2018 - 15.11.2021) - **72687 Avro**
5. Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və risklərin idarə olunması üzrə açıq və distant təhsil

formatında peşə bakalavrı və magistr hazırlığı – LMQSante ERASMUS+KA2 layihəsi (15.11.2020 - 14.11.2023) - **65484 Avro**

6. “Azərbaycanda Rektorlar Konfransının yaradılması” – ECAR Erasmus+ layihəsi (15.01.2021 – 15.01.2024) - **39328 Avro**
7. “İnnovativ və davamlılıq prinsipləri ilə klasterlərin inkişafında təşəbbüs və iştirak etmənin universitetlərin potensialının artırılmasında rolu” – UniClaD ERASMUS+ KA2 layihəsi (15.01.2020-14.01.2023) - **67845 Avro**

AzTU beynəlxalq qrant layihələrində aktiv iştirak edir və layihələrin məqsədlərinə uyğun olaraq universitetin kadr potensialının artırılması və təhsilin keyfiyyətinin yüksəldilməsində uğurlu nəticələr əldə edir. AzTU-da son dövrlərdə birgə təhsil proqramları istiqamətində uğurlu işlər həyata keçirilib və ikili diplom proqramları çərçivəsində müqavilələr imzalanıb. Həmin proqramlar çərçivəsində müəyyən ixtisaslarda xarici universitetlərin tədris planları və fənləri mənimsənilib. Bu layihələr universitetə beynəlxalq birgə proqramların hazırlanması üzrə təcrübə qazandırmışdır. Eyni zamanda müvafiq hazırlanan birgə təhsil proqramları üzrə xarici universitetlərin beynəlxalq əmək bazarına cavab verən kurikulumlarının hazırlanma metodikası və məzmunu AzTU tərəfindən mənimsənilərək bu prosesdə iştirak edən əməkdaşlara yeni bilik və bacarıqlar qazandırmışdır.

AzTU-nun beynəlmiləlləşmə siyasətinin əsas icraçısı Xarici əlaqələr şöbəsi 2020-ci ildən etibarən 6 ştat vahidindən, Əcnəbi tələbələrlə iş şöbəsi isə 4 ştat vahidindən ibarət olmaqla, ümumilikdə 10 işçi fəaliyyət göstərmişdir. 2022-ci ilin oktyabr ayından etibarən bu istiqamətdə fəaliyyətin səmərəliliyinin artırılması üçün universitetin Elmi Şurasının qərarı ilə mövcud olan 2 şöbə birləşdirilmiş və hazırda Beynəlxalq əlaqələr şöbəsi olaraq fəaliyyətinə davam edir. Eyni zamanda, ingilis dilinin tədrisinin akademik səviyyədə inkişafı və əcnəbi tələbələrin hazırlığının keyfiyyətli formada tədrisi üçün Dil Texnologiyaları İnstitutu yaradılaraq fəaliyyətə başlamışdır. Hal hazırda Beynəlxalq əlaqələr şöbəsində 6 əməkdaş fəaliyyət göstərir. Şöbələr müvafiq olaraq otaqlar, kompüterlər və digər iş fəaliyyətinin səmərəliliyini təmin edəcək avadanlıqlarla təchiz olunub.

AzTU-da mübadilə və qrant proqramları çərçivəsində tələbə və müəllimlərin, o cümlədən inzibati heyətin mübadiləsi, elmi-tədqiqat proqramları çərçivəsində tələbə və əməkdaşların qısamüddətli təcrübə keçmələri, müxtəlif vaxtlarda əcnəbi müəllimlərin tədrisə cəlb olunmaları, ikili diplom proqramları çərçivəsində

tələbələrin yarı təhsilini xaricdə alma imkanı əldə etmələri ilə beynəlmiləlləşmə siyasətinin icrasına insan resursları cəlb olunur.

Beynəlmiləlləşmə siyasətinin icrasından irəli gələn, ehtiyac duyulan istər maddi, istərsə də insan resurslarının artırılması məsələlərinin 2022-2023-cü tədris ilindən etibarən dövri olaraq həyata keçirilməsi nəzərdə tutulan siyasətin idarəedilməsinin monitorinqində qeydə alınması və müvafiq islahatların keçirilməsi planlaşdırılır.

*7.4. Beynəlmiləlləşmə performansı*

ATM-in beynəlmiləlləşməsi istiqamətində görülən işlərə demək olar ki, bütün struktur bölmələri cəlb olunur. Bu istiqamətdə həm birbaşa, həm də izləmə və vasitəçilik etmə funksiyası universitetin beynəlxalq əlaqələri həyata keçirən strukturlarının üzərinə düşür. Belə ki, universitetin Xarici əlaqələr şöbəsi tərəfindən beynəlxalq əməkdaşlıqların qurulması; dünya ali təhsil bazarında davamlı mövqeyə malik olmaq; kurikulumun beynəlxalq tələblərə uyğunlaşdırılması; tədris proqramının bir tərkib hissəsi kimi müəllim və tələbələrin mübadiləsi; xarici ali təhsil müəssisələri ilə ortaq tədqiqat işlərinin aparılması; xarici ali təhsil müəssisələri ilə birgə təhsil proqramlarıının həyata keçirilməsi; əcnəbi tələbələrin cəlb edilməsi və s. istiqamətlərində ya bir başa işlər görülür, ya da müvafiq strukturlara yönləndirilərək icra müddəti və nəticələri izlənilir. Bu istiqamətdə əsasən Beynəlmilləşmə siyasəti üçün hazırlanmış sənəddə məsələlərin hər biri üzrə əsas fəaliyyət göstəriciləri (Key Performance Indicators KPI) və onların orta, yaxşı və əla kateqoriyaları üzrə ölçülə bilən meyarları müəyyən olunmuşdur. Buraya ingilis dilində tədris proqramlarının açılması, bakalavr və magistratura səviyyəsində aparıcı ixtisasların beynəlxalq akkreditasiyadan keçməsi, nüfuzlu reytinq cədvəllərində iştirak, tələbə və müəllim mübadiləsinin sayının artırılması, ikili diplom proqramlarının genişləndirilməsi, əcnəbi müəllimlərin tədrisə cəlbi, beynəlxalq qrant layihələri çərçivəsində akademik və inzibati heyətin potensialının artırılması, bütün ixtisaslar üzrə tədris planlarının beynəlxalq tələblərə uyğunlaşdırılması kimi məsələlər öz əksini tapır.

AzTU-nun Xarici əlaqələr şöbəsi beynəlmiləlləşmənin inkişafı üçün müəyyən olunmuş əsas fəaliyyət göstəricilərinin təkmilləşdirilməsinə, nəticələnməsinə nəzarət edir və digər struktur bölmələrin bu istiqamətdə fəaliyyətlərinə dəstək olur.

## 5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 36 | | | | |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 10 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **46** | | | | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 21 | | | | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 12 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **45** | | | | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 11 | | | | |
| 3.2 Təhsil proqramları | 29 | | | | |
| 3.3 Tədrisin təşkili | 63 | | | | |
| 3.4 Tədris metodları və üsulları | 22 | | | | |
| 3.5 Təlim və tədris resursları | 43 | | | | |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 36 | | | | |
| 3.7 Professor-müəllim heyəti | 27 | | | | |
| 3.8 Tələbəyönümlü tədris | 32 | | | | |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 13 | | | | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 10 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **286** | | | | |
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 22 | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4.2 Tədqiqat resursları | 18 | | | | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 51 | | | | |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **100** | | | | |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 21 | | | | |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 23 | | | | |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 35 | | | | |
| 5.4 İnformasiya idarəetmə sistemi | 19 | | | | |
| 5.5 İctimaiyyətlə əlaqələr | 14 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **112** | | | | |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 36 | | | | |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 5 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **41** | | | | |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 19 | | | | |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 24 | | | | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 10 | | | | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 4 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **57** | | | | |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **687** | | | | |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

1. **Strategiya inkişaf istiqaməti üzrə:**

1. Azərbaycan Texniki Universiteti nizamnaməsinin tələblərinə uyğun olaraq idarə edilir və universitetin Strateji inkişaf planı mövcuddur, və əmək bazarının, cəmiyyətin və milli iqtisadi inkişafın istiqamətləri, dövlət təhsil standartlarının tələblərinə uyğundur.
2. Universitetin sonuncu akkreditasiya qiymətləndirilməsi nəticəsində verilmiş tövsiyələrdən 14 tədbir və 3 alt tədbir icra olunmuş, digər 1 tədbir (6) və 2 alt tədbirin (11.1, 11.2) icrası üçün müvafiq işlər aparılır.
3. Hesabat dövründə AzTU QS dünya universitetləri reytinq sıralamasında yerini müəyyənləşdirmək üçün son illərdə təlimlərdə iştirak edərək, müraciət etmişdir və cari il üçün nəticələri gözləyir.
4. Son 3 ildə universitetin idarə edilməsinin təkmilləşdirilməsi üçün əsaslı islahatlar aparılmış, yeni zəruri struktur bölmələri yaradılmış və optimallaşdırma həyata keçirilmişdir.

**2. Kefiyyət təminatı istiqaməti üzrə:**

5. AzTU-nun sadə və anlaşıqlı dildə, onun Strateji İnkişaf Planına əsaslanan, maraqlı tərəflərin rəy və gözləntilərinin nəzərə alınaraq hazırlandığı müxtəlif istiqamətləri, o cümlədən təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri əhatə olunan Keyfiyyət siyasəti sənədi mövcuddur və həmin sənəd unversitet daxilində bütün struktur bölmələrə göndərilmişdir.
6. Unversitetdə daxili keyfiyyət təminatının tənzimlənməsi üzrə məsul struktur Keyfiyyətin Təminatı və Öyrənmə-öyrətmə Mərkəzidir. Mərkəz keyfiyyətin təmin olunması istiqamətində universitetin digərt struktur bölmələri ilə birgə işləri aparır.
7. Daxili Keyfiyyət Təminatı sistemi çərçivəsində müxtəlif vaxtlarda keyfiyyət təminatı üzrə müxtəlif komissiyalar yaradılmış, maraqlı tərəflərin cəlb olunması ilə həmin komissiyaların fəaliyyətləri Strateji inkişaf planındakı hədəflərlə eynilik təşkil edir.
8. Hazırda tədrisin, struktur bölmələrin fəaliyyətinin, strateji inkişaf planının icrasının və elmi tədqiqat prosesinin keyfiyyətinin monitorinq və qiymətləndirməsi alt qruplarını əhatə edəcək, eyni zamanda Strateji İnkişaf Planındakı hədəfləri tamamlayaqcaq vahid Keyfiyyət Komissiyası yaradılması istiqamətində işlər davam etdirilir.
9. AzTU-nun daxili keyfiyyət təminatı üzrə təsdiq edilmiş fəaliyyət planlarında icraçılar müəyyən edilmişdir.

10. Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat hazırlanmış və unversitetin Elmi Şurasında təsdiq olunmuşdur.
11. Hazırda unversitetin daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olan, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən keyfiyyət təminatı bələdçisi hazırlanır və maraqlı tərəflərlə müzakirə edilir.
12. ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi məqsədi ilə keçirilən sorğuların nəticələrinin unversitetin Elmi Şurasında müzakirə olunması məqsədəuyğun hesab olunur.
13. Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi istiqamətində unversitetdə mütəmadi sorğular keçirilmiş və bu proses davamlı olaraq aparırılır. Eyni zananda unversitetdə keyfiyyət mədəniyyətinin müasir tələblərəsəviyyəsinə uyğulaşdırmaq üçün əlavə tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur.
14. Daxili Keyfiyyət Təminatı sisteminin cari tədris ilində təsdiq edilən fəaliyyət planında hər bir proses üzrə tədbirlər, struktur-bölmələr və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi öz əksini tapmışdır. Eyni zamanda həmin fəaliyyət planında təhsil proqramları, inzibati və akademik heyət, fakültələr, təhsilalanlarla bağlı keyfiyyət təminatı istiqamətində icra olunacaq müxtəlif fəaliyyətlər öz əksini tapmışdır.
15. Təlim-tədris və tədqiqat fəaliyyətlərinin inkişaf etdirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün lazım olan akademik və inzibati heyətin, infrastrukturun, avadanlıqların və digər zəruri obyektlərin müəyyən edilməsi üçün universitet rəhbərliyi ilə struktur rəhbərləri arasında mütəmadi görüşlər keçirilir və universitetin missiyasına, məqsəd və hədəflərinə uyğun prioritetlər müəyyən edilir.

**3. Təlim və Tədrisi istiqaməti üzrə:**

16. Təhsilalanların qəbulu əmək bazarının tələblərinə uyğun və əvvəlki illərin faktiki qəbulu da nəzərə alınmaqla planlaşdırılır və əvvəlki kvalifikasiyaların tanınması mövcud qanunvericiliyə və təhsil proqramlarına uyğun aparılır.
17. Əmək bazarı, cəmiyyətin və iqtisadiyyatın, mövcud qanunvericiliyin, ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələbləri nəzərə alınmaqla, müvafiq ixtisasların profilləri üzrə aparıcı mütəxəssislərin iştirakı ilə tərtib olunan Təhsil proqramları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir.
18. Tədrisin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər

Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" və 2010-cu il 24 iyun tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili" Qaydalarının tələblərinə uyğun hazırlanmış tədris planlarının əsasında həyata keçirilir.

19. Tədris prosesində tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan, təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə edilir
20. Tədris prosesi öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sistemi (KOİCA) bazasında müasir təlim prosesini aparmaq üçün texnika (proyektor, kompüter, ağıllı lövhələr və s) ilə təchiz olunmuş auditoriya və laboratoriyalarda yerinə yetirilir.Eyni zamanda, tədrisin elektron təhsil sisteminin və adutoriya və laboratoriyaların təkmilləşdirilməsinə ehtiyac vardır.
21. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi prosesi ədalətlilik, obyektivlik, şəffaflıq şəraitində, müxtəlif formalardan (üz-üzə, məsafədən, qarışıq, açıq və s.), metod və vasitələrdən istifadə olunmaqla aparılır və yekun olaraq tələb oluna bütün kreditləri toplayan məzunlara müvafiq dövlət sənədləri, təhsil səviyyəsini müvəffəqiyyətlə bitirməyən şəxslərə isə müvafiq akademik arayışlar verilir.
22. Akademik heyətə interaktiv və aktiv tədris metodları, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər keçirilmiş, pandemiya dövründə əməkdaşların öz şəxsi kabinetlərindən istifadə etməklə onlayn dərsləri müxtəlif platformalar üzərindən təşkil olunmuş, bunun üçün interaktiv və aktiv tədris metodları və distant təhsilin təşkilinə dair təlimlər keçirilmiş və müvafiq təlimatlar elektron qaydada əməkdaşlara təqdim edilmiş, pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlar, diferensial əmək haqqının təyin edilməsi üçün proqram təminatı işlənilmiş və əməkdaşlara təlimatlar keçirilmişdir. Eyni zamanda, professor-müəllim heyətinin müasir trendlərə cavab verən tədrisə tam cavab verməsi üçün təlim və digər tədbirlərin intensivliyi artırılmalıdır.
23. Tələbəyönümlü tədrisin təşkili üçün AKTTS-nə əsasən təhsilalanlar fərdi tədris planının tərtib edilməsində akademik məsləhətçilərin (tütorların) yaxından köməkliyi, tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlər üzrə tələbələrə tam seçim sərbəstliyi təmin edilir, tədris prosesinin təşkili, tədrisin keyfiyyəti, elmi-tədqiqat işlərində iştirak, sosial məsələlər və s. istiqamətlərdə tələbələrin rəyləri müxtəlif vasitələrlə öyrənilir və təmin edilməsinə çalışılır.

24. Təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət plan əsasında mütəmadi olaraq ixtisaslar üzrə təhsil proqramlarının məzmunu və mənsimsənilmə səviyyəsi təhlil olunur, tədris olunan fənlərin əsasən ABŞ, Almaniya, Türkiyə, Rusiya və digər ölkələrin aparıcı universitetlərində tədris olunan fənlərə uyğunluğu təmin olunur.
25. Tədris planlarının əmək bazarının tələbləri nəzərə alınmaqla yeniləmnəsi zəruridir.
26. Xarici dildə təhsil proqramları əvvəlki illərlə nisbətdə fərqlilik göstərsə də (hazırda 3 ingilis dilli proqram mövcuddur), bu göstərici hələ də az olduğu üçün istər əcnəbi tələbələrin qəbulu, istərsə də mübadilə proqramlarının dinamikasına mənfi təsir edir.
27. Magistratura təhsil pilləsində tədris olunan fənn sayının və məzmununun əmək bazarının tələbləri və texnika və texnologiya sahəsində yeni trendlər nəzərə alınmaqla təkmilləşdirilməsi vacibdir.
28. Tədris hissəsinin tərkibində akkreditasiya olunan 2015/2016÷2019/2020-ci tədris illərində "Təcrübə və məzunlarla iş", 2020/2021-ci tədris ilində "Karyera mərkəzi", 2021/2022-ci tədris ilindən isə yeni yaradılan müstəqil "Karyera və məşğulluq mərkəzi" universitet-məzun əlaqələrinin yaradılmasına və daha da möhkəmləndirilməsinə xidmət edir, həmçinin tələbə və məzunlara karyera məsləhət xidmətləri göstərir və məşğulluqla bağlı universitetin təhsil alan tələbələrinə və məzunlara təkliflər təqdim edir, əmək yarmarkaları keçirir, təhsilalanların sərgilərdə iştirakını təşkil edir, həmçinin təhsilalanların müxtəlif proqramlar üzrə təcrübələrdə iştirakı işini təşviq edir. Eyni zamanda, sözügedən istiqamətdə əlavə tədbirlərin görülməsi arzuolunandır.

**4. Elmi-tədqiqat istiqaməti üzrə:**

29. Universitetin mövcud strategiyası əsasında müəyyən edilmiş elmi-tədqiqat və innovasiya fəaliyyətinin strateji istiqaməti müəyyən edilmişdir. Strategiyada AzTU -nun elmi tədqiqat siyasəti, zəruri təşviq mexanizmləri, kadr potensialının inkişaf etdirilməsi, universitetin sənayeyə inteqrasiyası kimi məqamlar əksini tapmışdır.
30. Elmi - tədqiqatların aparılması məqsədi ilə tədqiqat resurslarının formalaşdırılması üçün mexanizmlər mövcuddur. Həmçinin AzTU -nun apardığı elmi tədqiqat istiqamətlərində kadr potensialı, elmi-tədqiqat strukturları var və onlar arasında lazımi inteqrasiya təmin olunmuşdur. Universitetdə gənc tədqiqatçıların formalaşması üçün magistrantlar və doktorantlar arasında təşviqat işləri aparılır, həmçinin elmi-tədqiqat işlərinin davamlılıını təşkil etmək üçün stimullaşdırıcı mexanizmlər mövcuddur. AzTU müxtəlif elmi təşkilatlarla sıx elmi fəaliyyətinə üstünlük verir.

31. Müxtəlif təyinatlı yerli və xarici elmi-tədqiqat (sahə) institutları, layihə təşkilatları, sənaye və digər müəssisələr ilə birgə elmi-tədqiqat işlərinin daha yüksək səviyyədə təşkil olunması məqsədəuyğun hesab olunur.
32. Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üçün Tədqiqat və inkişaf şöbəsi, 7 institutlar (tədqiqat sahələrinə uyğun) və kafedralar formalaşdırılmışdır ki, onlar universitetin strategiyasına uyğun tədqiqat fəaliyyətləri həyata keçirirlər. AzTU-da tədqiqat fəaliyyəti müxtəlif konfransların, simpoziumların, innovativ fəaliyyətlərin, qrant layihələrində iştirak fəaliyyətinin, beynəlxalq şəbəkələrdə və ikitərəfli əlaqələr çərçivəsində əməkdaşlıq etməklə həyata keçirilir. Tədqiqat fəaliyyətinin aktivləşdirilməsi üçün magistaturada və doktoranturada səviyyələrində tədqiqat yönümlü tədrisin aparılması diqqətdə saxlanılır, onların tədqiqat mövzularının bilavasitə sənaye problemlərinin həll olunmasına həsr edilir və bu istiqamətdə təşviq edilir.
33. Universitetdə elmi kadrların hazırlığı üçün dissertasiya şuraları fəaliyyət göstərir.
34. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizmi mövcuddur. Belə ki, dissertasiyaların, o cümlədən magistr dissertasiyalarının, bakalavr buraxılış işlərinin antiplagiat proqramı vasitəsilə yoxlanılması həyata keçirilir. Bu məqsədlə, Strike Plagiarizm proqramı alınmış və Tədqiqat və inkişaf şöbəsi tərəfindən elmi işlərin yoxlanılma prosesi həyata keçirilir. Tədris ili ərzində 500 -ə dək elmi işin yoxlanılması həyata keçirilir.
35. Universitet CDİO Universitetlər şəbəkəsinə üzv qəbul olunmuş və tədqiqatların bu istiqamətdə tədrisə inteqrasiyası üçün ciddi təşəbbüsə qoşulmuşdur.
36. Elmi-tədqiqatlar üçün vacib əhəmiyyəti olan Elektron-kitabxana sisteminin yaradılması üçün ciddi yenidənqurma layihəsi həyata keçirilməyə başlanılmışdır.
37. Hesabat dövründə elmi-tədqiqat işlərinin aktivləşdirilməsi məqsədilə 9 İnstitut, 7 Mərkəz (Univeritet-Sənaye İşbirliyi və Ömürboyu Təhsil Mərkəzi, Karyera Mərkəzi, Keyfiyyətə Nəzarət və Öyrətim Öyrənim Mərkəzi, HUB 1887: İnkubasiya və Akselerasiya Mərkəzi, Kitabxana və İnformasiya Mərkəzi, Texniki Terminoloji Tədqiqatlar Mərkəzi, Sabah Mərkəzi) yaradılmış və tədqiqat işlərinin aparılması üçün lazımi təşkilati işlər yerinə yetirlir.
38. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrdən ümumilikdə 1356 tədqiqatçılar iştirak etmişdir. Konfranslarda xarici ölkələrdən iştirakçıların sayının artırılmasına ehtiyac duyulur.

**5. İdarəetmə istiqaməti üzrə**

39. Struktur bölmələrin əsasnamələrinə və vəzifə təlimatlarına əsasən formalaşan idarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsini İnsan resursları departamentinin İnsan resurslarının qiymətləndirilməsi şöbəsi həyata keçirir.
40. Universitet əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsində işçilərin təlim ehtiyacları müəyyən edilir, nəticəyə əsasən təlim planlaması təklifi hazırlanır. Təlim prosesinin monitorinqi həyata keçirilir. Universitet əməkdaşlarının preformans göstəricilərinə əsasən karyera planlaması prosesi təşkil edilir.
41. Universitetdə işə qəbul komissiyası və universitetin tələbə və məzunlarının, eyni zamanda elan olunmuş müvafiq vəzifələr üzrə müraciət edən namizədlərin tərcümeyi-hal bazası mövcuddur.
42. ATM-in maliyyə resursları dövlət sifarişi ilə təhsil alanların və ödənişli əsasda təhsil alanların təhsil haqqından, elmi-tədqiqatlar layihələrindən, ianələrdən, qrantlardan və s. formalaşır.
43. AzTU-da modul və proqramlardan ibarət informasiya idarəetmə sistemi, o cümlədən elektron təhsil sistemi - KOİCA (https://sso.aztu.edu.az), Onlayn imtahan sistemi, AzTU Konfrans sistemi ( https://aztuconference.aztu.edu.az/ ), Əcnəbi Tələbələrin müraciət sistemi, Rektor ilə online görüş sistemi, Təkrar Ali Təhsil sistemi,İxtisas artırma təhsilinə müraciət sistemi, Onlayn apellyasiya sistemi, FORSYS Əcnəbi Tələbələrin qeydiyyat sistemi (http://forsys.aztu.local), EduPay Tələbə təhsil haqqı ödəniş sistemi (http://edupay.aztu.local), AMAS Akademik Məlumat və Diferensial Əmək Haqqı hesablama sistemi (http://amas.aztu.edu.az) mövcuddur.
44. İmtahanların tətbiq olunması və balların hesablanaraq Elektron Təhsil Sisteminə yüklənməsi, dərslərin keçirilməsi, jurnallar, tədris materiallarının tələbələrlə paylaşılması, konfransların nizamlanması, təlim-tədris prosesi ilə əlaqədar fəaliyyətlər rəqəmsallaşdırılmışdır.
45. AzTU-nun rəsmi saytının (aztu.edu.az) interfeysinin istifadəçi dostu və mobil cihazlara uyğun olaraq təkmilləşdirilməsi, məlumatların daha əlçatan olması məqsədi ilə 2022-ci ilin sentyabr ayından saytın yeni dizaynı “beta” versiyada istifadəyə verilmişdir. Hazırda təkmilləşdirmə işləri davam edir.
46. Universitetdaxili tədbirlərin və məlumatların çatdırılması korporativ elektron poçt sistemi vasitəsilə həyata keçirilir.

6. **İnfrastruktur istiqaməti üzrə:**

47. Kitabxanada 2016 - 2022 illər ərzində IRBIS 64 proqramı mövcud olmuşdur. İllər ərzində istifadəsi üzrə effektivlik daha da artmışdır. Tələbə məlumatları hər il sistemlə inteqrasiya edilmiş və kitabxanaya məxsus əlavə sayt da fəaliyyət göstərmişdir. Müasir tələbləri nəzərə alaraq yeni kitabxananın yaradılması üçün təmir-tikinti işləri davam etdirilir.
48. Hazırda universitetdə 170 otaqda aktiv olaraq yenilənmiş kompüter və proyektorlar fəaliyyət göstərir. İxtisaslar üzrə müvaqfiq avadanlıqlarla təhciz olunmuş tədris laboratoriyaları mövcuddur- son 1 ildə 6-sı 19 nəfərlik, 3-ü 25 nəfərlik, 2-si 16 nəfərlik və biri 44 nəfərlik olmaqla, 12 kompüter otağı yaradılmışdır.
49. Pandemiya dövründə universitetdə Zoom və Microsoft Teams proqram təminatları ilə tədris prosesi distant olaraq təmin edilmişdir.
50. Pandemiyadan əvvəl universitetdə tələbə və müəllimlərin ehtiyaclarını qarşılaya biləcək yeməkxana mövcud olmuşdur, hal hazırda yeməkxanada təmir-tikinti işləri davam etdirilir.
51. Universitet yataqxanası 1992-ci ildən fəaliyyətə başlamış, pandemiya dövrünə qədər davam etmişdir. Son 2 ildə isə fəaliyyət göstərməmişdir. Yataqxanada bu müddət ərzində məcburi köçkünlərin yerləşdirilməsi də həyata keçirilmişdir.
52. Universitetin tələbə və əməkdaşlarına xidmət göstərən poliklinikası fəaliyyət göstərir.
53. Elmi tədqiqatlar, layihə prototiplərinin hazırlanması prosesində 3D printer, CNC kəsim aparatlı, həmçinin avtomatlaşdırılmış digər laboratoriyalar mövcuddur və bu laboratoriyalar tələbələrin istifadəsinə açıqdır.

7. **Beynəlmiləlləşmə istiqaməti üzrə:**

54. Azərbaycan Texnki Universitetinin mövcud inkişaf strategiyası əsasında hazırlanmış beynəlmiləlləşmə siyasətinə aid sənəddə bütün istiqamətlər universitetin əsas strateji hədəflər uyğun hazırlanmışdır. Beynəlmiləlləşmə siyasətinə aid sənəddə əcnəbi tələbələrin qəbulu, akademik heyətin beynəlxalq təcrübə qazanması,müəllim-tələbə mobillyi, beynəlxalq reytinq cədvəllərində və şəbəkələrdə iştirak, dünyanın aparıcı təhsil-elm mərkəzləri və unviversitetləri ilə əməkdaşlıq, xarici tərəfdaşlar ilə birgə layihələr və ikili diplom proqramlarının hazırlanması, kimi məsələlər öz əksini tapmışdır.
55. Beyəlxalq əlaqələrin inkişaf etdirilməsi və beynəlmiləlləşmə siyasətindən irəli gələn işlərin idarə olunması istiqamətində akkreditasiya aparılan dövrdə bir sıra struktur islahatları aparılmış və davamlı sürətdə təkmilləşdirilmişdir. Beynəlmiləlləşmə siyasətinə aid sənəddə göstərilmiş mühüm fəaliyyət idikatorlarında (Key Performance Indicators) (MFİ) müəllim-tələbə mobillyi, əcnəbi professor-müəllim heyətinin cəlb olunması, ikili

diplom proqramlarının hazırlanması, beynəlxalq reytinq cədvəllərində iştirak kimi istiqamətlər üzrə meyarlar müəyyən olunmuşdur. BU meyyarların monitoriginin davamlı olaraq həyat keçirlməsinin vacibliyini nəzərə alaraq, 2022-2023-cü tədris ilindən etibarən bu meyarlar üzrə illik və ya yarımillik hesabatlar formasında monitorinq edilərək nəzarət edilməsi planlaşdırılıb.

56. Beynəlxalq əlaqələrinin genişləndirilməsi və bu əlaqələrin vasitəsi ilə beynəlmiləlləşmə siyasətinə aid sənəddə göstərilən məsələlərin yerinə yetirilməsi üçün universitet həm daxili büdcəsi hesabına, həm də beynəlxalq qrantlar vasitəsi ilə lazımı maliyyə resurslarının ayrılmasını təmin edir. Eyni zamanda bu istiqamətdə fəaliyyətlərə beynəlxalq əlaqələr şöbəsi ilə yanaşı universitetin digər struktur bölmələri və akademik heyətinin cəlb olunması nəzərdə tutulur. Beynəlmiləlləşmə siyasətinə ayrılan resurslar beynəlmiləlləşmə siyasətinə aid sənəddə öz əksini tapmış MFİ-lər üzrə illik nəticələrin əldə olunmasına xidmət edir. illik və ya yarımillik hesabatlar formasında aparılacaq monitorinqlərin nəticələri və bu nəticələrin növbəti dövr üçün daha da yaxşılaşdırılması üçün ayrılan resursların dəyərləndirilməsi və təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

57. Beynəlmilləşmə siyasəti üçün hazırlanmış sənəddə öz əksini tapan məsələlərin hər biri üzrə MFG orta, yaxşı və əla kateqoriyaları üzrə ölçülə bilən meyarları müəyyən olunmuşdur. Bu meyarların bugünə qədər olan göstəricilərinin hər biri pademiya dövrünə aid fəsadları çıxmaqla artan istiqamətdə dəyərləndirilə bilər. Beynəlmilləşmə siyasəti üçün hazırlanmış sənəddə öz əksini tapan məsələlərin hər birinə illər üzrə kifayət dərəcədə ayrılacaq resursların mövcudluğu bu göstəricilərin daha da yaxşılaşdırılmasına xidmət edəcəkdir.

**58.** AzTU beynəlxalq qrant layihələri çərçivəsində kifayət qədər professor-müəllim heyətinin peşəkar inkişaf proqramlarına cəlb olunmasına nail olmuşdur.

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

1. Təhsil müəssisəsinin Nizamnaməsi;
2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Proqramı;
3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. Təhsil müəssisəsinin maddi-texniki bazası;
12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərsdənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;

22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.